Xalqın qəzeti!

# Xalq qəzeti

№ 133 (30249) 24 iyun 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür.

# Zəfər zirvəsində güclənən ordu!



## Prezident İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib

**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib.**

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisindəki abidəsi önünə gül dəstələri düzdü, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad etdi.

Sonra Prezident İlham Əliyev şəxsi heyətin atış vərdişlərini təkmilləşdirməsi üçün təyin olunmuş qapalı atış şəhərciyinə baxdı. Məruzə olundu ki, burada tapança, pnevmatik silah və kiçikçaplı tüfənglərdən atəş açmaq üçün nəzərdə tutulmuş 25 metr uzunluğunda iki atış zolağı, həmçinin atışın nəticələri əks olunan monitor mövcuddur.

Dövlətimizin başçısı komandoların fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi üçün zəruri trenajor və digər idman avadanlıqları ilə təchiz olunmuş qapalı idman zalına gələrək buradakı şəraitlə maraqlandı.

Hərbi hissədəki açıq idman şəhərciyində isə güc məşğələlərinin icrası üçün avadanlıqlar, dözümlülüyün artırılması məqsədilə maneələr zolağı, eləcə də futbol, voleybol, uzunluğa və hündürlüyə tullanma meydançaları yaradılıb. Ali Baş Komandan burada komandoların intensiv hazırlıq məşqlərini izlədi.

Sonra Ali Baş Komandan əsgər yataqxanasında yaradılan şəraitlə tanış oldu, oradakı silah otağı, əşya anbarı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı üçün ideoloji iş və digər inzibati otaqlara baxdı. Silah otağında Prezident İlham Əliyevə əksəriyyəti Azərbaycan istehsalı olan silah nümunələrinin taktiki-texniki xüsusiyyətləri barədə məlumat verildi.

Əşya anbarında nümayiş etdirilən müxtəlif hərbi geyim formaları arasında Azərbaycan Ordusunda yeni tətbiq olunacaq səhra geyim forması da təqdim edildi.

Sonra dövlətimizin başçısı hərbi hissənin sıra meydanına gəldi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə hərbi hissəyə Döyüş bayrağının təqdim edilməsi mərasiminə hazırlıq barədə məruzə olundu.

Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

# 24 iyun 1993-cü il – Prezident səlahiyyətlərinin Heydər Əliyevə verildiyi gün



Səhifə ⇨ 5

# Bakı–İrəvan sülh nizamlamasına AŞPA-dan növbəti zərbə

**Ermənistanın ictimai rəyində Fransanın ermənipərəstliyini tənqid edən bir fikir çox populyardır. Həmin fikrə görə, Paris müxtəlif qətnamələrin çıxarılmasına təşəbbüs göstərməklə, İrəvana ancaq sözdə dəstək verir, əməldə isə ortada heç nə yoxdur. Bu baxışın təmsilçiləri, eyni zamanda, belə qənaətdədirlər ki, sözdə dəstək Ermənistan hakimiyyətinin illüziyalara qapılmasına səbəb olur. İllüziyalara qapılmaq isə yekunda xoşagəlməz nəticələr doğurur.**



Ona görə də Fransa, əslində, canfəşanlığı ilə Ermənistana zərər vurur. Söhbət Azərbaycanla münasibətlər baxımından olan zərərdən gedir. Yəni, İrəvan rəsmiləri ürəklənərək, maksimalist iddialar səsləndirirlər, Bakının buna qarşı çıxması isə Ermənistan üçün növbəti uğursuzluğa səbəb olur.

İndi bu deyimi Avropa Şurasının Parlament Assambleyası ilə bağlı da söyləmək mümkündür. Qurum "Laçın dəhlizi ilə azad və təhlükəsiz hərəkətin təmin edilməsi" adlı qətnamə qəbul edib ki, həmin sənəd Azərbaycana qarşı qərəzin növbəti bariz nümunəsi olmaqla yanaşı, ermənipərəstliyin də aşkar təzahürüdür.

*(ardı 3-cü səhifədə)*

# Makron ekorepressiyası



Səhifə ⇨ 7

# Olimpə yüksələn korrupsiya

**Fransa Respublikası dünyada özünü insan hüquq və azadlıqlarının, qanun-qaydanın qoruyucusu kimi göstərir. Başqa ölkələrdən də bunu tələb edir. Amma gərək ölkə əvvəl özü şəffaflıqda digərlərinə nümunə olsun. Fransa polisinin 2024-cü ilin iyulun 26-dan avqustun 11-dək Parisdə keçiriləcək XXXIII Yay Olimpiya Oyunları (Paris-2024) Təşkilat Komitəsinin ofislərində iki axtarış həyata keçirməsi isə Parisin öz gözündə tiri görməyib, özgə gözündə tük axtarmasından xəbər verir.**




Birinci axtarış müqavilələr və dövlət vəsaitləri ilə iş zamanı üzə çıxan maliyyə pozuntuları ilə bağlıdır. Bildirilib ki, polis Yay Olimpiya Oyunları Təşkilat Komitəsinin ofisləri, eləcə də oyunlar üçün tikinti və infrastrukturun böyük hissəsinə cavabdeh olan SOLIDEO dövlət orqanının baş qərargahı da daxil olmaqla, bir neçə obyektdə axtarış aparıb. İlkin araşdırmalar zamanı maraqların toqquşması, dövlət vəsaitinin mənimsənilməsi və bir neçə müqavilə üzrə üstün münasibət faktları üzə çıxıb. İkinci axtarış isə 2022-ci ildə Fransa polisinin digər ixtisaslaşmış maliyyə bölməsi tərəfindən başladılan proses çərçivəsində keçirilib.

Olimpiya Oyunlarının təşkili zamanı böyük maliyyə pozuntularına yol verilməsi istiqamətində araşdırmalar barədə nüfuzlu CNN kanalı geniş reportaj hazırlayıb. Təşkilat komitəsinin sözçüsü Conatan Firpo maliyyə polisinin göstərişi ilə axtarışların aparıldığını təsdiqləyib. Həmçinin Fransa Milli Prokurorluğu da SOLIDEO-nun baş qərargahında reyd keçirildiyini təsdiqləyən açıqlama verib.

*(ardı 4-cü səhifədə)*

# Ölkəmizin "qara qızıl" xəzinəsi



Səhifə ⇨ 9

# "Co onu bağışlayacaq..."

Səhifə ⇨ 11

# Erməni xisləti: üzrxahlıq əvəzinə, ərazi iddiası...



Səhifə ⇨ 3

# Dediyin sözü kağız üzərində imzala, İrəvan!



**Zəfərimizlə başa çatan Vətən müharibədən sonra Azərbaycan Ordusunun daha da gücləndirilməsi, onun ən müasir silahlarla təchiz edilməsi, yeni qoşun növlərinin yaradılması prioritet sayılıb.**

Biz yaxşı başa düşürük ki, bölgəmizdə, xüsusən Ermənistanda hələ də gücün hesabına vəziyyəti dəyişməyə meyilli revanşist qüvvələr var. Bu reallığı nəzərə almaya bilmərik və məhz buna görə ordumuzun gücləndirilməsi bir nömrəli vəzifəmizdir. Azərbaycan hakimiyyəti bundan ötrü bütün zəruri tədbirləri yüksək peşakarlıqla həyata keçirir.

*(ardı 4-cü səhifədə)*

# Zəfər zirvəsində güclənən ordu!

## Prezident İlham Əliyevin çıxışı






(əvvəli 1-ci səhifədə)

- Əziz hərbçilər!

Mən sizi və Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirəm!

**Hərbçilər:** Sağ ol!

**Prezident İlham Əliyev:** Bu bayram günü ərəfəsində ölkəmizdə növbəti komando hərbi hissəsi açılır. Bu, çox əlamətdar hadisədir. Bildiyiniz kimi, Vətən müharibəsindən sonra mənim göstərişimlə Müdafiə Nazirliyində Komando Qüvvələri yaradılmışdır və komandoların sayı gündən-günə artır. Artıq bir neçə hərbi hissə fəaliyyət göstərir və yeni hərbi hissələrin açılışı nəzərdə tutulur. Beləliklə, biz öz döyüş qabiliyyətimizi əhəmiyyətli dərəcədə artırırıq və artıracağıq.

İkinci Qarabağ müharibəsində Xüsusi Təyinatlı Qüvvələr xüsusi peşəkarlıq və qəhrəmanlıq göstərmişdir. Bir çox hərbi əməliyyatların keçirilməsində onların xüsusi rolu var idi. Bütün bunları və müasir döyüş əməliyyatlarını nəzərə alaraq yeni Komando Qüvvələrinin yaradılması mənim tərəfimdən qarşıya bir vəzifə kimi qoyulmuşdur və bu vəzifə uğurla icra edilir.

İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi daha geniş vüsət almışdır. Təbii ki, işğal dövründə ordu quruculuğu bizim üçün bir nömrəli vəzifə idi və Ordumuzun, bütün Silahlı Qüvvələrimizin torpaqlarımızın azad olunması üçün hazırlıq işlərinə xüsusi önəm verilirdi və biz buna nail olduq. Vətən müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə yekunlaşmışdır.

Ancaq buna baxmayaraq, müharibədən sonra ordu quruculuğu üçün əlavə addımlar atılır və buna böyük ehtiyac var. Çünki dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bütün bunları nəzərə alaraq, Ordumuzun daha da gücləndirilməsi vəzifəsi bir nömrəli vəzifə olaraq qalır. Buna nail olmaq üçün təbii ki, kompleks tədbirlər görülür. Vətən müharibəsindən sonra yeni silahların alınması prosesi davam edir və artıq bir çox kontraktlar imzalanmışdır - həm yeni pilotsuz uçuş aparatlarının ölkəmizə gətirilməsi, həm uzaqmənzilli raketlərin ölkəmizə gətirilməsi, o raketlər ki, böyük dağıdıcı qüvvəyə və yüksək dəqiqliyə malikdir.

Müdafiə Nazirliyinin strukturunun təkmilləşdirilməsi prosesi gedir və bu proses davam edir. Hərbi təhsillə bağlı qəbul edilmiş qərarlar, əminəm ki, yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir. Yeni döyüş birləşmələrinin yaradılması, ilk növbədə, Komando Qüvvələrinin yaradılması döyüş qabiliyyətimizin artırılması üçün önəmli amillərdən biridir.

Biz bu gün Silahlı Qüvvələrimizi vahid proqram əsasında inkişaf etdiririk və əminəm ki, yaxın gələcəkdə bizim Ordumuz yeni, yüksək səviyyəyə qalxacaqdır. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür.

Bununla bərabər, digər xüsusi təyinatlı qüvvələrdə şəxsi heyətin say tərkibi genişləndirilir, Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin sayı böyük dərəcədə artırılmışdır. Mən artıq qeyd etdim, müharibə dövründə Müdafiə Nazirliyinin xüsusi təyinatlıları xüsusi qəhrəmanlıq və peşəkarlıq göstərmişlər. Müdafiə Nazirliyinin dəniz piyadalarının sayı bir neçə dəfə artırılıb və bu artım davam edir. Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti - bu qurumların xüsusi təyinatlı qüvvələrinin sayı dəfələrlə artırılıb və bütün bu böyük qüvvə bir məqsəd güdür, ərazimizin qorunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi və əgər bizim təhlükəsizliyimizə təhdid olarsa, düşmən qüvvələrə sarsıdıcı zərbələrin endirilməsi. Bu gün deyəndə ki, İkinci Qarabağ müharibəsindən sonra Ordumuz daha da güclənib, o cümlədən mən bunu nəzərə alıram.

Onu da bildirməliyəm ki, uğurlu iqtisadi siyasətimiz bizə imkan verir ki, ordu quruculuğuna, yeni silahların, yeni texnikaların alınmasına, yeni döyüş birləşmələrinin yaradılmasına lazımi dərəcədə dövlət vəsaiti ayrılsın. Bizim uğurlu iqtisadi siyasətimizi, ölkəmizin artan gəlirlərini nəzərə alaraq, bu yaxınlarda dövlət büdcəsinə əlavələr edilmişdir. Onsuz da bu ilin dövlət büdcəsi müstəqil Azərbaycan tarixində rekord büdcədir. Ancaq buna baxmayaraq, biz əlavə vəsaiti əldə edən kimi büdcənin artırılmasına yeni böyük məbləğdə vəsait ayırdıq və burada iki əsas istiqamət müəyyən edilmişdir - birincisi, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, ikincisi, hərbi potensialımızın gücləndirilməsi. Yəni, təkcə bu fakt özlüyündə onu göstərir ki, bizim üçün bu



gün prioritet məsələlərdən biri ordu quruculuğu, digəri isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir.

Bundan sonra da Ordumuzun daha da gücləndirilməsi üçün bütün lazımi tədbirlər görüləcək. Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidir. Məhz buna görə bizə qarşı edilən istənilən təxribat cavabsız qalmır, hər bir təxribata layiqli cavab verilir, istər hərbi cavab, istər siyasi cavab. Bu gün Azərbaycan o ölkələrdəndir ki, öz müqəddəratını özü müəyyən edir, heç kimdən asılı deyil və olmayacaq, öz sözünü açıq deyir və müstəqil siyasət aparır. Yəni, bizim ölkəmiz, sözün əsl mənasında, müstəqil ölkədir, çünki müstəqil siyasət aparmaq iqtidarındadır və bizə bu gücü verən, ilk növbədə, bizim hərbi potensialımızdır.

Biz İkinci Qarabağ müharibəsinə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən işğal dövründə dəfələrlə deyirdim ki, bizim üçün birinci vəzifə ərazimizin bərpasıdır, ərazi bütövlüyümüzün təmin edilməsidir. Deyirdim ki, əgər danışıqlar nəticə verməsə, biz güc tətbiq edərək öz tarixi torpaqlarımızı azad edəcəyik. Əfsuslar olsun ki, mənim sözlərimə bəziləri laqeyd yanaşdı. Ermənistan və onun xarici havadarları hesab edirdilər ki, onlar bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaq. Biz onların məkrli planlarını alt-üst etdik. Müharibəyə hazırlaşdıq, düşmənə elə sarsıdıcı zərbə vurduq ki, düşmən bu günə qədər özünə gələ bilmir.

İkinci Qarabağ müharibəsindən sonra biz hərbi Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirməli idik. İkinci Qarabağ müharibəsindən sonra bölgədə gündəliyi müəyyən edən yenə də biz olduq. Bu gün regionda proseslər yenə də bizim təkliflərimiz əsasında cərəyan edir. Əgər Vətən müharibəsindən sonrakı birinci ayları götürsək, görərik ki, yenə də Ermənistanın havadarları bizə köhnə tezisləri qəbul etdirməyə çalışırdılar. Biz isə bunu qətiyyətlə rədd etdik və bu gün hər kəs görür ki, vaxtilə erməni işğalını əbədiləşdirmək üçün səylər göstərmiş Minsk qrupu artıq gündəlikdə yoxdur, tarixin arxivindədir. Hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: “Qarabağ Azərbaycandır!” Yəni, bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir. Bu məsələlər elə-belə yaranmır. Azərbaycan-Ermənistan şərti sərhəd istiqamətində baş vermiş hadisələr, ermənilərin yaşadıqları Qarabağ bölgəmizdə hərbi əməliyyatlar və iki ay əvvəl Ermənistan–Azərbaycan sərhədində, onun Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması bizim çox güclü siyasi iradəmizin göstəricisidir. Yəni, biz bütün addımlarımızı vahid proqram əsasında atmışıq. Əgər son iki il yarım ərzində baş vermiş hadisələr təhlil olunarsa, hər kəs görə bilər ki, hər bir addımımızın arxasında güclü siyasi iradə dayanmışdır, güc dayanmışdır, məntiq dayanmışdır, beynəlxalq hüquq dayanmışdır və hər növbəti addım əvvəlki addımın məntiqi davamı idi.

Bu gün biz öz şanlı Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirdik. Bu gün biz bölgədə söz sahibiyik. Bəziləri, o cümlədən Ermənistan və onun bəzi xarici himayədarları bizi qisasçılıqda ittiham edirlər. Tamamilə yalan bir tezisdir. Mən demişəm və müharibə dövründə demişəm ki, biz düşməndən qisasımızı döyüş meydanında alacağıq, şəhidlərimizin qanını döyüş meydanında alacağıq və belə də oldu. Azərbaycan Ordusu mülki əhaliyə qarşı müharibə aparmamışdır, bunu hər kəs bilir və görür. Ermənistandan fərqli olaraq onların şəhərlərini “İsgəndər”, “Toçka” və “Elbrus” raketləri ilə dağıtmamışıq. Azərbaycan Ordusu yüksək mənəvi xüsusiyyətlərə malikdir, Ali Baş Komandanın əmrlərini tam icra edir və icra edəcək. Ona görə bizi qisasçılıqda ittiham edənlər qoy gedib güzgüyə baxsınlar. Biz qisas yox, ədalət tələb edirik.

Biz tələb edirik ki, haqq-ədalət qorunsun. Biz tələb edirik ki, bizim daxili işlərimizə heç kim müdaxilə etməsin. Biz tələb edirik ki, bütün ölkələr sözdə yox, əməldə bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşsın və belə olan halda biz də onların ərazi bütövlüyünə hörmətlə yanaşacağıq. Əks təqdirdə bizim də addımlarımız adekvat olacaq. Yenə də deyirəm, biz qisasımızı döyüş meydanında aldıq. Ancaq bununla bərabər, biz erməni vəhşiliklərini heç vaxt unutmamalıyıq. İşğal dövründə bizim şəhərlərimiz yerlə-yeksan edilmişdir. Tarixi abidələrimiz dağıdılmışdır. Bizim müqəddəs ocaqlarımız təhqir edilmiş və dağıdılmışdır. Bunu edən bizim mənfur qonşularımız idi. Buna göz yuman beynəlxalq aləm, beynəlxalq ictimaiyyət və indi hər gün Ermənistana baş çəkən rüşvətxor Avropa məmurları və deputatlarıdır.

Onları bu ədalətsizliyə vadar edən nədir? İkili standartlar və rüşvət! Bunun başqa izahatı ola bilməz. Gedirlər, bizim sərhədimizə yaxın yerlərdə şəkillər çəkdirirlər, bizə hansısa mesajlar ünvanlayırlar. Hünərləri varsa gəlsin yaxınlaşsın bizim sərhədimizə. O vaxtlar artıq tarixdə qaldı. Yenə də onların ayağını biz qırdıq. Çünki İkinci Qarabağ müharibəsindən sonra biz bunu unutmamışıq. Bəzi Avropa ölkələrinin rəsmi nümayəndələri bizim ərazimizə, Xankəndiyə icazəsiz soxulmuşdular. Mən o vaxt demişdim ki, əgər bizim bundan xəbərimiz olsaydı, onları buraxmayacaqdıq. Bu gün də deyirəm, hünəriniz varsa gəlin, görək sonra axırınız nə olacaq?

Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz. Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün, təbii ki, heç kim təsir edə bilməz. Yenə də deyirəm, biz haqq-ədaləti tələb edirik. Bu gün Ermənistanla aparılan sülh danışıqlarının yekunlaşması həm bizə lazımdır, həm də daha çox Ermənistana lazımdır. Bu sülh anlaşması beynəlxalq hüququn norma və prinsipləri əsasında imzalanmalıdır. Bu sülh anlaşmasında postmüharibə reallıqları nəzərə alınmalıdır. Bu, təbiidir. Biz qalib gəlmişik, biz qan tökmüşük, şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz öz torpağımızda müharibə aparmışıq və bu gün öz torpağımızda yaşayırıq və yaşayacağıq.

Bizim şərtlərimiz bundan ibarətdir. Ermənistan keçən ilin oktyabr ayında rəsmən Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Mən dedim ki, bu sözlər kifayət deyil, daha dəqiq sözlər deyilməlidir və keçən ay artıq bir daha rəsmən nəinki ərazi bütövlüyümüz Ermənistan tərəfindən tanınıb, hətta Azərbaycan ərazisinin parametrləri də qeyd olunub. Yəni, bu, müsbətə doğru atılan bir addımdır. Ancaq bundan sonra həmin bu ifadələr kağız üzərində də olmalıdır və Ermənistan buna imza atmalıdır. Belə olan halda Cənubi Qafqazda uzunmüddətli sülh yarana bilər. Əks təqdirdə, sülh olmayacaq.

Eyni zamanda, bizim şərtlərimizdən biri Zəngəzur dəhlizinin açılmasıdır. Bu, bizim haqlı tələbimizdir. Xüsusilə nəzərə alsaq ki, Ermənistan 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktında bu öhdəliyi öz üzərinə götürmüşdür. Ancaq bu günə qədər bu öhdəlik yerinə yetirilməyib. Digər şərtimiz odur ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağ bölgəsindən çıxarılmalıdır. Bu da Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biridir. Bu da icra edilmir.



Biz hələlik özümüzü təmkinlə aparırıq. Son iki il yarım ərzində biz bir neçə dəfə məcbur olub Ermənistan tərəfinə öz gücümüzü göstərmişik, birincisi, onların hərbi təxribatlarına cavab olaraq. İkincisi, onlara bir siqnal göndərmişik ki, özlərini yaxşı aparmasalar, öz imzalarına hörmət etməsələr, nəticə onlar üçün acınacaqlı olacaq. Ona görə hələ də özümüzü təmkinlə aparırıq. Biz heç vaxt tələskənliyə yol verməmişik, buna ehtiyac yoxdur. Bu gün güc də bizim tərəfimizdədir, zaman da bizim mövqeyimizi gücləndirir, beynəlxalq hüquq da. Dünya ictimaiyyəti artıq birmənalı şəkildə Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz gözləyə bilərik. Yenə də deyirəm, biz tələsmirik.

Bu gün biz azad edilmiş torpaqlarda geniş quruculuq işləri ilə məşğuluq. Biz keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarırıq. Biz Ermənistanla sərhəd boyunca əlverişli mövqelərə sahibik. Biz o mövqelərdə möhkəmlənirik. Strateji yüksəkliklərdə olmağımız bizə strateji üstünlük təmin edir. Yenə də deyirəm, biz son iki il yarım ərzində Ordumuzu böyük dərəcədə gücləndirmişik. Əgər bütün bu amilləri Ermənistan və onun arxasında dayanan xarici qohumları başa düşmürlərsə, onda günah onların boynundadır.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri aparılır. Keçmiş məcburi köçkünlər öz dədə-baba torpaqlarına qaytarılır. Onlarla görüşlər əsnasında mən demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu. Demişdim, biz heç vaxt imkan verməmərik ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın, belə də oldu. Biz demişdik ki, düşməni torpaqlarımızdan qovacağıq, düşməni torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını bizim tarixi torpaqlarımızda qaldırdıq. Yəni, bu, böyük tarixi nailiyyətdir. Bu şanlı tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Əziz hərbçilər, bildiyiniz kimi, Azərbaycan xalqı bu il Ulu öndər Heydər Əliyevin 100 illiyini qeyd edir. Ulu öndərin Azərbaycan Ordusunun formalaşmasında xüsusi rolu vardır. Hələ sovet dövründə Naxçıvanski adına hərbi məktəbin yaradılması məhz bu məqsədi güdürdü ki, Azərbaycanda peşəkar zabit təbəqəsi yaransın.

Ulu öndərin doğum günündə, 100 illiyində mən Şuşada idim. Mən atamın doğum gününü Şuşada qeyd etmişəm və hesab edirəm ki, bu addımda böyük məna var. Şuşa Qarabağın tacıdır. Şuşa azad olunandan sonra Ermənistan dövləti və hökuməti öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur. Şuşa bizim gücümüzün, əyilməz ruhumuzun, qəhrəman hərbçilərimizin şücaətinin, qəhrəmanlığının təcəssümüdür.

Bu gözəl bayram ərəfəsində mən sizi bir daha qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan Ordusuna yeni uğurlar, yeni qələbələr arzulayıram.

Yaşasın Azərbaycan Ordusu, Qarabağ Azərbaycandır!

***

Sonra komando hərbi hissəsinə Döyüş bayrağının verilməsi haqqında təqdimat oxundu.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Döyüş bayrağını hərbi hissənin komandirinə təqdim etdi.

Komando andiçmə mərasimindən sonra şəxsi heyət Döyüş bayrağı ilə təntənəli marşın sədaları altında tribunanın önündən keçdi.

Bundan sonra Ali Baş Komandana komando bölmələrinin silahlanmasında olan kiçik və iriçaplı silahlar, zirehli avtomobil və xüsusi texnika, o cümlədən artilleriya, kəşfiyyat, mühəndis, rabitə və digər döyüş vasitələri, eləcə də zərbə dronları və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları nümayiş etdirildi.

Dövlətimizin başçısı dağçılıq qülləsi və kəşfiyyat cığırında komandoların nümunəvi məşqlərini izlədi.

Sonda əsgər yeməkxanasına baxış zamanı komandoların ərzaq payı normalarına uyğun ərzaq nümunələri nümayiş etdirildi.

***AZƏRTAC***

# Bakı–İrəvan sülh nizamlamasına AŞPA-dan növbəti zərbə



**(əvvəli 1-ci səhifədə)**

Nəzərə alsaq ki, belə sənədlər İrəvanın illüziyalara qapılması reallığını doğurur, deməli, qətnamə yekun nəticədə Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə də zərbə vurur. Bunu AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində vurğulayıb. Yeri gəlmişkən, Səməd müəllim Fransa amilini də önə çəkib: "Azərbaycanın ərazilərinin təhlükəsizliyini, erməni əsilli vətəndaşlarının təhlükəsiz, sərbəst giriş-çıxışını təmin etməsi ilə vəziyyətin normallaşmağa doğru getdiyini görən erməni separatçılar və onların hamiləri bu məsələni assambleyanın gündəminə gətirmək məqsədilə yenidən təxribatlara əl atdılar. Əlbəttə, bu məruzə ilə bağlı əlavə məlumatlar verib, fikrimizi bildirmişik. Məruzədən kənar geniş maarifləndirmə işi aparmışıq. Bildirmişik ki, bu məruzə Ermənistan-Azərbaycan sülh danışıqlarına ağır zərbədir. Təəssüf ki, AŞPA Fransanın yolunu seçir və bu, təsadüfi deyil, çünki AŞPA-nın qərargahı Fransada yerləşir".

*

Fransa barədə deyəcəklərimizi axıra saxlayaq. Əvvəlcə onu bildirək ki, Laçın yolundakı vəziyyətin müzakirəsi ilə bağlı təklifi AŞPA-nın Miqrasiya, Qaçqınlar və Köçkünlər üzrə Komitəsi verib. Komitə bu ilin martında daha əvvəl Azərbaycan-Ermənistan münaqişəsinin humanitar fəsadlarına dair hesabatın müəllifi olan irlandiyalı deputat Pol Qavanı "Laçın dəhlizinin blokadasının humanitar nəticələrinin aradan qaldırılması" mövzusunda məruzəçi təyin etmişdi. Qurumun may ayında gerçəkləşmiş toplantısında isə hesabatın adı "Laçın dəhlizi vasitəsilə azad və təhlükəsiz girişin təmin edilməsi" olaraq dəyişdirilmiş və yay sessiyasında müzakirəyə çıxarılması qərarlaşdırılmışdı. Bu məqama diqqət yetirən S.Seyidov, həmçinin AŞPA-da Azərbaycana qarşı qeyri-obyektiv mühitin hökm sürməsindən də söz açıb: "Təəssüf ki, Avropa Şurası Parlament Assambleyasında ikili standartlar hələ də davam edir. Debatlarda Azərbaycanla bağlı qeyri-obyektiv və reallıqdan uzaq məruzə dinlənildi. Məruzənin müəllifi irlandiyalı deputat Pol Qavandır. Laçın dəhlizi ilə bağlı məruzəni hələ yanvar ayından gündəliyə salmaq istəyirdilər. Ancaq o vaxt ermənilər buna nail ola bilmədilər".

*

Bəli, deməli, hazırda Ermənistan "istəyinə" nail olmuş durumdadır. İyunun 22-də keçirilmiş müzakirədə qəbul edilmiş qətnamədəki qeyri-obyektivlik isə onun "Laçın dəhlizi" məntiqinə köklənməsidir. Sənədin ermənipərəst mahiyyəti, ilk növbədə bundan görünür. Bu mahiyyət sərhəd məntiqini tamamilə inkar edir. Sanki Azərbaycanla Ermənistan arasında sərhəd olmalı deyilmiş...

Ermənistana səfərindən, Laçın dəhlizinə yaxınlaşmaq cəhdindən, guya, Azərbaycanın bunu reallaşdırmaq imkanı tanımamasından, Qarabağda humanitar böhranın dərinləşməsindən bəhs edən Pol Qavanın daha bir cəfəngiyyatı şərti sərhədin Azərbaycan tərəfində faşist təşkilatlarının təmsilçilərinin olduğunu iddia etməsindədir. Deyəsən, cənab Qavan yuxusunu qarışdırıb. Heç şübhəsiz, erməni xəstəliyindəki ənənəvi qarabasmada "Boz qurdlar" var, Qavanın da gözünə onlar "görünüb".

Diqqət yetirək, irlandiyalı parlamentari Ermənistanı və Azərbaycanı Avropa Şurası ilə daha sıx əməkdaşlığa, azlıqların hüquqlarını və milli kimliyini qoruyacaq fundamental sənədlər qəbul etməyə çağırıb. Deməli, ayının min oyunu bir armudun başında imiş. Qavan Ermənistan rəhbərliyinin Azərbaycanla sülh prosesinə dürtmək istədiyi tezisi səsləndirir. Yəni, faktiki olaraq deyir ki, Qarabağ erməniləri ilə bağlı xüsusi beynəlxalq sənəd olsun. Bu sənəd isə hazırda 86,6 min kvadratkilometrlik ərazidə Azərbaycanın suveren hüquqlarını tanıyan İrəvana gələcəkdə Qarabağda işğalçılıq niyyətləri gerçəkləşdirmək naminə lazımdır.

*

Bəli, Ermənistana perspektiv qəsbkarlıq niyyətləri üçün tutacaq yer, bir növ, baza lazımdır. Oxşar "məram" digər istiqamətlər üzrə də özünü göstərib. Məsələn, İrəvan ötən il Ağdamdakı bir tarixi abidənin erməni mirası kimi rəsmiləşməsi üçün beynəlxalq məhkəmədə iddia qaldırmışdı. Təsəvvür edin, abidə Azərbaycan ərazisindədir, İrəvan istəyib ki, sənəddə onun Ermənistana məxsusluğu təsdiqini tapsın. Bu isə gələcəkdə işğalçılıq üçün əsas verən amildir. Nəzəri baxımdan yanaşsaq, haylar belə hesablayıblar ki, abidə erməni mirasıdırsa, deməli, həmin mirasın yerləşdiyi torpağın da Ermənistana məxsusluğunu mübahisələndirmək mümkündür. Yəni, ortada bu qədər incə düşünülmüş böyük həyasızlıq var.

Eyni "dəst-xətt" Qarabağ erməniləri ilə bağlı da götürülür. Azərbaycan və Ermənistan arasındakı sülh müqaviləsində onların hüquq və təhlükəsizliyinə dair beynəlxalq təminatlı hansısa müddəa yer alsa, bu, bölgənin sakinlərini xüsusi imtiyazlı təbəqəyə çevirəcəkdir. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti vaxtilə erməni avantürizminə necə qol-qanad vermişdisə, hazırda da oxşar yolun gedilməsini istəyən qüvvələr var. O qüvvələr indidən Azərbaycanın nə zamansa zəifləməsinə sərmayə yatırmaq yolu tuturlar. Bu məqsədlə AŞPA-nı alətə çevirirlər. Pol Qavan da məhz erməni avantürizminin qurumu alətə çevirmək niyyəti güdən elementlərindən biridir.

*

Ermənistan hakimiyyətinin Bakı-İrəvan sülh nizamlamasına dürtməyə çalışdığı növbəti məqam da var. Bu, az əvvəl qeyd etdiyimiz sarsaqlığın, bir növ, davamıdır. AŞPA-nın qətnaməsində vurğulanır ki, hazırda bölgədəki vəziyyət qeyri-sabitdir və münaqişə həll olunmasa, bu, erməni əhalisinin öz evlərini və icmalarını tərk etmək məcburiyyətində qalmasına gətirib çıxara bilər. Bu səbəbdən assambleya ölkəmizi "Dağlıq Qarabağın erməni əhalisinin hüquq və təhlükəsizliyi məsələlərinin Bakı və Stepanakert (Xankəndi – red.) arasında dialoq yolu ilə dərhal həllinə", habelə sülhyönümlü siyasətin tətbiqi üçün beynəlxalq mexanizmin yaradılmasına çağırır.

Bu frazada da aşkar ermənipərəstlik meylini görə bilərik. Nəzərə alaq ki, Ermənistan hakimiyyəti Qarabağ ermənilərini Bakı ilə dialoq aparan tərəf qismində görür. AŞPA da məsələyə mövcud kontekstdən yanaşır və qurum üçün Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisi məntiqi keçərsizdir. Müvafiq olaraq, assambleya Azərbaycan rəhbərliyinin həmin əhalinin Bakıya danışıqlar üçün dəvətlərini və bu dəvətlərin qulaqardına vurulmasını görməzdən gəlir. Halbuki konstruktiv münasibət belə yanaşmanı inkar edir. Böyük anlamda, AŞPA-nın inkar etdiyi ölkəmizin ərazi bütövlüyüdür.

*

Ancaq AŞPA bir məqamda, müəyyən mənada haqlıdır. Əgər buna haqlılıq demək mümkündürsə. Yəni yuxarıda da diqqətə çatdırdığımız kimi, münaqişə həll olunmasa, bu, erməni əhalisinin öz evlərini və icmalarını tərk etmək məcburiyyətində qalmalarına gətirəcək. Azərbaycan məsələnin belə qoyuluşuna razı olmadığını hər addımında göstərir. Haqqında az əvvəl söz açdığımız dəvətlər də xoş məramın ifadəsidir. Ancaq Prezident İlham Əliyevin mayın 28-də Laçında yerli əhali ilə görüşdə bildirdiklərindən belə qənaətə gəlmək mümkündür ki, dəvətlər davamlı şəkil ala bilməz. Bakı öz əlini uzadır, onu sıxmaq mədəniyyətdir, etinasızlıq isə yolverilməzdir. AŞPA-nın qətnaməsi hazırda həmin etinasızlığa haqq qazandırmaq niyyətidir.

Ən pisi isə budur ki, sənəd Qarabağda separatçılığın saxlanılması üçün mənəvi və hüquqi mühit formalaşdırmaq cəhdidir. Azərbaycan bu cəhdin qarşısını almaq istiqamətindəki qətiyyətini davam etdirəcəkdir. Əgər Qarabağın sıravi erməniləri də ölkəmizin rəhbərliyinin xoş mövqeyinə adekvat yanaşmayacaqlarsa, AŞPA-nın qətnamə məntiqi ilə desək, evlərini və icmalarını tərk etmək məcburiyyətində qalacaqlar. Düşünmək və qərar vermək növbəsi onlarındır. Söhbət Qarabağın erməni əhalisinin bölgəni tərk etmək məcburiyyətindən düşmüşkən, bir vacib məqamı da vurğulayaq ki, hazırda AŞPA-nın qətnaməsində ermənipərəstliyin fərqli mahiyyəti də duyulmaqdadır.

Aydındır ki, dünya erməniliyinə ermənilərin Azərbaycanın yursdiksiyasında yaşamaları kimi bir reallıq tam yaddır. Ermənistan hakimiyyəti bu niyyəti bir qədər pərdələyərək, Azərbaycanla danışıqlarda onların hüquqları və təhlükəsizliyinə beynəlxalq təminatdan dəm vurursa, daha böyük plan Qarabağı ayrıca dövlət şəklində görmək, sonra onun "Böyük Ermənistan" xülyasının tərkib hissəsi kimi, Ermənistan Respublikasına birləşdirməkdir.

Bakı bu "gedişlərin" mahiyyətindən xəbərdardır. Ona görə mövqeyində prinsipialdır. AŞPA isə eyham vurur ki, ölkəmizin prinsipiallığı nəticəsində Qarabağda erməni əhali qalmayacaqdır. Deməli, dünya erməniliyinin və avantürizminin "ermənilərsiz Qarabağ" formulu işə düşəcəkdir. Bu "formula" görə, Azərbaycanın tam və sözsüz hakimiyyətində olacaq Qarabağda erməni yaşamamalı və Qarabağ erməni niskilinə, gələcək qəsbkarlıq niyyətlərinin ideoloji motivinə çevrilməli, alt qatına keçməlidir.

Bəli, faktiki olaraq AŞPA da sıravi erməniləri düşünmədiyini, əsl həqiqətlərə göz yumaraq, ancaq erməni ekstremist millətçiliyinin mənafelərini əsas götürdüyünü ortaya qoyur. Assambleya beləliklə, həm də, Avropa Şurasının bəyan etdiyi prinsipləri satmış duruma düşür. Nəzərə alaq ki, Azərbaycanın torpaqlarının 30 ilə qədər davam etmiş işğalı dövründə, AŞPA-nın qəsbkarlığa son qoyulması ilə bağlı qətnamələri və çağırışları olub. Hazırda qurum həmin sənədləri də heçə saymaqdadır. Bu baxımdan ortada kifayət qədər təzadlı mənzərə var ki, buna AŞPA-dakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov da münasibət bildirib: "Proseslər göstərir ki, Azərbaycan ilə Ermənistan arasındakı birbaşa danışıqların alternativi yoxdur. Bunu iki gün əvvəl Avropa Şurasının baş katibi də sessiyadakı çıxışı zamanı açıq şəkildə dedi. İndi bu təşkilatda paradoksal vəziyyət yaranıb. Baş katib tərəflərin birbaşa görüşünün tərəfdarı olduğu və bunu yüksək tribunadan bəyan etdiyi halda, Parlament Assambleyasında reallığı əks etdirməyən məruzə dinləməyə çıxarılır və iki ölkə arasında danışıqlara müdaxilə etməyə cəhd göstərilir. Belə siyasi oyunlar Azərbaycanın daxili işinə müdaxilə cəhdidir. Bu isə mümkün deyil. Qarabağ məsələsi artıq öz həllini tapıb və Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır. Onlarla danışıq isə daxili işimizdir".

*

Azərbaycan tərəfindən "Laçın dəhlizini blokadaya alınmasının humanitar və hüquqi nəticələrindən" bəhs edən qətnamədəki anti-Azərbaycan motivlərindən biri, orada "Dağlıq Qarabağ" ifadəsinin işlənməsidir. Bu, ölkəmizin bütövlüyünə, dövlətimizin suveren əsaslarla formalaşdırdığı inzibati ərazi bölgüsü prinsipinə hörmətsizlikdir. Nəzərə alaq ki, Azərbaycanda Qarabağ iqtisadi rayonu var, Dağlıq Qarabağ adlı vahid yoxdur.

Daha bir məqama diqqət yetirək. Qətnamədə "Laçın dəhlizi və Dağlıq Qarabağ üzrə təcili beynəlxalq faktaraşdırıcı missiyanın yaradılmasının zəruriliyi" vurğulanır, Azərbaycan Avropa İnsan Haqları Məhkəməsinin və Beynəlxalq Ədalət Məhkəməsi qərarlarına dərhal əməl etməyə, eləcə də "Dağlıq Qarabağın enerji və qaz təchizatının bərpasına" çağırılır. Daha bir çağırış isə digər beynəlxalq təşkilatların, o cümlədən BMT agentliklərinin regiona çıxışına icazə verilməsi ilə bağlıdır. Bundan başqa, assambleya Azərbaycanı vəziyyəti yerində qiymətləndirmək üçün Avropa Şurasının nümayəndə heyətini tanışlıq missiyası ilə Laçın dəhlizinə və "Dağlıq Qarabağa" səfərə dəvət etməyə çağırır.

Sual yaranır: Azərbaycan olmayan yerə kimisə necə dəvət etsin. Bizim üçün "Dağlıq Qarabağ" adlı heç nə yoxdur. Digər tərəfdən, söhbət ənənəvi missiya məntiqindən gedir və bu ermənipərəstlərin, konkret olaraq Fransanın irəli sürdüyü tezisdir. Axı, Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan hissəsində Avropa İttifaqının mülki müşahidə missiyası fəaliyyətdədir. O missiya ki, ilhamvericisi qismində çıxış edən Parisdir və Bakı onun öz tərəfində fəaliyyətinə razılıq vermir. Bunu Azərbaycan-Ermənistan danışıqlarının indiki axarına zidd təmayül kimi qiymətləndirir və mövqeyində haqlıdır. Çünki Fransa qlobal miqyasda Rusiyanın Cənubi Qafqazdakı mövcudluğuna qarşı çıxır. Bakı isə öz ərazisində üçüncü tərəfə, yəni Moskvaya qarşı siyasi plasdarm açılmasına razılıq vermir.

Onu da vurğulamaq lazımdır ki, Ermənistan hakimiyyəti bölgədə, belə demək mümkünsə, beynəlxalq sıxlıq yaratmaq və bu yolla əsil həqiqətlərdən diqqəti yayındırmaq, manipulyasiyaya yol verərək, hazırda Azərbaycanın xeyrinə olan vəziyyəti dəyişmək, bütövlükdə Cənubi Qafqaz regionunda yeni reallıqlar formalaşdırmaq istəyir ki, 44 günlük müharibə ilə itirdiklərini sığortalamaq şansı qazansın. Əslində, Beynəlxalq Ədalət Məhkəməsinin və Avropa İnsan Haqları Məhkəməsinin qərarları da buna xidmət edirdi. Baxmayaraq ki, oradakı öhdəlik şəklində bölgənin enerji təchizatı əsas götürülməkdədir. (Həmin qərarlara AŞPA-nın qətnaməsində də istinad olunur.)

Sual olunur: Qarabağ ermənilərinin təminatı ilə bağlı Azərbaycanın, yəni bölgənin beynəlxalq hüquqla təsbit edilmiş sahibinin bildirdiklərinə nə üçün əhəmiyyət verilmir? Hesab edək ki, hazırda Qarabağa enerji təchizatını Ermənistan həyata keçirir. Nəyə görə suveren Azərbaycan ərazisinə sosial təminatı hansısa kənar ölkə reallaşdırmalıdır? Bəlkə avropalılar düşünür ki, Qarabağda separatçılıq saxlanılmalı, Bakı isə onun bəslənməsi üçün kömək göstərməlidir?! Onlardan nə desən gözləmək olar... Əlbəttə, AŞPA bu kimi suallara cavab vermir bir yana, heç cavab vermək niyyətində də deyil.

Əvəzində Azərbaycana ermənilərə qarşı istifadə olunan düşmənçilik ritorikasından və hədə-qorxudan əl çəkməyə yönəlmiş çağırış səsləndirir. Sanki Ermənistanda, ümumən ermənilər arasında azərbaycanlılara qarşı xoş münasibət mövcuddur. Elə bil otuz ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğalda saxlayan, ölkəmizin bir milyona yaxın vətəndaşının çadır şəhərciklərində, vaqonlarda yaşamalarına, xəstəliklərlə üzləşmələrinə səbəb olmuş erməni nifrəti deyil, nə isə başqa bir şey imiş. Ölkəmizin digər ərazilərində otuz minədək ermənininin vətəndaş kimi ömür sürmələrinə rəğmən, ortada AŞPA-dan bu qədər qəddar və ədalətsiz yanaşma var.

*

Azərbaycana qarşı qəddarlığın və ədalətsizliyin müəllifi qismində çıxış edən isə Fransadır. Əvvəldə də AŞPA-nın qərəzli qətnaməsi fonunda bu məqamı vurğulamışdıq. İndi məsələnin üzərində bir qədər də geniş dayanmağa ehtiyac duyuruq. AŞPA-dakı nümayəndə heyətimizin rəhbəri S.Seyidov qurumun qətnaməsinin qərəzli məqamlarından söz açarkən, bildirir ki, Azərbaycanın öz sərhədində yaratdığı nəzarət-buraxılış məntəqəsi onun ərazilərinə daxil olmağa çalışan silahlı qüvvələrin, hərbçilərin qarşısını almağa xidmət edir. Vətəndaşlarının təhlükəsizliyini təmin etmək ölkəmizin özünün müəyyənləşdirdiyi öhdəlikdir. Laçındakı nəzarət məntəqəsi Azərbaycanın suveren ərazisində yerləşir. "Daxilindəki problemlərə biganə qalan Fransa digər ölkələrdə problemlər axtarışındadır", – deyən S.Seyidov fikirləri ilə rəsmi Parisin siyasi oyunbazlığının səmərə verməyəcəyinə əminlik yaradır.

Sonda lap əvvəldə vurğuladığımız məqama yenidən qayıdırıq. Fransanın irəli sürdüyü bütün ermənipərəst təşəbbüsləri kimi, bu da zərərlidir. Onun sülhə maneçilik törətdiyindən də söz açdıq. Ümumən, Parisin destruktiv təşəbbüslərinin Ermənistan hakimiyyətində və ölkənin siyasi dairələrində illüziyalar doğurması reallığını nəzərə alsaq, AŞPA-nın iyunun 22-də qəbul etdiyi qərəzli qətnamənin də İrəvana ancaq ziyan verəcəyi gün kimi aydındır.

**Ə.CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**

# Erməni xisləti: üzrxahlıq əvəzinə, ərazi iddiası...

## *İrəvan son vaxtlar Azərbaycanla yanaşı, Rusiyanın da çomağına tez-tez sürtünür*

**Ermənistanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovanın 21 iyun tarixli açıqlamasına cavab verib. Erməni diplomat 15 iyunda Laçın nəzarət-buraxılış məntəqəsinə edilən hücumun mahiyyətini, yerini təhrif etdiyini, bütün olayların Ermənistan ərazisində reallaşdığını bildirib. Ani Badalyan bu iddiası ilə rəsmi İrəvanı çətin vəziyyətə salıb.**



Birincisi, Azərbaycan bayrağı Badalyanın dediyi kimi, Ermənistan ərazisində deyil, Azərbaycan torpağında qaldırılıb və bunun ən böyük isbatı hər zaman ermənilərdən yana olan rus sülhməramlılarının da həmin mərasimdə iştirakıdır. Aydındır ki, əgər Azərbaycan bayrağının qaldırıldığı ərazi Ermənistana məxsus olsaydı, buna ilk növbədə Rusiyanın sülhməramlı missiyası etiraz edər və heç bir halda hərbçilərimiz ilə birlikdə hadisə yerində olmazdı.

İkincisi, Azərbaycan bayrağının yüksəldiyi ərazinin Ermənistana aid olmadığının daha bir isbatı Ani Badalyanın öz açıqlamasıdır. O deyir: "Rusiya tərəfinin şərhində açıq-aşkar ziddiyyət var. Əgər Ermənistanla Azərbaycan arasında sərhədin demarkasiya olunmaması səbəbindən sərhəd xəttinin haradan keçdiyini dəqiq söyləmək mümkün deyilsə və Kremlin rəsmi nümayəndəsinin iddia etdiyi kimi, bu, davam edən problemlərin səbəbidirsə, o zaman sual yaranır: iyunun 15-də Ermənistanla Azərbaycan sərhədində, körpünün bu tərəfində hansı əsasla və hansı prinsiplə Azərbaycan bayrağı asılmışdı?"

Göründüyü kimi, Ani Badalyana görə, hələ ki, Azərbaycanla Ermənistan arasındakı sərhəd şərtidir və sərhəd xəttinin dəqiq haradan keçdiyini demək mümkün deyil. Madam belədir, onda mətbuat katibi özü hansı məntiqlə Azərbaycan bayrağının Ermənistan ərazisində yüksəldiyini iddia edir? Axı onun təbirincə desək, sərhəd xəttinin dəqiq haradan keçdiyini söyləmək mümkün deyil!

Üçüncü sual: əgər bayrağımızın ucaldığı ərazi Ermənistana məxsusdursa, o zaman erməni hərbçiləri əsgərlərimizi bu əraziyə necə və niyə buraxıblar? Axı videodan görünür ki, əsgərlərimiz Rusiya sülhməramlıları ilə birlikdə bayrağımızı sərbəst şəkildə əraziyə gətirir və onu təntənəli şəkildə qaldırırlar.

Bir sözlə, 15 iyun olaylarının Ermənistan ərazisində baş verməsi ilə bağlı səsləndirilən fikirlər absurddur və təxribata görə üzr istəməli olan İrəvanın bu açıqlaması ölkəmizə qarşı növbəti ərazi iddiasıdır.

### Nankordan tarixi himayədarına "güllə hədiyyəsi"

Ermənistanın Xarici İşlər Nazirliyinin mətbuat katibi A.Badalyan açıqlamasında Rusiya tərəfinə qarşı silsilə ittihamlar da irəli sürüb. O, iddia edib ki, Rusiya açıq şəkildə Azərbaycanın maraqlarını müdafiə edir və onunla birlikdə "Ermənistan ərazisində" Azərbaycan bayrağını ucaldır.

Badalyanın bu açıqlaması cəfəngiyyat olmaqla yanaşı, tarixi erməni nankorluğunun davamıdır. Məlumdur ki, Rusiya sülhməramlıları 10 noyabr üçtərəfli Bəyanatının imzalandığı gündən bu vaxta qədər, Ermənistanın maraqlarının müdafəsində dayanıb, separatçıların məskunlaşdığı Xankəndi və ətraf ərazilərə qanunsuz silah-sursat daşınmasında bilavasitə iştirak ediblər. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin bununla bağlı verdiyi çoxsaylı bəyanatlar bunun sübutudur. Rusiyanın Ermənistana iqtisadi-siyasi müstəvidə də ciddi yardımlar göstərdiyini nəzərə alsaq, Badalyanın son açıqlaması ilə bütün bu faktları çox asanlıqla heçə saydığı aydın olar.

Ən maraqlısı isə budur ki, Rusiya tərəfini ittiham edən Ermənistan XİN-in rəsmisi 15 iyun tarixində Azərbaycan hərbçiləri ilə yanaşı, öz missiyalarını həyata keçirən rus hərbçilərini nə üçün atəşə tutduqlarına toxunmayıb. Görünür, Badalyan da anlayıb ki, ölkəsinin tarixi himayədarı qismində çıxış edən Moskvaya təqdim etdikləri "güllə hədiyyəsi"ni əsaslandıracaq heç bir arqument yoxdur.

### Laçın yolunun bağlanmasının səbəbkarı Ermənistandır

Açıqlamasında Laçın yolunun bağlanması ilə Xankəndidəki ermənilərin, guya humanitar fəlakətlə üz-üzə qaldığınadan dəm vuran Ani Badalyan, buna görə məsuliyyəti Azərbaycan tərəfinin üzərinə yıxmağa çalışıb. Halbuki yolun məhz 15 iyun təxribatı nəticəsində bağlandığı məlumdur və Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, məlum təxribatın hərtərəfli araşdırılması, müqəssirlərin müəyyən edilməsi, nəzarət-buraxılış məntəqəsindən təhlükəsiz keçidin bərpa olunmasından sonra Laçın nəzarət-buraxılış məntəqəsinin fəaliyyəti təmin ediləcək.

Xankəndidəki ağır xəstələrin Ermənistana aparılmasında, habelə ərzaq təminatında çətinliklərin meydana çıxması ilə bağlı deyilənlər də tamamilə cəfəngiyyatdır. Azərbaycan hər zaman Xankəndi ermənilərinin normal sosial həyatlarını davam etdirmələri üçün əlindən gələni edib və bu gün də köməyə ehtiyacı olan hər bir Qarabağ ermənisinə yardım göstərməyə hazırdır. Əgər İrəvan Laçın yolunun bağlı qalmasından bu qədər narahatdırsa, o zaman 15 iyun təxribatının müqəssirlərini Azərbaycana təhvil verməli və bununla da baş verənlərin özünün planlı təxribatı olmadığını isbat etməlidir. Əks təqdirdə, sadəcə Laçın yolunun deyil, Ermənistanın gələcəyi ilə bağlı da bir çox məsələ bağlı qalacaq.

**Seymur ƏLİYEV**

# Dediyin sözü kağız üzərində imzala, İrəvan!

## *Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Hayastan rəhbərliyi indi "Qarabağ Azərbaycandır!" ifadəsini təkrarlayırlar*



*Əgər son iki il yarım ərzində baş vermiş hadisələr təhlil olunarsa, hər kəs görə bilər ki, hər bir addımımızın arxasında güclü siyasi iradə dayanmışdır, güc dayanmışdır, məntiq dayanmışdır, beynəlxalq hüquq dayanmışdır və hər növbəti addım əvvəlki addımın məntiqi davamı idi.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Silahlı Qüvvələrin Ali Baş Komandanı**

(əvvəli 1-ci səhifədə)

Dünən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə döyüş bayrağını təqdim edib. Tədbirdə çıxış edən dövlətimizin başçısı Silahlı Qüvvələr Günü ərəfəsində ölkəmizdə növbəti komando hərbi hissəsinin açılışını çox əlamətdar hadisə kimi dəyərləndirib: "Bildiyiniz kimi, Vətən müharibəsindən sonra mənim göstərişimlə Müdafiə Nazirliyində Komando Qüvvələri yaradılmışdır və komandoların sayı gündən-günə artır. Artıq bir neçə hərbi hissə fəaliyyət göstərir və yeni hərbi hissələrin açılışı nəzərdə tutulur. Beləliklə, biz öz döyüş qabiliyyətimizi əhəmiyyətli dərəcədə artırırıq və artıracağıq".

### Hər bir addımımızın arxasında güclü siyasi iradə dayanıb

Ali Baş Komandan İlham Əliyev çıxışında iki ay əvvəl Ermənistan-Azərbaycan şərti sərhədində, Laçın yolunun üstündə Həkəri sərhəd-buraxılış məntəqəsinin yaradılmasını hakimiyyətin çox güclü siyasi iradəsinin göstəricisi olduğunu söylədi: "Azərbaycan-Ermənistan şərti sərhədi istiqamətində baş vermiş hadisələr, ermənilərin yaşadıqları Qarabağ bölgəmizdə hərbi əməliyyatlar və iki ay əvvəl Ermənistan-Azərbaycan sərhədində, onun Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması bizim çox güclü siyasi iradəmizin göstəricisidir. Yəni, biz bütün addımlarımızı vahid proqram əsasında atmışıq. Əgər son iki il yarım ərzində baş vermiş hadisələr təhlil olunarsa, hər kəs görə bilər ki, hər bir addımımızın arxasında güclü siyasi iradə dayanmışdır, güc dayanmışdır, məntiq dayanmışdır, beynəlxalq hüquq dayanmışdır və hər növbəti addım əvvəlki addımın məntiqi davamı idi". İkinci Qarabağ müharibəsindən sonra hərbi Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirməyin vacibliyini qeyd edən Prezident İlham Əliyev indi bölgədə gündəliyi müəyyən edən tərəfin Azərbaycan olduğunu xüsusi vurğuladı: "Əgər Vətən müharibəsindən sonrakı birinci ayları götürsək, görərik ki, yenə də Ermənistanın havadarları bizə köhnə tezisləri qəbul etdirməyə çalışırdılar. Biz isə bunu qətiyyətlə rədd etdik və bu gün hər kəs görür ki, vaxtilə erməni işğalını əbədiləşdirmək üçün səylər göstərmiş Minsk qrupu artıq gündəlikdə yoxdur, tarixin arxivindədir. Hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: "Qarabağ Azərbaycandır!" .

### Əsas şərt: Ermənistan ordusunun tör-töküntüsü Qarabağdan çıxmalıdır

Bəli, ötən ilin oktyabr ayında Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını açıqladı. Cənab Prezident bunun müsbətə doğru atılan bir addım olduğunu söyləməklə bərabər, bundan sonra həmin ifadələrin kağız üzərində olmasının, İrəvanın o sənədə imza atmasının vacibliyini önə çəkdi: "Yalnız bu halda Cənubi Qafqazda uzunmüddətli sülh yarana bilər. Əks–təqdirdə, sülh olmayacaq". Cənab Prezident çıxışında aparılan sülh danışıqlarında Azərbaycanın şərtlərindən birinin Zəngəzur dəhlizinin açılması olduğunu xüsusi qeyd edib. Bunu Azərbaycanın tamamilə haqlı tələbi kimi dəyərləndirən dövlətimizin başçısı İrəvanın bu öhdəliyi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı imzalamaqla öz üzərinə götürdüyünü xatırlatdı.

Bakının Ermənistan rəhbərliyindən digər tələbi, eləcə də sülh yolunda vasitəçilik missiyasını həyata keçirən aktorların qarşısında qaldırdığı məsələ Hayastan ordusunun tör-töküntüsünün, bölgədə sabitliyin yaranmasına mane olan separatçı qüvvələrin Qarabağ iqtisadi rayonumuzdan çıxarılmasıdır. Azərbaycan Prezidenti Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri kimi bunu da icra etmədiyini təkcə maraqlı tərəflərin deyil, beynəlxalq ictimaiyyətin də diqqətinə çatdırdı.

Yeni komando hərbi hissəsinin açılış tədbirindəki çıxışının sonunda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqının bu il ulu öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etdiyinə diqqəti yönəltdi. Ümummilli liderin Azərbaycan Ordusunun formalaşmasında xüsusi rolunu qeyd edən İlham Əliyev hələ sovet dövründə Naxçıvanski adına hərbi məktəbin yaradılmasının Azərbaycanda peşəkar zabit kadrların hazırlanması məqsədini daşıdığını xüsusi olaraq vurğuladı. Düşünürük ki, cənab Prezidentin bu xüsusda fikirləri tədbir iştirakçılarının yaddaşında həmişəlik həkk olunacaq: "Ulu öndərin doğum günündə – 100 illiyində mən Şuşada idim. Mən atamın doğum gününü Şuşada qeyd etmişəm və hesab edirəm ki, bu addımda böyük məna var. Şuşa Qarabağın tacıdır. Şuşa azad olunandan sonra Ermənistan dövləti və hökuməti öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur".

Xalq-Dövlət-Ordu vəhdətinin simvoluna çevrilmiş "dəmir yumruq" həm də bu gün doğma torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmış, yağının hücumuna layiq olduğu cavabı verməyə hazır komandoların qürur və güc mənbəyidir.

**İmran BƏDİRXANLI,**
**"Xalq qəzeti"**

---



# Olimpə yüksələn korrupsiya

## *Paris Yay Olimpiya Oyunlarına hazırlıq mərhələsində "korrupsiya oyunları" üzə çıxıb*

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, bu ilin mayında Fransa Milli Olimpiya və İdman Komitəsinin rəhbəri Bricit Henrikes istefa vermişdi. Onun istefasının da korrupsiya halları ilə bağlı olduğu bildirilmişdi. Qurumun keçmiş prezidenti Denis Masselya onu korrupsiya və maliyyə fırıldaqlıqlarında ittiham etmişdi. Həm sabiq prezidentin ittihamı, həm də bugünlərdə polisin apardığı reydlər deməyə əsas verir ki, gələn il Parisdə keçirilməsi nəzərdə tutulan Olimpiya Oyunlarından öncə, hətta ilkin hazırlıq mərhələsində iri korrupsiya oyunlarına start verilib. Baş verənlər Olimpiya Oyunları kimi mötəbər tədbirin şəffaf təşkilinə böyük kölgə salmaqla yanaşı, bütövlükdə, oyunların normal atmosferdə baş tutmayacağını deməyə əsas verir.

***

Gəlin, bu əsasları yaradan amillərə diqqət yetirək. Nəzərə almaq lazımdır ki, Fransa Avropada ksenofobiyanın bariz nümunələrindən sayılan islamofobiya meyillərinin geniş vüsət aldığı ölkələrdəndir. Avropa İttifaqının aparıcı dövlətlərindən biri, milli devizi "Azadlıq, bərabərlik, qardaşlıq" olan Fransada 5,7 milyondan çox müsəlman yaşayır. Bildirilir ki, bu da ölkə əhalisinin təxminən 8,8 faizi deməkdir. Bu, bütün Avropa ölkələri arasında ən yüksək göstəricidir. İslam dini tərəfdarlarının sayına və əhəmiyyətinə görə Fransada ikinci, böyümə sürəti baxımından isə birincidir. Buna baxmayaraq, müsəlmanların təqib və təhqir olunması Fransada adi hala çevrilib. Avropaya miqrant axını fonunda daha geniş miqyas alan bu proses müsəlmanlara qarşı qadağaların artması ilə müşahidə olunmaqdadır. Fransada məscidlərin inşasına icazə verilməməsi, hicab qadağasının genişlənməsi, ifadə azadlığı adı altında müsəlmanların müqəddəs inanclarının, görkəmli şəxsiyyətlərinin təhqir edilməsi günümüzün acı reallıqlarındandır. Bu addımları isə təbii ki, böyük siyasi dəstək, Fransa rəhbərliyinin iradəsi olmadan həyata keçirmək mümkün deyil.

"İslam dini hazırda bütün dünyada böhran yaşayır", "Fransada İslamı xarici təsirdən azad etmək lazımdır" kimi bəyanatların müəllifi məhz Fransa Prezidenti Emmanuel Makrondur. Bu, həmin E.Makrondur ki, Fransada multikulturalizmin hökm sürəcəyi inklüziv, açıq və mükəmməl cəmiyyətin qurulacağı vədi ilə 2017-ci ildə prezident seçilib, 2022-ci ildə isə vəzifəsini qoruyub saxlayıb. Belə vədlər verən şəxsin prezidentliyi dövründə islamofobiya hallarının daha da artması diqqətdən yayınmır. İslam dini əleyhinə sistemli işin tərkib hissələrini Fransada müsəlman təşkilatlarına tətbiq edilən "İslam təməlçiliyinə qarşı direniş cəmiyyəti" layihəsi, "İslam separatizmi" əleyhinə qanun və Fransa İslamının Prinsipləri Xartiyası təşkil edir. Bu qanunlar mövcud siyasi hakimiyyətin təşəbbüsü ilə qəbul edilib.

İslam ölkələri və müsəlmanlara qarşı törətdiyi cinayətlər baxımından Fransa ləkəli keçmişə sahibdir. Yer üzündə, ümumilikdə, 50-dən artıq dövlətin ərazisini işğal etmiş, insanlıq və bəşəriyyət əleyhinə cinayətlər, eləcə də nüvə sınaqları həyata keçirməklə Əlcəzairin müsəlman əhalisini soyqırımına məruz qoyan Fransadır. Fransanın Əlcəzairdə üsyankar liderlərin öldürüldükdən sonra meyitlərinin verilməməsi, onların sümüklərinin qalıqlarının sonradan Fransaya aparılması bu ölkənin tarixindəki ən böyük utanclardandır. Belə üsyançılardan biri misirli mücahid Musa Darkavidir. Fransız işğalına qarşı 13 il mübarizə aparan Musa 1847-ci ildə Əlcəzairin şərqindəki Biskra şəhərinin darvazasından asılıb, sonra isə 22 mücahidlə birlikdə başı kəsilib. Onun kəlləsi daha sonra 2020-ci ildə Parisdəki Təbiət və İnsan Muzeyində nümayiş etdirilmək üçün Fransaya aparılıb. Bu, Əlcəzairin sonradan geri qaytarmağa nail olduğu kəllələrdən biridir. Əlcəzairli tarixçi Əli Fərid Belkadi 2010-2011-ci illərdə Fransa və ümumilikdə, Avropanın əsas "qələbə muzeyləri"ndə araşdırma aparıb. O, muzeylərdə 68 soydaşının kəlləsini aşkar edib. Ümumilikdə, Fransanın Trokadero meydanında yerləşən İnsan Muzeyində 18 mindən çox kəllə var ki, onların əksəriyyətinin ictimaiyyətə nümayişi bağlıdır.

Tarixçi bu mövzunu ictimailəşdirdikdən sonra Fransa Prezidenti E.Makron 24 kəllənin Əlcəzairə qaytarılmasına razılıq verib. Onlar 2020-ci il martın 3-də geri qaytarılıb. 150 ildən çox muzeydə nümayiş etdirilən 24 kəllə arasında Əlcəzairin Fransa işğalına qarşı müqavimət hərəkatının altı liderinin qalıqları da var. Onlar hələ də muzeydə saxlanılır. Bundan əlavə, hazırda muzeydə müstəmləkəçiliyə qarşı mübarizə aparmış 12 əlcəzairlinin kəllə sümüyü nümayiş olunmaqdadır.

18 mindən çox kəllənin böyük əksəriyyətinin Fransa üçün hərbi qənimət olduğu bildirilir. Eyni zamanda, Fransa tərəfi bunu kəllələrin antropoloji məqsədlər üçün saxlanması ilə əsaslandırır. Yeri gəlmişkən, adıçəkilən muzey 21 maori döyüşçünün kəlləsini Yeni Zelandiyaya qaytarıb. Tarixi ənənələrinə sadiq qalan Beşinci Respublikada (müasir Fransa qeyri-rəsmi olaraq belə adlandırılır) müsəlmanlara, həmçinin qaradərili əhaliyə münasibətdə irqçi meyllər daha da artmaqdadır.

***

Bundan əlavə, antisemitizm də Fransa cəmiyyətində dərin kök salıb. Statistikaya əsasən, son illərdə Fransadan on minlərlə yəhudi köç edib. Günümüzdə Korsika adasında yerli xalqa qarşı anti-humanist yanaşma Fransanın əsil simasını göstərən real mənzərədir. Bütün bunların üzərinə Fransanın güc strukturlarının, konkret olaraq yerli polisinin vətəndaşla davranışı, zorakılıq aktlarına yol verilməsi, sərbəst toplaşmaq azadlığının kobud şəkildə pozulması ilə bağlı baş verənləri də gəlsək, Olimpiya Oyunlarının belə bir ölkədə keçirilməsinin nə dərəcədə məqsədəuyğun olması sualı ortaya çıxır. Çünki Olimpiya Oyunları təkcə böyük idman bayramı deyil, dostluğun, qardaşlığın, sağlam rəqabət mühitinin, saf hisslərin dünya miqyasında təcəssümü və təbliğidir. Olimpiya Oyunları idman, ictimai-siyasi, iqtisadi və mədəni fenomenləri özündə birləşdirir. Bugünkü Fransa isə bu keyfiyyətlərdən məhrumdur. İslamofobiyanın, narkomaniyanın geniş yayıldığı, digər millətlərə qarşı ayrı-seçkilik, başqa dinlərə dözümsüzlük sərgilənən Fransanın real durumu Olimpiya Oyunlarının ruhuna ziddir.

**Səxavət HƏMİD, "Xalq qəzeti"**

### *Ekspert rəyi*



**İlqar VƏLİZADƏ,**
**politoloq**

– Çoxillik müşahidələr göstərir ki, Fransanın hazırkı hakimiyyəti çox təzadlı siyasət yürüdür. Fransa, Azərbaycan da daxil olmaqla, bir sıra inkişaf etməkdə olan ölkələri üçün arbitr rolunu oynamaq istəyir. Bu niyyətini heç gizlətmir də. Müəyyən məsələlərdə mentor rolunu öz üzərinə götürür. Bəzi ölkələrə nəyisə öyrətmək, hansısa prinsipləri aşılamaq istəyir. Hərçənd ki, heç kim ona bu rolu həvalə etməyib. Ancaq Fransa rəhbərliyinə daxil olan şəxslər daxili siyasətə fikir versə, kobud səhvlər buraxdıqlarını görə bilərlər. Olimpiya Oyunları Təşkilat Komitəsinin ofislərində aparılan yoxlamalar aysberqin görünən tərəfidir. Korsikada, Yeni Kaledoniyada və digər faktiki müstəmləkə ərazilərində yaşayan insanların problemlərinə göz yumurlar. Digər tərəfdən, Fransa Milli Azlıqlara dair Avropa Xartiyasını qəbul etmir. Bu xartiya bilavasitə milli azlıqların dilini, mədəniyyətini, milli identikliyini qorumağı özündə ehtiva edən sənəddir. Sənəd 2007-ci ildə qəbul olunub və bir çox ölkələr üçün əsasdır. Paris bu sənədi imzalamaqdan indiyədək imtina edir.

Yaxud, korsikalıları götürək. Onlar italyan dilinin dialektində danışırlar. Ümumiyyətlə, fransızlara aid etnik qrup deyillər. Ancaq Paris korsikalıları, həmçinin ölkənin şimal-qərbindəki Bretan regionunda yaşayan keltləri fransız adlandırır. Yəni, onların etnik mənsubiyyəti rədd edilir. Bu normalar Fransa Konstitusiyasında təsbit olunub. Əslində, konstitusiya milli azlıqların hüquqlarını kobud şəkildə pozur. Bunun ekspertizası aparılmalıdır. Ancaq bunu heç kim etmir.

Müsəlmanlar isə Fransada, demək olar ki, gettolarda yaşayırlar. Parisdə 13-cü rayon adlanan yer var. Orada milli və dini azlıqlar yaşayırlar. Fransada yaşayanlar özləri oranı getto adlandırır. Marseldə də belə yerlər mövcuddur. Bununla bağlı tənqidi çıxışlar var, yazılar yazılıb, hətta çox populyar olan bədii filmlər də çəkilib. Çünki daxili siyasi diskurslarda bu mövzu həmişə aktualdır. Buna baxmayaraq Fransa başqa ölkələrə meydan oxumaq, yaxud dərs keçmək istəyir. Bu təzadlı siyasət müsəlman ölkələri ilə dəfələrlə böhranlara səbəb olub. Fransanın dünyada nüfuzu çox aşağı düşüb. Makronun səfərləri zamanı biz görürük ki, onu qəbul edən tərəf Parisə açıq iradlar bildirir. Biz bunu Makronun Konqoya bu ilin martında etdiyi səfər zamanı da gördük. Təəssüf ki, Paris bu tənqidlərdən nəticə çıxarmır. Makron bütün şərtləri pozaraq, qırmızı xətləri keçərək bu cür kobud səhvlərlə dolu siyasət yürütməkdə davam edir.

# 24 iyun 1993-cü il – Prezident səlahiyyətlərinin Heydər Əliyevə verildiyi gün

## 30 il əvvəl ölkədə xalqın iradəsi qalib gəlmişdi

*Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə keçən gecə xəlvəti, heç kəsə, o cümlədən də mənə xəbər vermədən təyyarə ilə Bakıdan çıxıb getmişdir. Halbuki, təyyarə Bakıdan uçmamışdan bir saat əvvəl biz bir yerdə idik. Yalnız səhər bizə məlum oldu ki, onun təyyarəsi Naxçıvana enmişdir. Buradan Prezidenti Xalq Cəbhəsinin üzvləri dağ kəndi Kələkiyə aparmışlar.*

**Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyul ayında "Ostankino" Dövlətlərarası Televiziya Şirkətinə verdiyi müsahibədən**



şeylər var. Lakin bu, təkcə mənə və yaxın adamlarıma aiddir.

**– İndiyədək yaşadığınız həyata yekun vurularsa, başlıca hadisə nə olardı?**

– Bilirsiniz, mən bu sual barədə heç vaxt düşünməmişəm, ona görə cavabım o qədər də dəqiq görünməyə bilər. Başlıca hadisə... Buna da müxtəlif cür yanaşmaq olar. Şəxsi həyatımda evlənməyim, qızımın, oğlumun dünyaya gəlmələri başlıca hadisə olubdur. Siyasi fəaliyyətimdə isə həyatımda olanlar mənim iradəmdən asılı olmayaraq baş veribdir. Məsələn, məni Siyasi Büronun üzvü, Azərbaycanın rəhbəri seçmiş, o cür böyük ölkənin Nazirlər Soveti Sədrinin birinci müavini təyin etmişdilər. Azərbaycanın tarixində belə şey olmamışdı. Ona görə də bu, xalqım üçün tarixi hadisə idi ki, onun övladı belə yüksəyə qalxmışdı. Lakin deyə bilmərəm ki, bu, o zaman məndən ötrü böyük sevindirici hadisə idi. Mən hətta oraya getmək istəmir, müqavimət göstərirdim, Respublikadan ayrılmaq məndən ötrü çətin idi. İndi bunların hamısını, bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam.

**Dövlət müstəqilliyimizin ilk illərində yaşadığımız tarixi proseslərdən ötən hər il, hər ay bizə imkan verir ki, o günlərdə baş verənləri bir daha dərindən analiz edək, faktlara yenidən nəzər salaq və xalqın tarix qarşısındakı xidmətlərini layiqincə qiymətləndirə bilək. Əslində Azərbaycan xalqının xidmətləri otuz ildir ki, daim qədirbilənliklə yada salınır və yüksək qiymətləndirilir. Ancaq o xidmətin miqyası o qədər böyükdür ki, nəinki hər il, hətta hər gün xatırlasaq, yenə də azdır.**

Bəlkə də oxuculardan kimsə belə sual verə bilər ki, konkret fakt – Prezident səlahiyyətlərinin Heydər Əliyevə verilməsinin otuz illiyi münasibəti ilə qələmə aldığımız sətirlərin nə üçün xalqın tarix qarşısındakı xidmətlərini yada salmağa başlayırıq. Çünki bugünkü qüdrətli Azərbaycan dövlətinin bütün uğurları məhz həmin ağır günlərdə xalqın doğru seçim etməsinin nəticəsidir.

Heç kəs unutmayıb, Kreml Bakıda 20 Yanvar faciəsini törədəndə Əbdürrəhman Vəzirov öz vəzifə kürsüsünü qoyub Moskvaya qaçmışdı. Başqa ölkələrdəki himayədarlarına güvənən Ermənistan rəhbərliyi Xocalı soyqırımını törədəndə, Ayaz Mütəllibov həmin addımı təkrarlamışdı. Gəncə hadisələrindən, vətəndaş müharibəsinin başlanmasından sonra isə Əbülfəz Elçibəy Kələkiyə qaçdı. Bu tendensiya düşməni güldürür, dostlarımızı və xalqımızı isə üzürdü. Heydər Əliyevin xalqın israrlı çağırışlarına müsbət cavab verərək, siyasi hakimiyyətə qayıtması məhz həmin utanc dolu faktlara da son qoymuşdu.

Azərbaycan xalqı həmin illərdə ölkəni bəla və məhrumiyyətlərdən, düşmən işğalından qorumaq üçün ulu öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət edəndə, onu Ali Sovetin sədri seçəndə, ölkə prezidentinin vəzifə kürsüsünü qoyub qaçmasından sonra onun səlahiyyətlərinin Heydər Əliyevə verilməsinin tələb edəndə, məhz öz böyüklüyünü nümayiş etdirmiş, milli tariximizə heç zaman silinməyəcək səhifələr yazmışdı.

Həmin günlərin reallıqlarını bir daha xatırlayanda, adamı dəhşət bürüyür. Hakimiyyət uğrunda gedən mübarizələr, imkanlı adamların hamısının öz yanında silahlı dəstələr saxlamaları, iqtisadiyyatın sürətlə çökməsi, dövlətin əhaliyə çörək verə bilməməsi, qardaşın qardaşa güllə atması, "OMON"çuların bitib-tükənməyən hikkələri, hakimiyyət olimpinə və qanunverici orqana küçədən gəlmiş insanların doluşması və bu kimi onlarca problem milli dövlətçiliyimizin növbəti dəfə əldən getməsinə "münbit" şərait yaratmışdı.

Milli tariximizin həmin səhifələrində oxuyuruq ki, Ulu öndərin prezident səlahiyyətlərini icra etməyə başlaması ölkədəki vəziyyətin məhz xalqın nəzarəti altına keçməsi idi. Həmin addımla həm dövlət başçısının öz postunu qoyub qaçması "ənənəsi"nə son qoyuldu, həm vətəndaş müharibəsinin qarşısı alındı, həm ölkə iqtisadiyyatının dirçəldilməsi, xalqın sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Ən başlıcası, hətta Ulu öndərin fiziki cəhətdən yox edilməsi məqsədilə dəfələrlə planlar cızılıb, ssenarilər tərtib edilsə də, Heydər Əliyev xalq və milli dövlətçilik naminə başladığı möhtəşəm mübarizədən bir an belə geri çəkilməyəcəyini bəyan etdi və milli suverenliyimizə əbədilik qazandırdı.

Məlum olduğu kimi, Heydər Əliyev 1993-cü il iyunun 24-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etməklə yanaşı, prezidentin səlahiyyətlərini də icra etdi. Həmin dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər aparıldı. Ulu öndər həmin vaxt əhalinin döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər görür, ölkədəki vəziyyət barədə fikirlərini tez-tez xalqla bölüşürdü.

Xalq öz böyük oğluna inam və etimadını həmin il oktyabrın 3-də keçirilmiş prezident seçkilərində də yüksək səviyyədə ortaya qoymuşdu. Belə ki, prezident seçkilərində seçicilərin 98,8 faizi Heydər Əliyevə səs verərək, ölkənin taleyini bu görkəmli dövlət xadiminə həvalə etmək niyyətini bütün dünyaya nümayiş etdirmişdi.

Sonrakı illərin proseslərinin hamısı məhz Azərbaycan xalqının maraq və mənafelərinə uyğun şəkildə davam etmişdi. Biz fəxr edirik ki, Prezident İlham Əliyev Ulu öndərin siyasi kursunu onun istədiyi şəkildə davam etdirir və onun arzuladığı nailiyyətlərə imza atırıq. Bu arqumentimizi cənab Prezidentin 2020-ci il noyabrın 8-də Fəxri xiyabana gedərək, Şuşanın düşmən tapdağından azad edilməsi xəbərini mərhum atasının ruhuna söyləyəndə də gördük, Bakıdakı Zəfər paradında da, Şuşada imzalanmış möhtəşəm Azərbaycan – Türkiyə müttəfiqlik Bəyannaməsinin müddəalarında da. İnanırıq ki, Heydər Əliyev siyasi kursunun daha böyük uğurları hələ irəlidədir.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**

# Heydər Əliyev dərsləri

**(əvvəli "Xalq qəzeti"nin 2023-cü il 7, 13, 15 və 17 may nömrələrində )**

**Dahi siyasətçi və böyük dövlət xadimi Heydər Əliyevin şərəfli ömür yolu heç də həmişə hamar olmayıb. Çox böyük çətinliklərlə, hətta ölüm təhlükəsi ilə üz-üzə qaldığı anlarda belə Ulu öndər öz qürurunu, səbr və təmkinini pozmayıb, ən düzgün qərarlar qəbul edib. Sovetlər Birliyində yüksək vəzifələrdə olarkən, həmçinin sonralar müstəqil Azərbaycan Respublikasına rəhbərlik edərkən, ona qarşı edilən haqsızlıqlara, ədalətsizliklərə necə sinə gərdiyini müxtəlif görüşlərdə, müsahibələrdə, iclaslarda tam təfsilatı ilə diqqətə çatdırmışdır. Onlardan bəzilərini oxuculara təqdim edirik.**

### "Azərbaycan mənim ürəyimdir"

**Ulu öndər Heydər Əliyevin Azərbaycanı necə sevdiyini duymaq üçün Prezident seçilməsi münasibətilə "Gülüstan" Sarayında təşkil olunmuş mərasimdəki nitqindən kiçik bir epizoda diqqət edək:**

– Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır. Azərbaycan haqqında hər bir vətəndaş öz ürək sözlərini deyə bilər. Mənim ürəyim daim öz doğma Vətənim Azərbaycanla bağlı, Azərbaycan haqqında hissiyyatlarla dolu olubdur. Bu hissiyyatları sözlə demək mümkün deyildir. Hətta böyük şairimiz Səməd Vurğunun dediyi sözlər də bunun hamısını əhatə etmir. Ancaq şerə ehtiyac olduğuna görə Səməd Vurğunun sözlərini bir daha təkrar etmək istəyirəm:

*El bilir ki, sən mənimsən.*
*Yurdum, yuvam məskənimsən.*
*Anam, doğma Vətənimsən.*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

### "Hər şeydən çox torpağımı, xalqımı sevirəm"

**Heydər Əliyev həyatının ən ağır anlarını "Oqonyok" jurnalına verdiyi müsahibədə (19 may 1996-cı il) belə xatırlamışdı:**

**– Həyatınızda ən ağır məqam hansı olmuşdur?**

– Həyatımın ən ağır dövrü Naxçıvanda olmuşdur. Azərbaycana qayıtmağım qeyri-adi xarakter daşıyırdı. Mənim qayıtmağıma Azərbaycanda da mane olurdular, Moskvada Sovetlər İttifaqının rəhbərləri də mane olurdular. Moskvada məndən ötrü, ümumiyyətlə, dözülməz şərait yaradılmışdı. Mən, əslində, cəmiyyətdən təcrid edilmişdim, ciddi nəzarət altında idim, ev dustağı idim. Mənə Bakıda da çətin idi. Naxçıvana getməli oldum. Orada da asan deyildi. Birincisi, bu respublika özü blokada vəziyyətində idi. Paytaxtla və Azərbaycanın digər bölgələri ilə normal əlaqə yox idi. Blokada vəziyyəti bir çox mühüm həyati amillərin olmamasını da şərtləndirmişdi – elektrik enerjisi yox idi, su, qaz çatışmırdı. Vaxtilə Naxçıvana da, Dağlıq Qarabağa da qazı mən çəkdirmişdim. İlk vaxtlar yaşamağa yerim də yox idi, qohumlarımın yanında qalırdım, mənzil şəraiti çox çətin idi. Mən orada bir ildən çox adi sakin kimi yaşadım. 1991-ci ilin sentyabrında isə xalq qalxdı və tələb etdi ki, mən Naxçıvan Respublikasının Ali Sovetinə başçılıq edim. Yəni, əslində, respublikanın başçısı olum. Düzünü deyirəm, mən bunu heç də istəmirdim. Lakin bir neçə gün böyük mitinqlər keçirildi, məni razı salmaq istəyirdilər. Sonra hiss etdim ki, Naxçıvan xalqı üçün həyatın ən ağır dövründə bu yükü öz üzərimə götürməliyəm. Lakin hətta bu ağır həyatda da mən özüm üçün maraqlı və sevindirici olan çox şey tapırdım, yenə də keçmiş əlaqələrimdən istifadə edirdim. İran və Türkiyə ilə əlaqə yarada bilmişdim. Biz Araz çayı üzərində körpü tikdik, bu, böyük hadisə idi, çünki qısa bir müddətdə, əslində, həyat yolu yaratmışdıq. İrandan elektrik xətti çəkdik… Mən bir çox başqa işlər də görə bildim. Sonra məni Bakıya çağırdılar. Burada artıq vətəndaş müharibəsi gedirdi, bir-birinə atəş açırdılar, hərənin öz silahlı dəstəsi var idi. Qayda-qanun yaratmaq üçün mənə iki il yarım vaxt lazım gəldi. İndi iki ilə yaxındır ki, xalq əmin-amanlıqda yaşayır. Bəli, insanlar dörd ildir, çadırlarda yaşayırlar. Siz həmin düşərgələrdə olmuş, qaçqınların vəziyyətini görmüsünüz. Bəli, ağırdır, son dərəcə ağırdır. Lakin bir var, müharibə gedir, bir də var ki, müharibə yoxdur. Tabutlar gətirmirlər, qalan işlərin öhdəsindən gələ bilərik.

**– Siz həyatda nədənsə qorxursunuzmu?**

– Mən indi heç nədən qorxmuram, o zaman da heç nədən qorxmamışam. Buraya gələndə başa düşürdüm ki, ölüm təhlükəsi var. Bu, məni qorxutmadı.

**– Siz ən çox nəyi sevirsiniz?**

– Bilirsiniz, mən özümü siyasi fəaliyyətə, öz xalqıma, respublikama həsr etmiş adamam. Respublikanı çox sevirəm. Nə qədər təmtəraqlı səslənsə də, mən hər şeydən çox torpağımı, xalqımı sevirəm. Öz Azərbaycan Respublikamı sevirəm. Axıra qədər də onunla bir yerdə olacağam. O ki qaldı şəxsi həyatıma, hər bir adam kimi, mənim də bağlı olduğum

### Yarım əsr sonra görüş

1982-ci ildə – o vaxt Azərbaycanın başçısı idim, – məni Moskvaya dəvət edib Siyasi Büronun üzvü və Baş nazirin birinci müavini vəzifəsinə təyin edən zaman Türkiyə qəzetləri böyük sevinclə fotoşəkillərimi vermiş və yazmışdılar ki, Kreml sarayının başında bir türk oğlu yüksəldi. Bəli, bu, bizi - azərbaycanlıları, türkləri, müsəlmanları çox sevindirdi…

Ancaq düşmənlərimizi kədərləndirdi. Mən beş il orada çalışandan sonra məcburi istefaya getdim. Mənim əleyhimə, o cümlədən erməni düşmənlərimiz tərəfindən müxtəlif təxribatlar, fitnələr və yalanlar, böhtanlar edilirdi. Moskvada üç il ağır bir şəraitdə yaşayandan sonra öz Vətən torpağıma, Azərbaycana dönməyi qərara aldım. Gəldim Bakıya. Təəssüflər olsun ki, orada da namərdlər, nadürüst insanlar mənim yaşamağıma imkan vermədilər. Buraya, Naxçıvana gəldim. Burada məni qucaqladılar, qoyunlarına aldılar, burada məni yaşatdılar.

Bu hekayəti ona görə deyirəm ki, mən o ağır dövrdə Naxçıvana gəldim. Burada bacım yaşayırdı, onun kiçik komasında yerləşdim. Məni sayan adamlar gəlib görüşür, kiçik bir həyətdə, demək olar ki, səhərdən axşama kimi məni ziyarət edirdilər. Mənim müəllimim Lətif Hüseynzadə gəldi. O qədər sevindim ki! Çünki ondan 39-cu ildə ayrılmışdım, bu isə 90-cı il idi. Oturduq, çox söhbət etdik. Mən onun o vaxt dediyi sözləri sizə bildirmək istəyirəm. Dedi ki, əzizim Heydər, sən çalış ki, erməni düşmənlərimizin burada qarşısını al, Naxçıvana təcavüzə imkan vermə. Çünki 18-ci ildə onlar Naxçıvana hücum etdilər, əgər türk ordusu buraya gəlməsəydi, Kazım Qarabəkir paşanın ordusu Naxçıvana gəlməsəydi hamımızı qıracaqdılar. Bu, mənim gözümün qabağında olan hadisədir. Yəni 1990-cı ildə Lətif müəllim, Lətif Hüseynzadə 1918-ci ili yadına saldı və o illərin şahidi olaraq mənə bir ağsaqqal, müəllim kimi öz tövsiyələrini verdi. Mən ona dedim: Əziz müəllimim, mən böyük həyat yolu keçmişəm. Bu gün Naxçıvana məcburiyyətdən gəlmişəm, amma eyni zamanda gəlmişəm ki, sizinlə bir yerdə olum, bərabər olum, öz həmvətənlərimlə bir yerdə olum və vətənimi qoruyum. Əgər qoruya bilərəmsə - qoruyacağıq, qoruya bilməyəcəmsə - hamımız bir yerdə şəhid olacağıq.

**(13 oktyabr, 1999-cu il)**
**(ardı var)**

***Təqdim etdi:***
***Faiq SADIQOV,***
***Əməkdar jurnalist***

# ABŞ xatirələri fotolarda



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar ABŞ-dakı səfirliyimiz tərəfindən dünən "Whittemore House" Mədəniyyət Mərkəzində Ulu öndərin bu ölkəyə səfərlərinə həsr edilmiş "ABŞ xatirələri fotolarda. Möhkəm əlaqələrə zəmin yaradarkən" ("U.S. memories in photos. Laying foundation for strong bonds") adlı fotoalbomun təqdimatı, fotosərgi və konsert təşkil edilib.**

Səfir Xəzər İbrahim Ümummilli liderin müstəqil Azərbaycan dövlətinin banisi kimi onun uzaqgörən daxili və xarici siyasəti, xüsusilə də ABŞ-Azərbaycan münasibətlərinin əsasının qoyulmasında və inkişaf etdirilməsində əvəzolunmaz fəaliyyəti ilə bağlı tədbir iştirakçılarına geniş məlumat verib. O, Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının qəlbində daimi yaşayacağını və onun Azərbaycana bəxş etdiyi dövlətçilik mirasının əbədi olacağını qeyd edib.

***"Xalq qəzeti"***

# "Zəfərin qazanılmasında Heydər Əliyev ideyaları"





**Azərbaycan Hərb Tarixi Muzeyində Gənclərin Maarifləndirilməsinə Dəstək İctimai Birliyi və Abbas Mirzə Şərifzadə adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan Ordusunun 105 illik yubileyinə həsr olunmuş "Zəfərin qazanılmasında Heydər Əliyev ideyaları" adlı yubiley konfransı keçirilib.**

Toplantıda Azərbaycan Ordusunun yaranması və inkişaf tarixinə həsr edilmiş məruzə ilə çıxış edən muzeyin rəisi polkovnik Əzizağa Qənizadə Azərbaycanın müasir Ordusunu müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyevin formalaşdırdığını bildirib. O qeyd edib ki, bu gün Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusu var.

Tədbirdə Ümummilli liderin ordu quruculuğu ilə bağlı başladığı işlərin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi bildirildi. Qısa vaxtda Cənubi Qafqazın ən güclü ordusuna çevrilmiş Azərbaycan Ordusunun cəmi 44 gün ərzində 30 illik işğala son qoyaraq, torpaqlarımızı düşmən tapdağından azad etməklə, böyük Zəfər qazandığı qeyd olundu.

Gənclərin maarifləndirilməsinə Dəstək İctimai Birliyinin sədri Aynurə Salmanlı Azərbaycan Ordusunun yaradılmasının 105-ci ildönümünü hər kəsin iftixar hissilə qeyd etdiyini vurğuladı: "Azərbaycan dövlətçiliyinin təhlükəsizliyinin təminatçısı olan Silahlı Qüvvələrimiz bu gün döyüş hazırlığı sahəsində öz qüdrətini daha da möhkəmləndirir".

Şərifzadə adına Mədəniyyət Mərkəzi üzvlərinin ifasında təqdim olunmuş bayram konsertindən sonra Azərbaycan Modelistlər Klubunun üzvləri İlqar İsmayılov, Fuad Paşayev və Namiq Bəşirov tərəfindən hazırlanmış texikalardan ibarət "Zəfər festivalı" adlı sərgi nümayiş etdirildi.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 202** **Bakı şəhəri, 21 iyun 2023-cü il**

***"Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nın və "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233; 2016, № 8, maddə 1434, № 10, maddə 1718; 2017, № 2, maddə 317, № 5, maddə 993, № 10, maddə 1927, № 12 (II kitab), maddələr 2485, 2540; 2018, № 4, maddə 790, № 8, maddə 1803, № 10, maddə 2167; 2019, № 3, maddələr 555, 566, № 5, maddə 967, № 7, maddə 1325; 2021, № 3, maddə 296, № 12, maddə 1510) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın 7-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"7. Hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərə arayışın verilməsi

7.1. Qanunun 8-ci maddəsində göstərilmiş əsaslara görə daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqları əldə etmiş şəxs həmin hüququ təsdiq edən daşınmaz əmlakın dövlət reyestrindən çıxarış (bundan sonra – çıxarış) almadan öldükdə onun notarius tərəfindən müəyyən edilən qanun və ya vəsiyyət üzrə vərəsələrinin müraciəti əsasında hüququn ölmüş şəxsə məxsus olması haqqında bu Təlimatın 7.3-cü bəndində göstərilən məzmunda ərazi idarəsinin rəhbərliyi tərəfindən müvafiq elektron imza ilə təsdiqlənmiş elektron arayış verilir. Hüquqların dövlət qeydiyyatı haqqında çıxarış həmin arayış əsasında verilmiş vərəsəlik sənədlərini təqdim edən vərəsənin adına rəsmiləşdirilir.

7.2. Bu Təlimatın 7.1-ci bəndində nəzərdə tutulmuş elektron arayış "Elektron hökumət" portalında yerləşdirilir və həmin arayış notariusun və hüquq sahibinin elektron üsulla real vaxt rejimində əldə etmələri imkanı təmin olunur.

7.3. Elektron arayışda aşağıdakılar göstərilir:

7.3.1. ərizəçinin soyadı, adı, atasının adı;

7.3.2. ərizəçinin təqdim etdiyi hüquqmüəyyənedici sənədlər haqqında məlumat;

7.3.3. mərhumun soyadı, adı, atasının adı;

7.3.4. daşınmaz əmlakın ünvanı;

7.3.5. daşınmaz əmlakın əsas göstəriciləri;

7.3.6. daşınmaz əmlakın adı;

7.3.7. daşınmaz əmlak üzərində hüququn növü;

7.3.8. arayışın notariat ofisində vərəsəliyin rəsmiləşdirilməsi üçün tərtib olunduğu barədə qeyd;

7.3.9. dövlət reyestrində elektron arayışı təsdiq edən vəzifəli şəxsin vəzifəsi, gücləndirilmiş elektron imzası, soyadı və adı.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 203** **Bakı şəhəri, 22 iyun 2023-cü il**

***"Dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin Siyahısı"nın təsdiq edilməsi haqqında***

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 767-VIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 2000 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2023-cü il 1 yanvar tarixindən tətbiq edilir və 2025-ci il 1 yanvar tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 206** **Bakı şəhəri, 23 iyun 2023-cü il**

***Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə***

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il 2 oktyabr saat 06:00-dək uzadılsın.

**2.** "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddələr 1209, 1231, № 10, maddələr 1274, 1275, 1278, 1283, 1298, 1314, 1315, № 11, maddələr 1387, 1394, № 12 (V kitab), maddələr 1588, 1592, 1612; 2021, № 1, maddələr 92, 106, № 3, maddələr 267, 290, 291, № 4, maddə 403, № 5, maddə 530, № 6 (IV kitab), maddələr 683, 692, № 7, maddələr 868, 882, № 8, maddə 974, № 9, maddə 1079, № 10, maddə 1191, № 12, maddələr 1514, 1524; 2022, № 2, maddə 176, № 3, maddə 258, № 4, maddə 417, № 6, maddə 673, № 8, maddə 1012, № 10, maddə 1225, № 12, maddə 1554; 2023, № 2, maddə 328, № 3, maddə 443, № 4, maddə 595) 1.1-ci bəndində "1 iyul" sözləri "2 oktyabr" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin iyul ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Ədliyyə naziri** Fikrət Məmmədov | Xızı | Xızı, Siyəzən, Şabran | 06 |
| 2. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 07 |
| 3. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Qax | Qax, Şəki, Zaqatala, Balakən | 07 |
| 4. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Lerik | Lerik, Lənkəran, Astara | 10 |
| 5. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Qəbələ | Qəbələ, Oğuz, İsmayıllı, Ağsu | 10 |
| 6. | **Baş prokuror** Kamran Əliyev | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 11 |
| 7. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | İsmayıllı | İsmayıllı, Ağsu, Şamaxı, Qobustan | 12 |
| 8. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Şəmkir | Şəmkir, Gədəbəy | 12 |
| 9. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Daşkəsən | Daşkəsən, Göygöl | 12 |
| 10. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Abşeron | Abşeron, Zəngilan | 13 |
| 11. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Füzuli** (Horadiz şəhəri) | Füzuli, Beyləqan, Xocavənd | 14 |
| 12. | **Mədəniyyət naziri** Adil Kərimli | Lənkəran | Lənkəran, Astara, Lerik | 14 |
| 13. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Göygöl | Göygöl, Daşkəsən | 14 |
| 14. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | Sumqayıt | Sumqayıt, Qubadlı | 17 |
| 15. | **Baş prokuror** Kamran Əliyev | Biləsuvar | Biləsuvar, Cəlilabad, Neftçala | 18 |
| 16. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Mingəçevir | Mingəçevir, Yevlax, Ağdaş, Ucar, Tərtər, Şuşa | 19 |
| 17. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Gədəbəy | Gədəbəy, Şəmkir | 20 |
| 18. | **Energetika naziri** Pərviz Şahbazov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 21 |
| 19. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Qəbələ | Qəbələ, Oğuz | 21 |
| 20. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Quba | Quba, Qusar | 21 |
| 21. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | 21 |
| 22. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | İsmayıllı | İsmayıllı, Ağsu | 21 |
| 23. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Şəki | Şəki, Qax | 21 |
| 24. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi | 21 |
| 25. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Balakən | Balakən, Zaqatala | 21 |
| 26. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 22 |
| 27. | **Baş prokuror** Kamran Əliyev | Tovuz | Tovuz, Şəmkir, Gədəbəy, Ağstafa, Qazax | 24 |
| 28. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Zaqatala | Zaqatala, Balakən | 28 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Baş Prokurorluqda beynəlxalq konfrans

**İyunun 23-də Azərbaycan Respublikası Baş Prokurorluğunun və İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Aparatının birgə təşkilatçılığı ilə "Biznes və insan hüquqları kontekstində şəffaflığın təmin olunması" mövzusunda beynəlxalq konfrans keçirilib.**



Konfransda Baş prokuror Kamran Əliyev, İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Nazirlər Kabineti, Milli Məclis, Baş Prokurorluq, məhkəmə, hüquq-mühafizə orqanları, insan hüquqları üzrə təsisatların yüksək vəzifəli şəxsləri, beynəlxalq təşkilatların, biznes qurumlarının, vətəndaş cəmiyyəti, həmkarlar ittifaqları, qeyri-hökumət təşkilatlarının və media nümayəndələri iştirak ediblər.

Kamran Əliyev çıxış edərək bildirib ki, ölkəmizdə beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, yeni iqtisadi kursun müəyyənləşdirilməsi, Avropa yönümlü inkişaf strategiyasının seçilməsi, ölkədə dayanıqlı ictimai-siyasi sabitliyi birdəfəlik təmin edən digər faktorların da yaradılması, Azərbaycanın bu gün də davam edən inkişafının təməlinin qoyulması cari ildə 100 illik yubileyini qeyd etdiyimiz xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

"Qlobal Saziş" "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"nin, Beynəlxalq Əmək Təşkilatının "İş yerlərində hüquqlar və əsas prinsiplərə dair Bəyannaməsi"nin, "Ətraf mühit və inkişaf haqqında Rio-de-Janeyro Deklarasiyası"nın və BMT-nin "Korrupsiyaya qarşı Konvensiyası"nın tələblərinə istinadən tərtib olunmuş və könüllülüyə əsaslanmaqla qeyd olunan on prinsipin beynəlxalq səviyyədə sahibkarlıq fəaliyyətinə inteqrasiyasını, BMT-nin inkişafla bağlı genişmiqyaslı məqsədlərinin həyata keçirilməsi üzrə fəaliyyətinin stimullaşdırılmasını nəzərdə tutur.

Konfransın həmsədri Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva çıxışında biznes və insan hüquqları sahəsinin müvəkkilin daim diqqət mərkəzində olmasını, bu sahədə mövcud vəziyyətin monitorinqi, çatışmazlıqların müəyyən edilməsi və aradan qaldırılması məqsədilə müvəkkil tərəfindən davamlı olaraq tədbirlərin təşkil olunmasını, elmi-analitik iş aparılaraq, beynəlxalq təcrübənin öyrənilməsini, bu istiqamətdə dövlət qurumları, QHT-lər və beynəlxalq təşkilatlarla sıx əməkdaşlığın davam etdirilməsini vurğulayıb.

Daha sonra Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxışında qeyd edib ki, Prezident İlham Əliyev ölkədə bütün sahələrdə yenilik edərək şəffaflığı təmin etdi.

O əlavə edib ki, təkcə 2018-2020-ci il ərzində ölkədə önəmli vəzifələrdə çalışan yüzlərlə şəxs vəzifəsindən azad edilib, böyük dəyişikliklər həyata keçirilib.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Daxili Qoşunların Ali Hərbi Məktəbində növbəti buraxılış

**İyunun 23-də Daxili İşlər Nazirliyi (DİN) Daxili Qoşunlarının Ali Hərbi Məktəbində 2022-2023-cü tədris ilinin buraxılışına həsr olunan təntənəli mərasim keçirilib. Tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.**



Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Nazir müavini – Daxili Qoşunların komandanı Şahin Məmmədov məzunların buraxılış mərasiminin Ali Hərbi Məktəbin həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıraraq təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

General-polkovnik Vilayət Eyvazov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında möhtəşəm Qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının da ön cəbhədə iştirak edərək qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Ali Hərbi Məktəbin də məzunlarının olması bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşması üçün ortaya qoyulmuş əzmkar fəaliyyətin əyani təsdiqi olduğunu vurğulayıb.

O, qələbədən sonrakı dövrdə Daxili Qoşunların şəxsi heyətinin işğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları ilə birgə xidmət etmələrini də məmnunluqla qeyd edib.

***"Xalq qəzeti"***

# Qarabağda mina kabusu

**Qarabağ ərazisinə səpələnmiş minalar böyük humanitar problemdir.**



Bunu Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov İtaliyanın "Agenzia Nova" informasiya agentliyinə müsahibəsində deyib.

"Otuz ilə yaxın işğal dövründə ermənilər tərəfindən Azərbaycan ərazilərində 1,5 milyondan çox mina basdırılıb. Həmin torpaqlar işğaldan azad edildikdən sonra bu günədək ərazinin yalnız 10 faizdən bir qədər çox hissəsi minalardan təmizlənib. Beynəlxalq təşkilatların rəyinə görə, ərazilərin minalardan təmizlənməsinə onilliklər lazımdır", - deyə səfir qeyd edib.

İlqar Muxtarov vurğulayıb ki, bu böyük humanitar problem otuz il əvvəl evlərini tərk etmək məcburiyyətində qalan insanların öz yurd-yuvalarına geri qayıtmasına imkan vermir. Həmçinin bu vəziyyət həmin ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə də maneə yaradır. Çünki bu ərazilərdə görüləcək iş çoxdur və minaların olması böyük təhlükədir.

***"Xalq qəzeti"***

# Milli Məclisdə 33 qanun layihəsi müzakirə olundu

## Həm də Söyüdlü hadisəsindən danışıldı



**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar yaz sessiyasının növbəti plenar iclası keçirildi.**

Gündəliyin təsdiqindən sonra deputatlar cari məsələlər barəsində fikirlərini səsləndirdilər. Bir neçə gün əvvəl Gədəbəy rayonunun Söyüdlü kəndində baş verən hadisələrlə bağlı çıxış edən deputat Elnur Allahverdiyev dedi ki, ehalinin qarşılaşdığı problemlər tədricən öz həllini tapır. Təəssüf ki, bəzi araqarışdıranlar və ölkəmizin inkişafını gözü götürməyən ünsürlər belə hadisələrdən siyasi məqsədlər üçün istifadə edərək, ölkədə qarşıdurma yaratmağa çalışırlar.

Deputat Fazil Mustafa Zəngəzur dəhlizi istiqamətində aparılan mübarizənin öz bəhrəsini verməkdə ehtimalından bəzi qüvvələrin təşvişə düşdüyünü və Söyüdlü kəndində baş verən hadisələrin kökündə dayanan amillərdən birinin də məhz bu olduğunu diqqətə çatdırdı. Bu qüvvələr ölkədə təlatüm yaratmaq üçün Gədəbəydəki süni gölü hədəf seçdilər.

Çıxış edən digər deputatlar da baş verən hadisələrdə bəzi xarici qüvvələrin əlinin olduğunu bildirdilər. Onlar Söyüdlüdə yaşananları ölkədə sabitliyi pozmağa yönəlik hadisə kimi dəyərləndirdilər.

Sonra iclasın sədri gündəliyə 33 məsələnin çıxarıldığını, birinci və ikinci məsələlərin üçüncü oxunuşda təqdim edildiyini bildirdi. Qanun layihələri barədə məlumat verən komitə sədrləri üçüncü oxunuşda əlavə təklif və rəylərin daxil olunmadığını əsas gətirərək, sənədlərin səsə qoyulmasını təklif etdilər.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Banklar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə məlumat verdi. Bildirdi ki, qanun layihələrində bank sahəsində tənzimləmə sisteminin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

Deputatların təklif və rəylərinə münasibət bildirən Mərkəzi Bankın sədri Taleh Kazımov dedi ki, bizim əsas siyasətimiz qiymətlərin sabitliyi ilə bağlıdır.

T.Kazımov Azərbaycanda hüquqi və fiziki şəxslər üzrə kredit faizinə də münasibət bildirdi. Dedi ki, bu, qonşu ölkələrdən aşağıdır. Onun deməsinə görə, Azərbaycanda kredit faizi hüquqi şəxslər üzrə 10,1 faiz, fiziki şəxslər üçün isə 16,1 faizdir. Kredit faizləri bir neçə amildən formalaşır. Yüksək inflyasiya şəraitində kredit üzrə faizlərin azaldılması məqbul hesab edilmir. Bu, inflyasiyanı kəskin artıra bilər. Bu da makroiqtisadi göstəricilər üçün qəbul edilən deyil.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim etdikdən sonra deputatlar son vaxtlar ölkədə dərman vasitələrini qiymətlərinin yuxarı olmasının səbəbi ilə maraqlandılar və Səhiyyə Nazirliyindən bu suala cavab verilməsini tələb etdilər. Qeyd edildi ki, digər ölkələrlə, xüsusilə də qardaş Türkiyə ilə müqayisədə qiymətlər çox bahadır. Bunun səbəbi araşdırılmalıdır.

S.Qafarova digər qanun layihələrinin Prezidentin məktubu ilə daxil edildiyini, məzmun və mahiyyətcə oxşar olduğunu bildirdi.

Qanun layihələri səsə qoyularaq qəbul edildi.

***Ə. BƏDƏLOV, "Xalq qəzeti"***

# Makron ekorepressiyası



## Fransa hökuməti ətraf mühit fəallarına "divan tutur"

**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qurumun iyunun 22-də ölkəmizlə bağlı çıxardığı "Laçın dəhlizi ilə azad və təhlükəsiz hərəkətin təmin edilməsi" adlı qərəzli qətnaməsinə münasibət bildirərkən, maraqlı məqama toxunmuşdu. O, Azərbaycanın Laçında Ermənistanla şərti sərhəddə yaratdığı nəzarət-buraxılış məntəqəsinin suveren ərazimizdə yerləşdiyini vurğulamış və bildirmişdi ki, daxilindəki problemlərə biganə qalan Fransa digər ölkələrdə problemlər axtarışındadır.**

Əlbəttə, S.Seyidov belə fikir bildirməklə, sözügedən qətnamənin məhz Paris tərəfindən ortaya atıldığına diqqət çəkmişdi. Onu da deyək ki, Fransa ermənipərəstliyi sərhəd tanımır. Xüsusən də Emmanuel Makronun prezidentliyi dönəmində bu meyilin daha həyasız çalarlarla ortada olduğunu görə bilərik. Məsələn, həmin Makronun Azərbaycan-Ermənistan sülh nizamlamasının Qərb formatını pozmasını vurğulaya, sübut kimi ötən ilin Praqa Sammitindən sonra çıxardığı oyunlardan, ölkəmizi işğalçılıqdan suçlamasından danışmaq mümkündür. Bununla yanaşı, onun Avropa İttifaqını "erməni təəssübünün" alətinə çevirməsindən tutmuş, bir çox digər məqamları da diqqətə çatdırmaq yerinə düşər. S.Seyidovun isə dediyi o idi ki, hazırda Fransa Avropa Şurasını da alətə çevirməkdədir.

Makronun cılız təfəkkürlə yanaşmasının, böyük hesab etdiyi məqsədi var. Hakimiyyəti dövründə ölkəsinin bütün qlobal güclər tərəfindən, bir növ, oyundankənar vəziyyətə düşürüldüyünü, saya salınmadığını görən Makron öz aləmində, nəhəng beynəlxalq gediş etmək qərarına gəlib. Fransanın ermənipərəstliyə söykənmiş Cənubi Qafqaz təşəbbüsü də bundan qaynaqlanır. Makron, həmçinin, necə deyərlər, Parisdən vurub Monqolustanın paytaxtı Ulan-Botordan çıxmaq kimi gedişə də əl atıb ki, ölkəsi üçün, guya, vacib qlobal missiya yerinə yetirdiyini göstərsin. Əslində isə bütün bunlar, azərbaycanlı avroparlamentarinin vurğuladığı kimi, daxildəki sosial problemlərdən diqqəti yayındırmaq cəhdindən başqa bir şey deyil. Özü də söhbət son dərəcə uğursuz cəhddən gedir.

Bəli, Makron avantürizmi səbəbindən Fransa problemlər məngənəsindədir. Bu mənada ölkəni cənginə almış etiraz nümayişlərindən tutmuş, günümüzün "Paris-2024" Yay Olimpiya Oyunları müstəvisindəki korrupsiya qalmaqallarınadək, bir çox məqamları vurğulamaq mümkündür. Arada Makrona dəyən qəfil vətəndaş şapalaqları isə ölkənin idarəçilik dramatizminə xüsusi rəng qatır, –desək yanılmarıq. Məsələyə, şapalaq prizmasından yanaşsaq, əslində, Fransa Prezidentinə onlardan daha biri dəyməlidir.

Fransa hökuməti silahlı etirazlar və ya zorakı hərəkətlərə səbəb olduğu üçün, ətraf mühitlə bağlı fəal mövqeyi ilə seçilən "Les Soulevements de la Terre" (SLT) qrupunun bağlanması barədə qərar çıxarıb. Əlbəttə, göstərilənlər bəhanədir. Çünki sözügedən qrup adından da göründüyü kimi, ətraf mühit və ekologiya ilə bağlıdır. Onun çıxışlarında və bəyanatlarında səslənən tələb də bu müstəvidədir. İkincisi, hər hərəkətdə bir məntiq olmalıdır. Silahlı etiraz etmək istəyən təşkilat nə üçün ekologiya, ətraf mühitlə əlaqədar fəaliyyət göstərdiyini bəyan etsin ki? Ümumiyyətlə, nəyə görə özünü aşkara çıxarsın? Əgər elə niyyəti varsa, gizli fəaliyyət göstərməyi daha məntiqi olmazmı?

Buradan da görünür ki, hökumətin arqumentləri saxtadır. Ancaq SLT-nin mövcudluğuna əsas, daha doğrusu, sosial sifariş var. Çünki Fransanın Avropanın ən çirkli bölgələrindən olduğunu sübuta yetirməyə ehtiyac yoxdur. Necə deyərlər, görünən dağa nə bələdçi? Ölkənin paytaxtı Paris "köhnə qitə"nin müxtəlif eko-reytinqlərində ən axırıncı yerlərdən birini tutur.

Təsəvvür edin ki, özünü demokratiyanın beşiyi sayan Fransada ətraf mühitə qarşı anti-demokratik ab-hava hökm sürür və yerli hökumət bununla bağlı heç bir tədbir görmür. Əksinə, mövcud istiqamətdə çağırış edənləri isə az qala ekstremist qiyafəsində göstərərək, fəaliyyətlərinə qadağa qoyur. Həqiqətən də tragikomik səhnədir. Eyni zamanda, ortada Fransa dövləti və dövlətçiliyi üçün utanc gətirən mənzərə var.

Qeyd edək ki, Fransa hakimiyyətinin SLT-yə qarşı qərarı solçu müxalifət və qeyri-hökumət təşkilatları tərəfindən kəskin tənqid olunmaqdadır. Onlar ölkənin daxili işlər naziri Gerald Darmanın sözügedən təşkilatın son aylardakı fəaliyyətini eko-terrorizmə bağlamaq cəhdini hiddətlə qarşılamaqdadırlar. Bu mənada nazirin SLT-nin bəzi fəallarının, guya, polisə qarşı həddindən artıq zorakılıq nümayiş etdirdiyini vurğulamasına da inanan yoxdur. Bir sözlə, ortada dövlət idarəçiliyi baxımından anarxik durum hökm sürməkdədir. Vəziyyət bolşevizmin lideri Leninin söylədiyi kimidir: Fransada aşağılar əvvəlki kimi yaşamaq istəmirlər, yuxarılar isə görünür, əvvəlki kimi idarə etmək niyyətindən uzaqdırlar. Yəni, ikincilərin demokratik davranmamağa meyilli olmaları, insan hüquq və azadlıqlarını heçə saymaları, birinciləri kütləvi etirazlara sövq edir.

Bəli, başqa ölkələrin işinə qarışmaq, ona demokratiya dərsi keçmək üçün dərindən-qabıqdan çıxan, əslində isə özünün neoimperializm niyyətlərini gerçəkləşdirmək yolu tutan Fransanın daxilindəki ictimai-siyasi, sosial-mədəni və iqtisadi mühit onu deməyə əsas verir ki, ölkə deqredasiya dövrünü yaşamaqdadır. Bunun başlıca səbəbkarı isə heç şübhəsiz, Prezident Makrondur.

Makron administrasiyasının ölkə vətəndaşlarına qarşı anti-bəşəri mahiyyət daşıyan hərəkətləri faktlarla sübut olunmaqdadır. İndi də eko-müstəvidəki fəallara qarşı repressiv davranış var. Belə olan halda rəsmi Parisin insan hüquq və azadlıqlarından danışması, yumşaq desək, gülüş doğurmaqdadır. İnsan hüquqlarından söz düşmüşkən, Fransada mövcud istiqamətdəki pozuntuların kütləviliyin artması, polis zorakılığının, az qala, adi hala, normaya çevrilməsi, bütövlükdə, qitə üçün son dərəcə pis bir presedent yaratmaqdadır.

Hesab etsək ki, demokratiya insan şüur və düşüncəsinin, eyni zamanda, yaradıcılıq əzminin nümunəsidir, bu zaman, əminliklə demək olar ki, hazırda Makronun sayəsində Fransa demokratiyası qıcqırma mərhələsindədir. Belə gərünür, o, hakimiyyətdən getməsə, bu qıcqırmadan heç ölkə məişəti üçün vacib məhsul sayılan şərab da hazırlamaq mümkün olmayacaq. Yəni, əsrlərlə və illərlə toplanmış təcrübə bir avantüristin badına gedəcək.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# ABŞ-ın Müstəqillik Günü qeyd edilib



**İyunun 23-də ABŞ-ın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin elan olunmasının 247-ci ildönümü ilə əlaqədar Bakıda tədbir təşkil edib.**

Tədbirdə əvvəlcə Azərbaycan Musiqi Akademiyasının xorunun ifasında Azərbaycanın və ABŞ-ın Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Hüqo Qevara bildirib ki, ABŞ-ın Azərbaycanla 30 ildə əməkdaşlıq əlaqələri genişlənib, şaxələnib. O, ABŞ-Azərbaycan münasibətlərindən söz açaraq, bu əməkdaşlığın indi də müxtəlif istiqamətlərdə davam etdiyini vurğulayıb.

Sonra çıxış edən Azərbaycanın maliyyə naziri Samir Şərifov ötən il Azərbaycan və ABŞ arasında diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd edildiyini bildirib. "İnanırıq ki, ABŞ Cənubi Qafqaz regionunda uzunmüddətli sülh və təhlükəsizliyin bərqərar edilməsini, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yenidən qurularaq ölkə iqtisadiyyatına reinteqrasiyasını və tarixi torpaqlarımıza Böyük Qayıdışın təmin olunmasına yönəlmiş Azərbaycan dövlətinin səylərini bölüşür və bu səyləri dəstəkləyəcək", - deyə əlavə edib.

# Ceyhun Bayramov koreyalı diplomatla görüşüb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Koreya Respublikasının xarici işlər nazirinin xüsusi nümayəndəsi Beyk Cuhyon arasında görüş keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, nazir Ceyhun Bayramov Azərbaycan və Koreya arasında mövcud olan ikitərəfli münasibətlərin uğurlu inkişafını, həmçinin iki ölkə arasında bir çox sahələrdə geniş əməkdaşlıq imkanlarının mövcud olduğunu qeyd edib. Ölkələrimiz arasında, iqtisadiyyat, yüksək texnologiyalar, enerji, təhsil, turizm və bir sıra digər istiqamətlərdə əməkdaşlıqdan məmnunluq ifadə olunub. Nazir ölkələrimiz arasında təhsil sahəsində artan əməkdaşlığın, Koreya təhsil standartları əsasında yaradılmış Sənaye və İnnovasiyalar Bakı Dövlət Peşə Təhsil Mərkəzinin fəaliyyətinin, universitetlərarası ikili diplom təhsil proqramlarının Koreya-Azərbaycan əməkdaşlığının vacib istiqamətlərindən olduğunu bildirib.

Koreya xüsusi nümayəndəsi öz növbəsində iki ölkə arasında əlaqələrin uğurlu inkişafını vurğulayaraq, Koreyanın Azərbaycanla investisiya, təhsil, gəmiçilik, ərazilərin minalardan təmizlənməsi, nəqliyyat, kommunikasiya, su ehtiyatlarının idarə edilməsi və digər sahələrdə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivlərinə toxunub. Koreya şirkətlərinin Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırıb.

***"Xalq qəzeti"***

# Hərbi prokuror işğaldan azad olunmuş ərazilərdə



**Baş prokurorun müavini- Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev, general-leytenant Mais Bərxudarov, eləcə digər rəhbər vəzifəli şəxslər Silahlı Qüvvələr Günü ərəfəsində hərbi hissələrdə olublar.**

Xanlar Vəliyev 2023-cü ilin "Heydər Əliyev İli" olduğunu vurğulayaraq, onun dünya tarixindəki rolundan, eləcə də Azərbaycan xalqı və dövləti qarşısındakı müstəsna xidmətlərindən bəhs edib.

Sonra hüquqi maarifləndirici mövzularda çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, onların qayğı və problemləri, məişət şəraitləri ilə maraqlanılıb, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

# Komissiya üzvləri Gədəbəydə



**Xəbər verdiyimiz kimi, Gədəbəy rayonunun Söyüdlü kəndində ətraf mühitin araşdırılması üçün yaradılan Komissiyanın üzvləri Gədəbəy rayonuna gedib.**

Komissiya üzvlərinin iştirakı ilə Gədəbəy Rayon İcra Hakimiyyətində iclas keçirilib.

İclasda Komissiya üzvləri ilə yanaşı, rayon rəsmiləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri də iştirak edib.

Komissiya üzvləri Söyüdlü kəndindəki vəziyyəti müzakirə ediblər. Sonra onlar süni gölün tikintisi aparılan ərazidə olub, zavodun ərazisindəki tullantıxanaya - gölə baxış keçiriblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ərazidə monitorinq aparan qrupunun üzvləri komissiyanın sədri Muxtar Babayev məlumat verib ki, gölün altı membranla örtülüdür, bu isə zərərli maddələrin torpağa təmas etməsinə imkan vermir. Gölə tökülən sianid isə peroksid ilə zərərsizləşdirilir.

Qeyd olunub ki, nümunələr gölə tökülən sudan texniki su kimi istehsalatda yenidən istifadə etməyin mümkün olduğunu göstərir.

Komissiya üzvləri, həmçinin, ərazidə olan ehtiyat gölə də baxış keçiriblər.

Sonra komissiya üzvlərinin Söyüdlü kəndinin sakinləri ilə görüş keçirib-lər.

Qeyd edək ki, iyunun 21-də Baş nazir Əli Əsədovun Sərəncamı ilə Gədəbəy rayonunun Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə Komissiya yaradılıb.

Komissiyaya ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev rəhbərlik edir. Komissiyaya səhiyyə nazirinin, fövqəladə hallar nazirinin, kənd təsərrüfatı nazirinin müavinləri, Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin müdiri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi və Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı daxildir.

# Fransadakı səfirliyimizin binasına hücum etmiş erməni cəzalandırıldı

**Dünən Paris məhkəməsində, Azərbaycan Respublikasının Fransadakı səfirliyi önündə ötən il keçirilmiş icazəsiz aksiya zamanı səfirliyin binasına hücum etmiş, Fransada fəaliyyət göstərən "Charjoum" adlı erməni hərəkatının üzvü Loris Tufanyana hökm çıxarılıb.**

Paris məhkəməsinin dünən verdiyi qərarla sözügedən hücumun əsas iştirakçısı olan "Charjoum" erməni hərəkatının üzvü Loris Tufanyana 6 aylıq şərti cəza müəyyən edilib və cərimə tətbiq olunub. Xatırladaq ki, 2022-ci il sentyabrın 18-də radikal erməni nümayəndələri tərəfindən Parisdə Azərbaycan səfirliyinə qarşı hücum cəhdi olmuş və nəticədə səfirliyin binasına zərər yetirilmişdir. Baş vermiş hücum aktı ilə əlaqədar dəlillər yerli məhkəməyə təqdim edilmiş və hücumun əsas təşkilatçısı və iştirakçılarının cəzalandırılması tələb edilmişdir. Məhkəmədə Azərbaycan Respublikasının səfirliyini "Lexlor" hüquq şirkəti təmsil edib.

## Ölkəmizdə ilk dəfə

# “İnsan resursları” zirvəsində “Gələcəyə qayıdış”

**Bugünlərdə Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə “Gülüstan” sarayında ölkəmizdə ilk dəfə olaraq təşkil edilən “İnsan resursları” zirvəsində müzakirə olunan məsələlər cəmiyyətin diqqətini çəkdi. “Gələcəyə qayıdış” devizi ilə keçirilən və insan resursları sahəsi üzrə mütəxəssislərin bir araya gəldiyi tədbirin məqsədi insan kapitalına əsaslanan gələcəyə hazırlıqlı cəmiyyətin formalaşmasına zəmin yaratmaq, bu istiqamətdə peşəkarlarla müzakirələr aparmaqdır.**



Qeyd edək ki, tədbirdə Elm və təhsil naziri Emin Əmrullayev, Gənclər və idman naziri Fərid Qayıbov, İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Türkiyə Respublikası Prezidenti Administrasiyası İnsan Resursları Ofisinin rəhbəri Salim Atay, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev, SOCAR-ın prezidenti Rövşən Nəcəf, KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov, “Paşa Holdinq”in baş icraçı direktoru Cəlal Qasımov, deputatlar, beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndələri, xarici ekspertlər, insan resursları üzrə mütəxəssislər və digər nümayəndələr iştirak ediblər.



Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, ölkəmizdə aparılan sosial islahatlar, sosial ödənişlərdəki ciddi artımlar Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin çıxışında diqqətə çatdırılıb. Nazir qeyd edib ki, ölkəmizdə son 5 ildə 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunub. Bu dövrdə minimum əməkhaqqında 2,7 dəfə artım olub, cəmi 4 il ərzində median əməkhaqqı 2,1 dəfə artıb. Həmçinin orta aylıq əməkhaqqında 70 faiz, əməkhaqqı fondunda 2,5 dəfə artım olduğu, digər ödənişlərdəki ciddi artımlar, qeyd olunan sosial islahatlar üçün illik 7 milyard manata yaxın vəsait ayrıldığı diqqətə çatdırılıb. Qeyd olunub ki, əmək, məşğulluq, sosial müdafiə üzrə 153 xidmətdən 140-ı və ya 91 faizi tam elektronlaşdırılıb, DOST mərkəzləri tərəfindən 1,6 milyon vətəndaşa xidmət göstərilib və bu xidmətlərdən vətəndaş məmnunluğu 98 faiz müəyyən edilib.

Son beş ildə ölkəmizdə 1 milyon vətəndaşa məşğulluq xidmətləri göstərilib, 400 min nəfər işsiz şəxs münasib işlərlə təmin edilib, 62 min nəfər özünüməşğulluq proqramına cəlb olunaraq onlar üçün kiçik ailə təsərrüfatları yaradılıb, 450 mindən çox gəncə peşəyönümü və peşə hazırlığı istiqamətində dəstək verilib. Postmüharibə dövründə şəhid ailəsi üzvləri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və müharibə iştirakçılarından ibarət 18 min şəxsin məşğulluğu təmin edilib.

Əhalinin sabit artımı aktiv məşğulluq proqramlarının da daim genişləndirilməsini əsas çağırışlardan bir kimi şərtləndirir. Məşğulluğun iqtisadi inkişafda və sosial rifahda mühüm rolu, eyni zamanda, iqtisadiyyatla təhsil sistemi arasında bir körpü olduğu vurğulanıb. Qeyd edilib ki, iqtisadiyyatın tələblərinə uyğun insan resurslarının yetişdirilməsi, insan resursları ilə əmək bazarı arasında vəhdətin qurulması, yeni iş yerləri yaradılmasında önəmli rola malik kiçik və orta sahibkarlığın genişləndirilməsi, qeyri-formal məşğulluğun qarşısının alınması, ixtisaslı işçi qüvvəsinin artırılması, aktual peşələr üzrə ixtisaslı kadr hazırlığı sisteminin inkişaf etdirilməsi, özəl sektorun bu sahədə işlərə daha aktiv cəlb olunması, təhsil məşğulluq və iqtisadiyyat arasında körpünün daha təkmil şəkildə qurulması da əsas çağırış və hədəflərdəndir.

İşğaldan azad edilmiş ərazilərimizə qayıdan sakinlərin məşğulluğu, layiqli əmək şəraitinin təminatı, peşə bacarıqlarının inkişaf etdirilməsi, onlara aktual peşələr üzrə bacarıqlar aşılanması da əsas vəzifələrdən biridir. Hazırda işğaldan azad edilən bölgələrdə həyat öz axarına düşür. Həmin ərazilərimizdə məskunlaşıb işləyənlər üçün stimullaşdırıcı tədbirlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərimizdə işləyən mütəxəssislərin vəzifə maaşlarına minimum 20 faiz həcmində əlavələr hesablanır. Xatırladaq ki, dövlət başçısının ötən ilin dekabr ayında imzaladığı qanunvericilik aktları ilə Əmək Məcəlləsinə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssis” anlayışı əlavə olunub. Bu anlayışa peşə, orta ixtisas və ali təhsil müəssisəsini bitirmiş və son 5 il ərzində azı 2 il əmək stajı olan və ölkəmizin işğaldan azad edilmiş ərazilərində əmək müqaviləsi əsasında işləyənlər aiddir. Stimullaşdırıcı tədbir kimi, həmin mütəxəssislərə birdəfəlik müavinət ödənilir, aylıq vəzifə maaşlarına əlavələr hesablanır və hər il 5 gün əlavə məzuniyyət verilir.

Qeyd edək ki, doğma yurda köçən sakinlərin məşğulluq məsələləri də həll edilib. Müvafiq dövlət qurumları, bu prosesi həyata keçiriblər. Sakinlər dövlət orqanlarında, xidmət sahələrində, iaşə obyektlərində, kənd təsərrüfatı sahələrində, tekstil fabriklərində işlə təmin olunublar. Zəngilanın Ağalı kəndində 419 nəfərdən ibarət 86 ailə yaşayır. Kənddə bütün infrastruktur obyektləri hazırdır. Məktəb, bağça, poçt, tibb xidmətləri, eyni zamanda, ictimai nəqliyyat da istifadəyə verilib.

Laçın sakinləri də doğma yurd-yuvalarına dönüşü şadyanalıqla qeyd ediblər. Məcburi köçkünlükdən xilas olan 97 nəfərdən ibarət 20 ailə dövlətin onlara verdiyi hər cür şəraiti olan və zəruri avadanlıqla təchiz edilən evlərdə yaşayır, Vətən həsrətini unutmağa çalışırlar. İnfrastrukturu yenidən qurulan Laçında ailələrin hər bir üzvü yaşlarına uyğun münasib işlə, məktəb, bağça ilə təmin olunub.

Belə köç karvanlarını işğaldan azad edilən digər rayonlarımızda da tezliklə görəcəyimizə əminik. Bu əminliyi bizdə cənab Prezident İlham Əliyevin rəhbərliyi və tapşırığı ilə həmin bölgələrdə gecə-gündüz aparılan tikinti, quruculuq və abadlıq işləri yaradır.

Sosial sahədə görülən işlərdən, həyata keçirilən dəstək tədbirlərindən danışanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Dəstək Mərkəzi tərəfindən “İnsan hüquqları aylığı” çərçivəsində “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sığınacağında keçirilən maarifləndirici təlimləri də qeyd etməliyik. Nazirlik əməkdaşları ilə bərabər psixoloq və hüquqşünasların da iştirak etdiyi və davamlı olaraq keçirilən tədbirlərdə sığınacaqda yaşayan, məişət zorakılığından zərər çəkmiş və digər həssas qruplardan olan şəxslərə insan hüquqları barədə məlumat verilir, “sığınacaq sakinləri”ni maraqlandıran suallar cavablandırılır.

Bugünlərdə ümummilli lider Heydər Əliyevin tapşırığı əsasında yaradılan Şağan reabilitasiya pansionatının 20 yaşı qeyd edilib. Tədbirdə hökumət və qeyri-hökumət qurumlarının nümayəndələri, deputatlar, şəhid ailələrinin üzvləri, müharibə veteranları və əlilliyi olan şəxslər iştirak ediblər. İştirakçılar öncə reabilitasiya mərkəzlərində müalicə kursu keçən, habelə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları olan əlil şəxslərin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyasının müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin sosial inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğu vurğulanıb. Qeyd olunub ki, 2003-cü ilin may ayında istifadəyə verilən, ölkəmizdə ən böyük reabilitasiya müəssisəsi olan Şağan reabilitasiya pansionatı da ulu öndərin tapşırığı ilə yaradılıb və onun əlilliyi olan şəxslərin reabilitasiyasına xüsusi qayğısının bir təzahürüdür.

Əlillərə göstərilən bu qayğı və diqqət Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Dövlət başçısının tapşırığına əsasən son beş ildə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Həmçinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzi açılıb, yaxın aylarda Şəmkir Uşaq Reabilitasiya Mərkəzi də istifadəyə veriləcək. Cənab Prezidentin iştirakı ilə 2021-ci il fevralın 25-də isə Şağan reabilitasiya pansionatının əsaslı təmir və yenidənqurmadan sonra açılışı olub. 250 çarpayılıq pansionatda son bir ildə 7200-dən çox əlilliyi olan şəxsə reabilitasiya xidmətləri göstərilib.

***Zərifə BƏŞİRQIZI,***
**“Xalq qəzeti”**

# Əhalinin rifahı daha da yaxşılaşacaq

**Hazırda 3 milyondan artıq vətəndaşımız dövlətin sosial təşəbbüslərinin icrasından yüksək dərəcədə faydalanır. Ölkəmizdə həyata keçirilən sosial siyasət, həqiqətən də, inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, dövlət başçımızın öz vətəndaşına olan diqqət və qayğısının əyani nümunəsidir. Aztəminatlı ailələrə dövlət qayğısı ildən-ilə artırılır. Eyni zamanda, insanların sağlamlığının qorunması istiqamətində də zəruri addımlar atılır. Bu istiqamətdə aparılan islahatlar əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsində mühüm rol oynayır.**



Ölkəmizin malik olduğu iqtisadi potensialın daha da gücləndirilməsi və səmərəli reallaşdırılması nəticəsində əməkhaqları və pensiyalar, sosial müavinətlər, təqaüdlər mütəmadi artırılır. Yeni iş yerləri açılır, şəhid ailələrinin, əlillərin və müharibə veteranlarının həyat tərzinin yaxşılaşdırılması istiqamətində əsaslı tədbirlər həyata keçirilir. Bu gün ölkəmizdə uğurla həyata keçirilən modern sosial siyasətin malik olduğu konrkret parametrlərdən biri yoxsulluğun azaldılmasıdır. Son illər qəbul edilən dövlət proqramları, imzalanan sərəncam və fərmanlar ölkəmizdə yoxsulluğun səviyyəsini 5 faizə endirmişdir.

Hər il təsdiqlənən dövlət büdcəsində sosialyönümlü xərclərin artırılması diqqətdən yayınmır. Faktlar da təsdiqləyir ki, 2022-ci ildə sosialyönümlü xərclər 2021-ci illə müqayisədə 12,4 faiz çox olub. Ötən ilin dövlət büdcəsinin 36,1 faizini sosialyönümlü xərclər təşkil edib. Son 5 ildə isə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,6 dəfə artıb. İqtisadi təsnifata uyğun olaraq, bu ilin ilk üç ayında isə dövlət büdcəsi xərclərinin 41,8 faizi sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəlib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 19,5 faiz və ya 343,2 milyon manat çoxdur.

Prezident İlham Əliyevin aztəminatlı vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə ölkəmizdə ünvanlı dövlət sosial yardımı sistemi tətbiq olunur. Son illər ünvanlı dövlət sosial yardımı mexanizminin təkmilləşdirilməsi məqsədi ilə müvafiq qanunvericiliyə bir neçə dəfə əlavə və dəyişikliklər edilmiş, nəticədə ünvanlı yardımın əhatə dairəsi genişləndirilməklə, yoxsul ailələrin bu yardım növündən yararlanmaq imkanları daha da artırılmış, bu sahədə sənədləşdirmə qaydaları sadələşdirilmişdir.



Bugünlərdə Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daha bir inqilabi addım atdı. Belə ki, Prezidentin imzası ilə Milli Məclisə daxil olmuş və bir neçə gün əvvəl qəbul olunmuş “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” Qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsi əhalinin həyat tərzinin daha da yaxşılaşdırılacağından xəbər verir. Bu, eyni zamanda, dövlətin öz vətəndaşlarına verdiyi dəyəri ifadə etməklə yanaşı, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlərin davamlı xarakter daşıdığını göstərir.

**Bu barədə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qəzetimizə açıqlama verib:**

– Postmüharibə və postpandemiya dövründə dövlət büdcəsinin profisit ilə bağlı dürüstləşdirilməsinə baxılması faktının özü ölkəmizin iqtisadi gücünün göstəricisi, möhtərəm Prezidentimizin rəhbərliyi altında sosial-iqtisadi, maliyyə-büdcə siyasəti sahəsində aparılan davamlı və ardıcıl islahatların uğurlu nəticəsidir. Dürüstləşdirilən büdcənin xərclərinin əsas istiqamətlərinin işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsinə, habelə məcburi köçkün soydaşlarımızın doğma yurdlarında yenidən məskunlaşmasına yönəldilməsi də diqqətə layiqdir. Əlavə büdcə xərclərinin digər hissəsini ölkəmizin milli təhlükəsizliyinin qorunmasına, beynəlxalq münasibətlər sahəsinin gücləndirilməsinə, strateji sahələrin infrastruktur layihələrinin həyata keçirilməsinə yönəldilməsi də təqdirəlayiqdir.

Dürüstləşdirilmiş büdcədə DSMF-nin gəlirləri və xərcləri 4 milyon manat artırılaraq 6 milyard 268 milyon manat təşkil edir. Fondun büdcəsinin 4 milyon manat həcmində gəliri əvvəlki illərdə istifadə olunmamış vəsaitdən formalaşacaqdır. DSMF-nin dürüstləşdirilmiş büdcəsinin xərc hissəsində nəzərdə tutulmuş 4 milyon manat uşağın anadan olmasına görə müavinətin məbləğinin 2023-cü ilin yanvar ayının birindən 300 manatdan 500 manata qaldırılması nəzərdə tutulmuşdur.

2023- cü ilin dövlət büdcəsinə dəyişiklik əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsində əhəmiyyətli rol oynayacaq. Bəzi faktları diqqətə çatdırmaq istərdim. İşsizliyə görə sığorta ödənişləri 2,5 milyon manat, haqqı ödənilən ictimai işlərin təşkili 725 min manat, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi xərcləri 1.100 min manat artırılacaq.

**Əliqismət BƏDƏLOV,**
**“Xalq qəzeti”**

## Bölgələrdə rəqəmsal savadlılıq təlimləri

**DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi bölgələrdə əhalinin sosial sahə üzrə elektron xidmətlərə dair savadlılığının artırılması üçün növbəti təlimləri Balakən və Zaqatalada keçirəcək. Təlimlərdə yerli sakinlərə sosial sahə üzrə e-xidmətlərə və onlardan istifadəyə dair praktik məlumatlar verilir.**

Təlimlərin davamı olaraq DSMF-nin Balakən və Zaqatala rayonlarındakı qəbul şöbələrində yardım masaları təşkil olunacaq və e-xidmətlərlə bağlı sualı olan vətəndaşlara rəqəmsal dəstək göstəriləcək.

Bu tədbirlər Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə tədbirlər planının müvafiq bəndinə əsasən təşkil olunur. Məqsəd regionlarda əhalinin rəqəmsallaşma istiqamətində bilik və bacarıqlarının artırılmasıdır.

Qeyd edək ki, aprel ayından başlayaraq Bərdə, Füzuli, Göygöl, Daşkəsən, Goranboy rayonlarında belə təlimlər keçirilib. Təlimlərin ölkənin digər bölgələrində də təşkili nəzərdə tutulub.

## Beynəlxalq Valyuta Fondunun nümayəndə heyəti ilə görüş

**Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Anna Bordonun başçılıq etdiyi nümayəndə heyəti ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində görüş olub.**

Ölkəmizdə əmək bazarı ilə bağlı aparılan islahatlar, habelə əmək haqqı islahatları barədə nümayəndə heyətinə məlumat verən Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev son beş ildə Azərbaycanda əmək müqavilələrinin sayında və sosial ödənişlərdə baş verən artımları diqqətə çatdırıb.



Aktiv məşğulluq proqramlarının genişləndirilməsi istiqamətində atılan addımlar, postmüharibə dövründə həyata keçirilən sosial dəstək tədbirləri, xidmətlərin elektronlaşdırılması, proaktiv xidmətlərin yaradılması sahəsində əldə olunan uğurlu təcrübə qeyd olunub. Həmçinin “Əmək və məşğulluq” altsisteminin üstünlükləri, əmək qanunvericiliyində aparılan təkmilləşdirmə işləri, qeyri-leqal məşğulluğun qarşısının alınması sahəsində görülən tədbirlər diqqətə çatdırılıb.

Görüşdə ölkəmizdə əmək bazarı ilə bağlı aparılan islahatlar da müzakirə edilib.

## Kollec məzunları üçün əmək yarmarkası

**Səhiyyə Nazirliyi 2 nömrəli Bakı Baza Tibb Kollecində müəssisənin 2022 – 2023-cü tədris ilinin məzunları üçün əmək yarmarkası təşkil edib. “Karyerada ilk addım” devizi ilə keçirilən tədbirə kollecin “tibb bacısı işi”, “mamalıq işi”, “müalicə işi” ixtisasları üzrə 405 məzunu cəlb olunub.**



Əsas məqsəd gənclərin işlə təmin olunmasıdır. Qeyd edilib ki, müxtəlif işəgötürən qurumlar vaxtaşırı kollecə müraciət edib, orta ixtisaslı tibbi kadrlara ehtiyacları olduğunu bildirir və məzunlarla əlaqə saxlamaq istəyirlər.

Həmin məzunların işlə təmin olunması məqsədilə kollec onların işəgötürən dövlət orqanları və qurumlarının, o cümlədən Səhiyyə Nazirliyinin və TƏBİB-in tabeliyində olan tibb müəssisələri, digər dövlət və özəl tibb və aptek təşkilatlarının nümayəndələri ilə görüşlərini təşkil edir.

Kollec tərəfindən tədbirdən əvvəl məzunlar üçün CV tərtibi və özünü təqdimetmə üzrə təlim keçirilib. Eyni zamanda, tibb müəssisələrinin və aptek təşkilatlarının nümayəndələri məzunlarla görüşərək vakansiyalar barədə məlumat verib və məzunların suallarını cavablandırıblar.

**Z.BƏŞİRQIZI,**
**“Xalq qəzeti”**

# Azərbaycan Qazaxıstanın etibarlı iqtisadi-ticarət tərəfdaşıdır

***İki ölkə arasında əmtəə dövriyyəsi 4,5 dəfə artaraq 600 milyon dollara çatıb***

**Azərbaycan–Qazaxıstan əməkdaşlığı strateji tərəfdaşlıq münasibətləri əsasında davam edir. Belə bir vəziyyət Xəzər hövzəsi regionu, Orta Asiya–Cənubi Qafqaz və Türk Dövlətləri Təşkilatı coğrafiyasında əhəmiyyətli dəyişikliklərə müsbət təsir göstərir. Bakı–Astana arasında mövcud səmimi əlaqələr, eyni zamanda, Orta Dəhliz layihəsinin inkişafını da sürətləndirir. Bununla yanaşı, hər iki ölkənin zəngin enerji daşıyıcıları potensialına malik olması da strateji tərəfdaşlıq münasibətlərini getdikcə möhkəmləndirir.**



Prezident İlham Əliyev iyunun 22-də Qazaxıstanın Baş naziri Alixan Smailovu qəbul edərkən bu barədə ətraflı söhbət açıb. Azərbaycanla Qazaxıstan arasında münasibətlərin strateji xarakter daşıdığını deyən dövlətimizin başçısı əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, ikitərəfli münasibətlərin gündəliyinin geniş olduğunu diqqətə çatdırıb.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ötən il Azərbaycana, özünün isə bu il Qazaxıstana səfəri zamanı əldə edilən razılıqların uğurla həyata keçirildiyini, eyni zamanda, həmin razılıqların icrasının daim diqqətdə saxlanıldığını bildirən dövlətimizin başçısı bunu ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirib.

Prezident İlham Əliyev çıxışında ölkələrimiz arasında əlaqələrin regional əməkdaşlıq, o cümlədən Xəzər hövzəsində və daha geniş coğrafiyada səmərəli əməkdaşlıq üçün böyük önəm daşıdığını bildirib. Ölkə rəhbəri bu əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu söyləyib, bütün bunların ticarət dövriyyəsinin həcminin artırılması, əlavə biznes imkanlarının yaradılması, energetika, nəqliyyat və digər sahələrdə genişmiqyaslı layihələrin həyata keçirilməsi işinə xidmət etdiyini diqqətə çatdırıb. Ölkəmizin rəhbəri qardaş dövlətin baş nazirinin səfərinin dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini vurğulayıb.

Qazaxıstanın Baş naziri isə nitqində ölkəmizin Qazaxıstan üçün Cənubi Qafqazda ən mühüm iqtisadi-ticarət tərəfdaşı olduğunu bildirib və ötən ilin nəticələrinə görə qarşılıqlı ticarətin həcminin 460 milyon dolları keçərək 40 faiz artdığını, cari ildə isə bu dinamikanın davam etdirildiyini məmnunluqla xatırladıb və potensialın daha da artırılması üçün böyük imkanların olduğunu bildirib.

Görüşdə iki ölkə arasında əməkdaşlığın inkişafına müsbət təsir göstərən bir sıra məsələlərə də toxunulub. Məsələn, dost Qazaxıstan tərəfindən işğaldan azad edilən Füzuli şəhərində uşaqlar üçün Yaradıcılığın İnkişafı Mərkəzinin inşası yüksək qiymətləndirilib, hökumətlərarası komissiyanın fəaliyyətinə xüsusi önəm verilib, həmçinin ölkələrimiz arasında neft, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, gəmiqayırma, humanitar və digər sahələrdə əməkdaşlığın müsbət nəticələrlə müşahidə olunduğu diqqətə çatdırılıb.

Yuxarıda qeyd edilənlərlə bərabər, son dövrlərdə Xəzər dənizindən Orta Dəhliz vasitəsilə Azərbaycan və Qazaxıstan, həmçinin üçüncü tərəflərin bu marşrut istiqamətində yüklərinin həcminin çoxalması məmnunluqla vurğulanıb, bu istiqamətdə ölkələrimizin birgə səylərinin artırılmasının zəruriliyi qeyd edilib.

Bütün bunlar iki ölkə arasında münasibətlərin zamanın sınağından uğurla çıxdığından, yuxarıda adları çəkilən sahələrdə uğurlu əməkdaşlıq münasibətlərinin qurulduğundan xəbər verir. Dövlətimizin başçısı məhz buna görə də gələcəkdə əməkdaşlığın inkişaf perspektivlərinin çox müsbət olacağına, bundan sonra da ikitərəfli formatda müştərək layihələrin həyata keçiriləcəyinə əminliyini ifadə edib.

İki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığa da xüsusi önəm verilir. Bu, təsadüfi deyil. Belə ki, Azərbaycan və Qazaxıstan Çindən Avropaya qədər uzanan beynəlxalq nəqliyyat dəhlizinin üzərində yerləşir. Hər iki ölkənin marağı bu tranzit xəttin imkanlarından səmərəli şəkildə faydalanmaqdır. Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu xətti, Yeni Bakı Beynəlxalq Dəniz Limanı, Qazaxıstanın qərb və şərq sərhədlərini birləşdirən dəmir yolu xətləri və Kurık dəniz limanı ölkələrimizin tranzit potensialının daha da artırılmasına müsbət təsir göstərir. Artıq Çin-Avropa istiqamətində region üzərindən yükdaşımalarının artması bunun bariz ifadəsidir.

Azərbaycan və Qazaxıstan ərazisindən keçən Transxəzər beynəlxalq nəqliyyat marşrutunun rəqabət qabiliyyətinin artırılması və bu marşruta beynəlxalq yükdaşımaların cəlb edilməsi üçün işlər uğurla davam etdirilir. Cari ildən Aktau–Bakı istiqamətində fider gəmisinin (konteyner daşıyan gəmi) reysə buraxılması isə qeyd edilən fikrin parlaq təsdiqidir. Eləcə də Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə yüklərin daşınmasına Qazaxıstan tərəfindən böyük maraq göstərilməsi də diqqətçəkən məqamdır.

İki dost ölkə arasında əməkdaşlığın inkişafına mühüm təsir göstərəcək bir məsələni də diqqətə çatdırmaq istərdik. Belə ki, Qazaxıstanın Baş naziri Alixan Smailovun respublikamıza səfəri çərçivəsində Qazaxıstan neftinin Azərbaycan ərazisindən tranzitinə dair strateji əməkdaşlıq haqqında Memorandum imzalanıb. İmzalanma mərasimində dost ölkələr arasında neft–qaz sahəsində əməkdaşlığın müsbət inkişafı vurğulanaraq, cari ilin əvvəlində Qazaxıstan neftinin Azərbaycan ərazisindən üçüncü ölkələrin bazarlarına tranzitinin başladığı məmnuniyyətlə diqqətə çatdırılıb.

Xatırladaq ki, bundan əvvəl "KazMunayQaz" Səhmdar Cəmiyyəti və SOCAR şirkəti tərəfindən Tengiz yatağından Bakı–Tbilisi–Ceyhan ilə ildə 1,5 milyon ton neftin nəqlini nəzərdə tutan saziş imzalanmışdı.

Yeri gəlmişkən, iki ölkə arasında iqtisadi-ticari əlaqələrdə də müsbət dinamika nəzərə çarpır. Gömrük Komitəsinin məlumatına görə, 2022-ci ildə Azərbaycan ilə Qazaxıstan arasında ticarət dövriyyəsi 2021-ci illə müqayisədə 4,4 dəfə artaraq 598 milyon 468 min dollara çatıb. Ötən il Azərbaycandan dost ölkəyə 104 milyon dollar həcmində məhsul ixrac olunub. Qazaxıstandan ölkəmizə isə 494,4 milyon dollar həcmində məhsul idxal edilib.

Onu da qeyd edək ki, respublikamızda Qazaxıstan investisiyalı 182 kommersiya qurumu qeydiyyatdadır. Bu ölkədən Azərbaycana 102,2 milyon dollar, Azərbaycandan Qazaxıstana isə 205,2 milyon dollar investisiya qoyulub.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

### *Ekspert rəyi*



**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**

Azərbaycan–Qazaxıstan əməkdaşlığının strateji tərəfdaşlıq münasibətlərinin inkişafında ölkələrimiz arasında geniş hüquq-müqavilə bazasının formalaşması əsas rol oynayıb. İndiyədək iki dost ölkə arasında 140-a yaxın sənəd imzalanıb. Bu sənədlər arasında "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə", "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə", "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" xüsusi vurğulanmalıdır.

Regionda yaranmış yeni reallıqlar çərçivəsində nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində aparılan işlər və postmünaqişə dövrünün reallığı olan Zəngəzur dəhlizi də Mərkəzi Asiya regionu, o cümlədən Qazaxıstan üçün də yeni imkanlar yaradır. Ölkələrimizin maraqları bu məsələdə də üst-üstə düşür.

İki ölkənin beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizinə çevrilməsinə xidmət edən "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsinin əsas hissəsi olan Xəzəraltı fiber-optik kabel magistralının inşası istiqamətində görülmüş işlər də xüsusi önəm daşıyır. Bununla bağlı vurğulamaq yerinə düşər ki, ötən il sentyabrın 28-də "AzərTelecom" və "Kazakhtelecom" telekommunikasiya şirkətləri arasında Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsi üzrə strateji tərəfdaşlıq haqqında memorandum imzalanıb.

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyətə başlamasından 22 il ötür. Ötən dövrdə fondun normativ-hüquqi bazasının, vəsaitinin formalaşma mənbələrinin və istifadə qaydalarının təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanları ilə Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən əsas qanunvericilik aktlarında edilmiş dəyişikliklərə əsasən fondun formalaşması mənbələrinin təsnifatı genişləndirilib, fondun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi qaydaları, büdcəsinin tərtibi mexanizmi təkmilləşdirilib.**




# Ölkəmizin "qara qızıl" xəzinəsi

2023-cü il iyunun 22-də Prezident İlham Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin icrası haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) 2022-ci il büdcəsinin gəlirləri 16 milyard 866 milyon 540,3 min manat, xərcləri isə 7 milyard 988 milyon 335,2 min manat səviyyəsində təsdiq edilib.

Fondun gəlirləri aşağıdakı mənbələr hesabına formalaşıb. Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət, marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla 19 milyard 698 milyon 890,7 min manat təşkil edib. Gəlirlərin 5 milyon 578,3 min manatı karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişlərinin, 4 milyon 212,8 min manatı neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsinin, 3 milyard 613 milyon 844,6 min manatı Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsi və idarə olunmasının (zərər), 768 milyon 703,1 min manatı isə neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonusların payına düşüb. Bütövlükdə isə, fondun 2022-ci il büdcəsinin gəlirlər hissəsi 106,8 faiz icra olunub.

Hesabat ilində Dövlət Neft Fondundan Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinə 7 milyard 923 milyon manat transfert olunub. Ötən il fonddan Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsinə 15 milyon 236,3 min manat, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2019– 2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə 22 milyon 203,3 min manat, eləcə də Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclərə 27 milyon 895,6 min manat vəsait ayrılıb. Beləliklə, 2022-ci ildə fondun xərclər hissəsi 68,9 faiz yerinə yetirilib.

Dövlət başçısı, həmçinin 2023-cü il iyunun 22-də "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1942 nömrəli fərmanında dəyişiklik edilməsi barədə" fərman imzalayıb. Sənədə əsasən, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin gəlirləri 8 milyard 990 milyon 947,2 min manatdan 16 milyard 337 milyon 500 min manata, xərcləri isə 11 milyard 392 milyon 336,5 min manatdan 11 milyard 850 milyon 36,5 min manata qaldırılıb.

Fərmana uyğun olaraq 2023-cü ildə Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər üzrə gəlir maddəsi 6 milyard 571 milyon 387,3 min manatdan 11 milyard 765 milyon 793,3 min manata, ARDNF-nin valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər ilə bağlı gəlir maddəsi 1 milyard 590 milyon 905,4 min manatdan 3 milyard 752 milyon 26,1 manata qədər artırılıb. Hesabat ili üçün neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər ilə bağlı gəlir maddəsi 23 milyon 590 min manatdan 15 milyon 323,3 min manata, karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı ödənişlər ilə bağlı gəlir maddəsi 4 milyon 307,8 min manatdan 3 milyon 600,6 min manata qədər azaldılıb.

Fərmana əsasən ARDNF-nin 2023-cü il üzrə büdcəsinin xərc istiqamətlərində Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinə transfertin yuxarı həddi üzrə xərc maddəsi 11 milyard 280 milyon manatdan 11 milyard 737 milyon 700 min manata qədər artırılıb.

Yeri gəlmişkən, Dövlət Neft Fondunun Azərbaycan iqtisadiyyatında ən böyük rolu onun dövlət büdcəsinə transfertindən başlayır. Bu isə 2003-cü ilə təsadüf edir. Bu il həmin əlamətdar hadisənin 20 il tamam olur. Ötən müddətdə Azərbaycan xarici şirkətlərlə əməkdaşlıq çərçivəsində əldə etdiyi neft gəlirlərini dövlət büdcəsi xətti ilə ölkə iqtisadiyyatına, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2003-cü ildən etibarən Dövlət Neft Fondunda olan kapitalın təqribən 138 milyard manatdan artıq hissəsi məhz dövlət büdcəsinə transfert edilib. Bu da ümumi xərcləmənin faktiki olaraq 95 faizi deməkdir. Büdcəyə transfert olunan vəsaitlər isə öz növbəsində Azərbaycanın istər infrastruktur, istər elm və təhsil, istərsə də sosial və iqtisadi cəhətdən inkişaf etməsində mühüm rol oynayıb.

Bununla yanaşı, Azərbaycan Respublikası Dövlət Neft Fondu dövlət proqramlarının və layihələrin icrasına mühüm töhfələr verir. Fond tərəfindən qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma problemlərinin həlli ilə bağlı tədbirlərin, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, Oğuz-Qəbələ-Bakı su kəmərinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının, "Cənub qaz dəhlizi"nin, Türkiyə Respublikasında "STAR" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının, həmçinin "Azərbaycan İnvestisiya Şirkəti"nin nizamnamə kapitalının formalaşdırılması kimi tədbir və layihələrin maliyyələşdirilməsi bu baxımdan diqqəti cəlb edir.

Göründüyü kimi, Dövlət Neft Fondu Azərbaycanın maliyyə potensialının və bütövlükdə, ölkənin iqtisadi qüdrətinin artmasına mühüm töhfələr verib. Fondun vəsaitlərindən məqsədyönlü və səmərəli istifadə isə onu deməyə əsas verir ki, qarşıdakı illərdə Azərbaycan dövlətinin iqtisadi qüdrəti bir qədər də artacaq, xalqımızın maddi-rifah halı daha da yaxşılaşacaqdır.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

## Naxçıvan xəbərləri

### Yeni müəssisələr açılacaq



**Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyevin bildirdiyinə görə, perspektivdə tekstil fabriklərində, ümumilikdə, 4 min iş yeri yaradılacaq.**

Beləliklə, işsizlik səbəbindən vaxtilə Naxçıvandan Türkiyəyə köçmək məcburiyyətində qalan və xüsusilə tekstil sahəsində işləyən minlərlə insan öz doğma yurdlarına qaytarılacaq və işlə təmin olunacaq.

Bununla yanaşı, yaxın günlərdə fəaliyyətə başlayacaq yeni duz istehsalı müəssisəsində 66, Şərur Sənaye Məhəlləsində fəaliyyətə başlayacaq yağ istehsalı zavodunda isə 100-ə yaxın yeni iş yeri yaradılacaq. Kəngərli rayonunun ərazisində Avropanın qabaqcıl şirkətləri günəş panellərinin istehsalını həyata keçirəcək müəssisə quracaq.

Nazir onu da qeyd edib ki, Türkiyə ilə sərhəd bölgədə–Şərur və Sədərək rayonları ərazisində yeni sənaye parkı salınacaq. Bütün bunlar "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək.

### Vergi ödəyicilərinin sayı 2,2 dəfə artıb



**Dövlət Vergi Xidmətinin məlumatına əsasən, cari ilin yanvar-may aylarında muxtar respublikada 2 min 457 yeni vergi ödəyicisi qeydiyyata alınıb. Bunların 87,7 faizi fiziki, 12,3 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.**

Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış vergi ödəyicilərinin sayı 2,2 dəfə, o cümlədən fiziki şəxslərin sayı 2, hüquqi şəxslərin sayı isə 30 dəfə artıb. Cari ilin yanvar-may aylarında kommersiya qurumlarının 50 faizi elektron qaydada, yarısı isə kağız daşıyıcılar vasitəsilə edilmiş müraciətlər əsasında uçota alınıb.

### Taxıl biçini davam edir

**Hər il olduğu kimi, bu mövsümdə də Naxçıvan Muxtar Respublikasında taxıl biçininə Ordubad rayonunda start verilib. Ümumilikdə, bu il muxtar respublikada 21 min 247 hektar sahədə taxıl əkilib. Onun 485 hektarını yaz əkinləri təşkil edir.**

Cari ildə Naxçıvanda taxıl yığımının itkisiz və vaxtında həyata keçirilməsi ilə bağlı işləri əlaqələndirmək məqsədilə muxtar respublikanın Kənd Təsərrüfatı Nazirliyində mərkəzi qərargah yaradılıb. Biçində iştirak edəcək mexanizatorlarla maarifləndirici söhbətlər aparılıb, texnika və texnoloji avadanlıqlar hazır vəziyyətə gətirilib. Taxıl biçini kampaniyasına "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin, hüquqi və fiziki şəxslərin 91 kombaynı cəlb olunub.



Biçin dövründə sahələrdə yanğın təhlükəsizliyi ilə əlaqədar Fövqəladə Hallar Nazirliyinin qrupları ərazilərdə növbə çəkir.

Qeyd edək ki, hazırda muxtar respublikanın Ordubad, Culfa, Babək, Kəngərli, Şərur və Sədərək rayonlarında taxıl biçini davam edir. Bu günə qədər 680,9 hektar sahədə biçin başa çatıb və sahələrdən 1424,8 ton məhsul yığılıb.

**"Xalq qəzeti"**

# "Şahdəniz"də qazılan yeni quyu yatağın dərinliyinə "işıq" salacaq

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş çərçivəsində "Şahdəniz" müqavilə sahəsində yeni kəşfiyyat quyusunun qazılmasının planlaşdırılandan daha tez yekunlaşacağı gözlənilir.**



Xatırladaq ki, bu ilin yanvar ayında BP "Şahdəniz" tərəfdaşları adından "Şahdəniz" müqavilə sahəsində yeni kəşfiyyat quyusunun qazılmasına başlanıldığını elan edib.

BP-nin məlumaınta görə, yeni kəşfiyyat quyusu Heydər Əliyev adına yarımdalma qurğusundan qazılır. Qurğu bu quyunun "Şahdəniz" yatağının şərq cinahında yerləşən ərazisinə 2022-ci ilin dekabında gətirilib. Quyunun dərinliyinin, təxminən, 7 min metr olacağı nəzərdə tutulur.

Qeyd edək ki, "Şahdəniz" yatağından qaz Gürcüstan, Türkiyə və Avropaya ixrac edilir. Yeni kəşfiyyat quyusunun qazılması yatağın imkanlarının daha da dərindən öyrənilməsi və ixrac potensialının artırılması məqsədilə aparılır.

**"Xalq qəzeti"**

# İranda etnik ayrı-seçkiliyin səbəbləri

## *Azərbaycan türklərinə qarşı bu siyasət bir əsrdir ki, davam etdirilir*



**“Avropa İttifaqı insan haqlarını pozan, Cənubi Qafqaz məsələlərinə müdaxilə edən İİR rejiminə qarşı daha sərt mövqe sergiləməlidir”. Bu fikirlər Avropa İttifaqının EU Reporter veb-saytının əməkdaşı Maurisio Cerinin İranda yaşayan azərbaycanlıların etnik ayrı-seçkiliyə məruz qalması barədə yazdığı məqaləsində yer alıb. “Caliber.Az”-ın ingilis dilindən tərcüməsini dərc etdiyi həmin məqaləni ana dilimizdə qısa ixtisarla oxucularımızın diqqətinə veririk.**

Güney Azərbaycandakı soydaşlarımızın ağır vəziyyətinin səbəblərini araşdıran Maurisio Ceri əvvəllər NATO-nun Birləşmiş Komandanlığında Yaxın Şərq və Şimali Afrika məsələləri üzrə analitik kimi çalışıb.

Müəllif son iki ayda rəsmi Bakının artıq ikinci dəfə öz vətəndaşlarını İİR-ə getməkdən çəkinməyə çağırmasını belə izah edir: “Hazırda Azərbaycan və İran arasında münasibətlər heç də arzu edilən vəziyyətdə deyil. Yanvar ayında Azərbaycanın Tehrandakı səfirliyinin binasında törədilən terror aktından sonra diplomatik missiya fəaliyyətini müvəqqəti olaraq dayandırıb. Fevral ayında Bakıda İranın xeyrinə casusluqda şübhəli bilinən 40-a yaxın adam həbs edildi. Mart ayında Azərbaycan parlamentinin deputatı silahlı basqına məruz qaldı və bu insidentdə İran rejiminin əli olması ehtimalı da irəli sürüldü. Bəzi ekspertlər hətta iki ölkə arasında müharibə riski ilə bağlı təhlükəli meyillərə diqqət yetirirlər. Əsas sual isə budur: Tehran Bakıda vəziyyətin qeyri-sabit olmasında nədən bu qədər maraqlıdır?”

Cənab Ceri yuxarıdakı suala geniş aspektdə cavab tapmağa çalışır. Azərbaycanın geniş strateji diversifikasiya üçün zəruri enerji habı kimi Qərb tərəfindən artan maraqların obyektinə çevrilməsinə, onun mürəkkəb geosiyasi situasiyada, Rusiya və Çin kimi böyük güclərin nüfuz dairəsindəki postsovet məkanında, qlobal təhlükəsizliyin rəqabət mühitində duruş gətirməsinə diqqəti çəkən analitik Bakının Aİ üçün çox vacib geosiyasi aktor olduğunu yazır: “Bu ölkə Avropanı Xəzər hövzəsi və Mərkəzi Asiya regionları ilə bağlamaqla yanaşı, iki imperiyanın buraya təsir dairələrini genişləndirmək cəhdlərini ləngidir. Bakı Moskvanın və Tehranın müttəfiqi olan İrəvanla atəşkəs rejimini qoruyub saxlayır. Axırıncı, bu yaxınlarda üzə çıxdığı kimi, hərbi texnika daxil olmaqla, sanksiyaya düşən malların Rusiyaya ötürülməsində açar rolunu oynayır. Bundan savayı, Azərbaycanın Türkiyə ilə onu birbaşa birləşdirəcək Zəngəzur dəhlizinin açılması barədə təklifi məhz İranın fitvası ilə Ermənistan tərəfindən qəti etirazla qarşılanır. İİR-in Qafanda özünün konsulluğunu açması ona dəlalət edir ki, Tehran İrəvanın regional səylərinə dəstəyini gücləndirmək niyyətindədir. Bu isə Qərbin regiondakı məqsədləri ilə de-fakto tərs mütənasibdir”.

Göründüyü kimi, Cənubi Qafqaz və Orta Asiya məsələləri üzrə səriştəli mütəxəssis kimi Maurisio Ceri regionda baş verənləri praqmatik dəyərləndirir və haqlı olaraq Bakı ilə Tehran arasında kəskinləşən diplomatik soyuqluğun səbəbini həm də Azərbaycanın İsraillə yaxın münasibət qurması ilə bağlayır. Onun qənaətinə görə, Tehranın Bakıya soyuq münasibətinin digər səbəbi 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndən sonra başlayıb. “İran əhalisinin üçdə birindən çoxu etnik azərbaycanlıdır və qərbyönlü siyasət yeridən sivil Azərbaycan Respublikası molla rejimini ciddi narahat edir. Çünki İİR-dəki çoxmilyonluq Azərbaycan icması üçün şimaldakı müasir dövlət quruluşu ilhamverici amildir”,– yazan müəllif məqaləsində Berlindəki Güney Azərbaycan diasporunun fəaliyyəti, İranda daim irticaya məruz qalan soydaşlarımızın təhsil hüquqi və azadlıqları üzərində dayanır.

“Berlində güneyli azərbaycanlıların etiraz mitinqi. Az qala bütün Avropadan bura toplaşmış etnik azərbaycanlılar arasında dayananda birdən başa düşdüm ki, bu etiraz aksiyası mənə Xordad hadisələrini xatırladır. 2006-cı ildə rasist karikaturası ilə bağlı İranda əmələ gələn qalmaqaldan sonra güneyli azərbaycanlılar üsyana qalxmışdı. Verilən məlumatlara əsasən, onda 5 min fəal həbs edilmiş və onların əksəriyyəti zindanlarda işgəncələrə məruz qalmışdı. Saxlanılanlardan 150 nəfər ya öldürülmüş, ya da itkin düşmüşdü (deyilənlərə görə, onlar diri-diri yandırılaraq cəsədləri Urmiya gölünə atılıb). Çoxlu sayda insan ciddi xəsarət almışdı”.

Bunları Avropa oxucusuna xatırladan müəllif güneyli azərbaycanlıların İran hakimiyyəti tərəfindən çoxdan – həm fevral inqilabına qədərki Pəhləvi sülaləsi, həm də hazırki teokratik rejim tərəfindən etnik ayrı-seçkiliyə və qərəzli münasibətə məruz qaldıqlarını diqqətə çatdırmağı unutmur.

“Bir qayda olaraq ikinci növ vətəndaş kimi nəzərdən keçirilən etnik azərbaycanlılar assimilyasiyaya, alçaldıcı stereotiplərə və məcburi yerdəyişmələrə on illərlə dözməli olublar. Bu gün güneyli azərbaycanlıların dili, mədəniyyəti və isri ən müxtəlif üsullarla sıradan çıxarılır. Hərçənd İran qanunvericiliyində etnik azlıqlara öz doğma dillərində danışmaq hüququ nəzərdə tutulur, buna baxmayaraq mərkəzi hökumət məktəb və kolleclərdə Azərbaycan dilindən istifadəni faktiki olaraq qadağan edir. Güney Azərbaycandakı toponimlərin fasiləsiz olaraq farslaşdırılması mədəniyyətin qəsdən mənimsənilməsi çərçivəsində yaranan daha bir narahatlıq mənbəyidir. Bu zaman qədim Azərbaycan mədəniyyəti və tarixi irsi yalnız saxtalaşdırılmır, bir çox hallarda hətta fiziki cəhətdən məhv edilə bilir. Bombardman nəticəsində dağıdılan Təbrizdəki Ərk qalasını bunun bariz nümunəsi kimi göstərmək mümkündür”.

Məqaləsində daha sonra Güney Azərbaycan hərəkatının siyasi qanadının İrandakı mövcud dövlət aparatı tərəfindən irticaya məruz qaldığını qələmə alan müəllif nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında təsdiqini tapmış faktlara söykənərək qeyd edir ki, Tehran iqtidarı tez-tez müxtəlif mədəni-kütləvi tədbirlərin gedişində etnik azərbaycanlıların həbsini həyata keçirir, milli fəallar işgəncələrə məruz qalır, yaxud soydaşlarının siyasi hüquqlarının təmin edilməsini tələb etdikləri üçün ölkədən didərgin salınır. “2022-ci ilin sentyabrında kütləvi etiraz dalğası başlayandan sonra bu etnik qrupun vəziyyəti daha da pisləşdi. Çarşabı məcburi örtməyin yeni qaydası barədə qanuna qarşı qadınların etirazı az sonra sosial, iqtisadi və siyasi tələblərə qədər genişləndi (buna misal olaraq, “Azadlıq, Ədalət, Milli Hökumət!” şüarını göstərmək olar). Tehranın teokratik rejimi isə, öz növbəsində, buna cavab olaraq etiraz aksiyalarını qəddarcasına dağıtmaqdan ötrü ixtiyarındakı bütün təhlükəsizlik qüvvələrini səfərbər etdi. Ekspertlər qrupunun hazırladığı hesabata görə, Güney Azərbaycanın ən böyük şəhərində – Təbrizdə “etirazların yalnız ilk iki həftəsi ərzində saxlanılanların sayı 1700 nəfər”dən çox olub. Bundan başqa, 2022-ci ilin sentyabrından dekabrına kimi hökumətin həyata keçirdiyi xüsusi reydlərin nəticəsində təhlükəsizlik qüvvələri tərəfindən 20-dən çox gənc fəal öldürülmüş, yüzlərlə etirazçı isə yaralanmışdır. Həmin dövrdə 10-a yaxın etnik azərbaycanlı isə ölümə məhkum edilib”.

Bununla bağlı konkret hadisələri ayrıca qeyd edən EU Reporter veb-saytının əməkdaşı Maurisio Ceri yazır: “2022-ci ilin sentyabrında Zəncandan olan yeniyetmə Mehdi Musəvi hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən öldürülüb. Mehdinin ailəsinə və qohumlarına təhdid göstərərək bu qətl barədə susmağa məcbur ediblər. Başqa bir hadisənin qurbanı 22 yaşlı Nəsim Sədqi olub. Bu gəncin də aləsinə hədə-qorxu gələrək övladlarının bədbəxt hadisə zamanı öldüyünü söyləmək məcburiyyətində qoyublar”.

***Hazırladı:***
***İ.HƏSƏNQALA, “Xalq qəzeti”***

**İran Milli Kitabxanasında hicabdan məcburi istifadə etməyən fəal oxucuları buradan uzaqlaşdırmağın “orijinal” üsulunu tapıblar. Milli Kitabxana və Sənədlər Təşkilatı onların bir qrupuna SMS göndərərək “Üzvlük siyasətinin 10-cu maddəsinin 7-ci bəndini əsas götürərək üzvlüklərinin dayandırıldığını” bildirib.**

# Milli Kitabxananın hicab tələbi

Müdriyyət bu mesajlarda tədbirin məcburi hicaba və ya oxşar səbəbə görə görüldüyünü göstərmir. Bənddə istinad edilən “Üzvlük məcəlləsinin 7-ci bəndində” müəmmalı “İslam geyiminə tam riayət edilməsi və dini, mədəni işlərin “mühafizəsi” kimi fikirlər yer alıb ki, əslində, söhbətin arxasında hansı məqamların dayandığı bəllidir.

Məhz buna görə də qadınlar öz qanuni haqlarının bərpa olunması uğrunda mübarizəyə qalxıblar. Üzvlükləri dayandırılan qadınlar İran İslam Respublikasının qurumlarının praktiki və sistemli addımı” kimi qiymətləndiriblər.

Bəyanatda deyilir: “İndi məntiqlə mədəniyyət qurumu olmalı olan Milli Kitabxana repressiyaya məruz qalan tədqiqatçıların və tələbələrin aradan qaldırılması bayrağını daşımaqdadır”. Bu bəyanatın başqa hissəsində Milli Kitabxananın mühafizə tədbirləri tənqid edilib və bildirilib ki, bu qurum “Məcburi hicaba riayət etməkdən imtina edən bütün qadın üzvlərə mesaj göndərmək əvəzinə etirazların həcmini azaltmaq üçün vaxtaşırı on nəfərlik



“dəyənək və güllə siyasətindən” sonra onlara qarşı davranışı heç də həzm etmək niyyətində deyillər. Bu münasibətlə hazırlanmış bəyanatın müəllifləri İran Milli Kitabxanasının bir sıra qadın üzvlərinin mesajlar vasitəsilə üzvlüyünün dayandırılmasını İranın idarəçilik strukturunda “gender aparteidini” yaymaq üçün “dövlət qruplara üzvlüyün dayandırılması ilə bağlı SMS göndərilməsi qərara alınıb”.

Bəyanatı imzalayanlar sonda yazıblar: “Vətəndaşlara xidmət etməli olan dövlət qurumlarının ərbablar cübbəsini geyməsinə və bizi aradan qaldırmasına icazə verməyəcəyik”.

***R.GƏNCƏLİ***

# Ərk qalası



Təbriz - gözəl şəhər!
Vuruşdular:
son gülləyə;
son süngüyə,
son qundağa qədər.
Vuruşdular:
hər şey qırmızı geydi,
daşdan, torpağa qədər.
Vuruşdular:
alt dodaqdan
üst dodağa qalxa bilməyən
səsə qədər.
Vuruşdular:
onlardan yeddi dəfə - yetmiş qat
artıq olan,
süngüləri narın daraq dişi kimi
sıx olan düşmənlə.
Yaralılar ufuldamadı.
Can verənlər inləmədi.
Susuzlar yandım demədi.
Öpdü qurumuş dodaqları
qan hopmuş torpağı.
Yaralarına basdılar
qan rəngli bayrağı.
Nə düşmən onlardan
bir aman sözü ala bildi,
nə bu ölümü yağı duydu,
nə qala bildi.
Söykənib qala divarına
öldülər ayaq üstə;
çiyin-çiyinə.
Ulduzlar şahid oldu,
bir sırada dayanmış
ölülərin qabağından,
yüz yerə bölünmüş dirilərin
çəkildiyinə.
Öldülər ayaqlarının altında
Vətən torpağı.
Başlarının üstündə
Vətən ulduzları.
Könüldən könülə keçdi
ümidləri, arzuları.
Gecə ağır-ağır keçdi
cənazələrin üstündən;
Keçdi getdi yolu səhərə.
Günəş şəfəqdən bir örtük çəkdi
torpağı qoruyub, torpaqda dincələn
cənazələrə.

***Rəsul Rza***

# Mirzə İbrahimov yaradıcılığında Güney Azərbaycan

**Azərbaycanın Xalq yazıçısı, görkəmli ictimai-siyasi xadim Mirzə İhrahimovun həyat və fəaliyyəti daim Güney Azərbaycanla və bu mövzuda bədii-elmi yaradıcılıqla sıx bağlı olub. 1911-ci il oktyabrın 15-də İran Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Eyvə kəndində anadan olmuş gələcəyin yazıçı-ədəbiyyatşünası uşaqlıq illərində ailəsi ilə birlikdə Bakıya köçsə də, ömrü boyu dünyaya göz açdığı yerləri unutmayıb, Güney mövzusu yaradıcılığında geniş yer tutub.**

**Müsahibimiz Mirzə İhrahimovun vaxtilə AMEA Ədəbiyyat İnstitutunda yaratdığı Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, professor Esmira Fuad böyük yazıçının həyat və fəaliyyətinin Güney Azərbaycan səhifələrini geniş araşdırıb. Mirzə İbrahimov Kitab Fondunun yaradıcısı olan Esmira xanım qəzetimiz üçün açıqlamasında bildirdi:**

–Otaylı-butaylı ədəbiyyatımızın görkəmli siması Mirzə İbrahimov üçün bütöv Azərbaycan idealı ömrü boyu çox doğma və əziz olub. Bu mövzu onun yaddaşını heç zaman tərk etməyib. O, bədii yaradıcılığında Güney, doğma şəhəri Sərab, Təbriz və ümumilikdə otaylı soydaşlarımızın həyatından geniş bəhs edib. Mirzə müəllim İranda yaşayan qardaş-bacılarının arzu-istəklərinin ifadəçisi, ağrı-acılarının carçısı olub. Ədib bacardığı qədər bətnindən qopduğu Güney Azərbaycan xalqının milli əsarətdən qurtulmasına, soydaşlarının ana dilində oxuyub-yazmaq hüququnun gerçəkləşməsinə çalışıb.

Yurdsevər yazıçı çoxsaylı əsərlərində Güney Azərbaycan mövzusuna dönə-dönə qayıdıb. Bu qayıdış təsadüfi deyildi. Görünür, yeddi yaşında ikən Sərabı tərk edən Mirzə müəllimin yaşadığı, gördüyü sanki yaddaşında, ruhunda daşlaşıbmış. O 1941-ci ildə sovet ordusunun tərkibində Güney Azərbaycana gedəndə də burada baş verən hadisələrin bilavasitə iştirakçısı olub, qaynar həyatın tam mərkəzindən ictimai-siyasi, ədəbi prosesləri diqqətlə, dərindən müşahidə edib və gələcək ədəbi-bədii fəaliyyəti üçün zəngin həyat materialı toplayıb.

**1941–42-ci və 1945-46-cı illərdə Təbrizdə yaşayan, burada sovet ordusunun siyasi işçisi vəzifəsini icra edən Mirzə İbrahimovun burada ana dilində çıxarılan “Vətən yolunda” qəzetinin redaktoru olduğu dövrdə Quzeydən gələn sənət dostları, yaradıcı ziyalılarla Güneydə mədəni dəyişikliyə nail olmaq, soydaşlarına kömək etmək üçün gecə-gündüz böyük həvəslə çalışdığını söyləyən Esmira xanım daha sonra dedi:**

– Mirzə İbrahimov “Vətən yolunda” qəzetində (46 sayı dərc edilib) cəbhə xəbərləri ilə yanaşı, Azərbaycanın tarixindən, xalqın azadlıq uğrunda mübarizə salnaməsindən, bu mübarizənin aparıcı qüvvələri olan mərd Vətən oğullarının həyatından, ədəbiyyat və mədəniyyətindən diqqətçəkən məqalələrə geniş yer verib. Bu mədəni missiyanın davamında 1945–1946-cı illərdə Güney Azərbaycanda Seyid Cəfər Pişəvərinin başçılığı ilə 21 Azər inqilabı baş verib. Lakin 1 ildən sonra xarici mürtəce qüvvələrlə yerli istibdad rejiminin qüvvələri birləşərək inqilabı qan dənizində boğub. Amma xalqın azadlıq, istiqlal arzularını boğmaq mümkün olmayıb. İstiqlal uğrunda mübarizə Güneydə bu gün də davam edir.

Mirzə İbrahimov ilk dəfə olaraq məhz “İran qızı” adlı hekayəsini - Ulduz adlı qızın faciəli həyat hekayətini yazmaqla bədii yaradıcılığına Güney Azərbaycan mövzusunu gətirib (1930). Milli hökumətin süqutundan sonra isə “Azad”, “12 dekabr”, “Tonqal başında”, “İztirabın sonu”, “Salam sənə, Rusiya” və “İki həyat” - altı hekayənin daxil olduğu “Cənub hekayələri” silsiləsi (1946–1947), İranda dalğalanan milli-azadlıq hərəkatının yetirdiyi inqilabçıların parlaq obrazlar qalereyası sayıla biləcək “Gələcək gün” romanı (1948–1950), “Xosrov və Ruzbeh” povesti və “Azad qız” librettosu yazıçının Güney Azərbaycandakı ciddi və davamlı müşahidələrinin, doğma xalqına odlu məhəbbətinin, uzun-uzadı yaradıcılıq axtarışlarının uğurlu nəticələri idi.

Güney Azərbaycan məsələsi Mirzə İbrahimovun gündəlik həyatının, duyğu və düşüncələr aləminin ayrılmaz hissəsi idi. Evdə, işdə, səyahətdə, hətta yuxularında belə doğma Təbriz, Sərab, Eyvə onunla idi. Qızı Sevda xanımın xatirələrində də bu məqam var: “O, Cə-



nubla bağlı xatirələrini danışanda həmişə məni qəhər bürüyərdi. Atam Təbrizi çox sevirdi. Biz bağa gedəndə uşaqlıq illərini xatırlayar və nisgilli səslə deyərdi: “Görəsən, mənə qismət olacaqmı ki, nə vaxtsa sizi Təbrizə aparım”.

Bir çox dillərə tərcümə edilən və baş qəhrəmanın - Azadın nakam taleyinin bədii təsviri olan “Azad” hekayəsinin də daxil olduğu məşhur “Cənub hekayələri”, “Gələcək gün” romanı, “Azad qız” librettosu Təbrizdə yaşadığı həmin keşməkeşli dövrün mürəkkəb ictimai-siyasi hadisələrinin əks-sədası idi. “

“Tonqal başında” hekayəsi ruhən “Azad” və “12 dekabr” əsərlərilə səsləşir. “İztirabın sonu” hekayəsində isə milli-demokratik hərəkat yatırıldıqdan sonra İran hökumətinin və onun xarici havadarlarının inqilabçı xalqa divan tutması, zülm, işgəncə, təqib, təzyiq, sürgün və həbslərin baş alıb getməsindən, lakin bütün bu əzablara rəğmən xalqın mübarizə əzminin qırılmamasından bəhs edilir.

40-cı illərdə yazmağa başladığı, ancaq yarımçıq qalmış “Nakam məhəbbət” əsərinin davamı, mükəmməlləşdirilmiş, təkrar-təkrar işlənmiş variantı olan “Gələcək gün” romanı Mirzə müəllimin yaradıcılığında mühüm mərhələ təşkil edir. Ədib Güney Azərbaycanda baş verən azadlıq hərəkatını romanda parlaq bədii boyalarla əks etdirir. Güney Azərbaycanı, İranı yaxından tanıması, xalqın həyatına dərindən bələdliyi ədibə bu həyatı və şahlıq rejiminin çoxyönlü siyasi gedişlərini bütün ayrıntıları ilə təsvir etmək imkanı yaradır. Bu bələdlik ona xalqın milli azadlıq hərəkatının baş qəhrəmanlarından biri kimi təsvir etdiyi obrazı canlı həyatdan götürmək şansını da verir. Bu möhtəşəm obrazın prototipi Milli Hökumətin yaradıcılarından biri olan alovlu vətənpərvər, prokuror Firudin İbrahimidir.

“Gələcək gün” romanı güclü bədii ümumiləşdirmələrinə, real həyatda baş verən hadisələrlə boyaboy səsləşdiyinə görə bu mövzuda yazılmış digər əsərlərdən fərqlənir. Romanda xalqın azadlığı uğrunda mübarizə aparan Firudin İbrahimin və onun ailəsinin faciəsi inandırıcı bədii lövhələrlə təsvir olunur. “Gələcək gün”də yazıçı “İran və Güney Azərbaycan xalqlarının iztirablarla dolu məşəqqətli həyatını Həsənalı və Musa kişinin ailələri fonunda ümumiləşdirir.



Yazıçı axıcı bədii dillə iki ailənin faciələrinin fonunda bütün xalqın məşəqqətli həyatının aydın mənzərəsini yaradır. Və sonda həbsdən qurtulan Firudun İbrahimini yenə də mübarizə meydanına qovuşdurur. Bununla diqtə edir ki, xalqın zülm və işgəncədən, əsarət zəncirindən yeganə qurtuluş yolu mübarizəyə qalxmaq, inqilab etməkdir. Xalqın nicatı yalnız milli birlikdə, milli vəhdətdədir.

**Tədqiqatçı söylədi ki, Cənubi Azərbaycan mövzusu ömrünün son gününədək Mirzə müəllimin yaradıcılığının aparıcı xəttini təşkil edib:**

– Cənubda gedən ədəbi prosesi yaxından izləyib, Gəncəli Səbahi, Rəhim Dəqiq, Cavad Heyət, Salamullah Cavid, Sönməz və digər istedadlı qələm sahibləri ilə məktublaşıb, ədəbi mükalimələr edib, burada yaranan poeziyanı “Ümid və kədər poeziyası” adlandırıb. Mərziyə xanım Üskuyi, Əlirza Nabdil Oxtay, Səməd Behrəngi kimi şəhid yazarların əməllərini, mərdliklərini yüksək dəyərləndirib, Şəhriyar, Səhənd, Savalan, Sahir, H.Tərlan, R.Dəqiq, Y.Şeydanın mübariz poeziyasını təqdir edib, bu şairlərin romantik əsalətini, lirikasını təqdir edib.

Publisistik yazılarında da Güney Azərbaycanı unutmayan ədib “Təbriz səfəri”, “Onlar da günəşi görəcəklər”, “Cənubi Azərbaycanda milli demokratik hərəkat haqqında”, “Firidun İbrahimi”, “Azadlıq mübarizəsi”, “Xalqın səsi” məqalələrində oxucularının diqqətini İrana, Güney Azərbaycana, Güney Azərbaycan xalqının həyatına və taleyüklü məsələlərinə, burada ölüm-dirim mübarizəsi aparan iki ideologiyanın çarpışmasına yönəldib.

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***

# "Co onu bağışlayacaq..."

## Respublikaçılar ABŞ-da "hamı üçün bərabər olan ədalət mühakiməsi"nin olmadığını iddia edirlər



**Son illər Ağ evin keçmiş və hazırkı sahibləri ətrafında cərəyan edən hadisələr özünü demokratiya carçısı kimi dünyaya təqdim edən ABŞ haqqında formalaşan təsəvvürlərə kəskin zərbə vurmaqdadır. Xüsusilə son bir neçə ayda eks-prezident Donald Trampın məxfi dövlət sənədlərini evində gizlətməsi, vergidən yayınması, prezident Co Bayden və oğlu Hanter Baydenin korrupsiyada şübhəli bilinmələri ölkə daxilində çox böyük gərginliyə səbəb olub.**

Bu günlərdə şərhçi Nik Hilbertson "Breitbart" portalında dərc edilən məqaləsində yazır ki, respublikaçılar ABŞ Ədliyyə Nazirliyini ikiüzlülükdə günahlandıraraq istintaqın Hanter Baydenlə bağladığı razılaşmanı kəskin tənqid edirlər. Portalın oxucuları respublikaçıların ittihamlarına qoşularaq bildirirlər ki, "Demokratlar konstitusiyadan tualet kağızı kimi istifadə edirlər".

Mühafizəkarlar Hanter Baydenin federal prokurorlarla mehriban sövdələşməsini alt-üst ediblər. Sövdələşməyə əsasən, prezidentin oğlu "federal gəlir vergisini qəsdən ödəməməklə" bağlı iki ittihamda günahını etiraf edib və odlu silahları qanunsuz saxladığına görə qanun pozuntusu üzrə profilaktika proqramına qoşulmağa razılaşıb.

"Breitbart News"un böyük redaktoru Joel Pollakın açıqlamasına görə, bu saziş Hanter Baydenin həbsxanadan yayındırılması deməkdir. Eks-prezident Donald Tramp isə "Truth Social" sosial şəbəkəsində Hanterin cəzasını "yol cəriməsi" ilə müqayisə edərək yazıb: "Vau! Baydenin korrupsiyaya bulaşmış Ədliyyə Nazirliyi Hanter Baydeni yüz illərlə həbs cəzası olan cinayət işinə görə, sadəcə, yol hərəkəti qaydalarını pozmağa bənzər cərimə ilə cəzalandıraraq, xilas edib".

Hanterlə razılaşma Trampın prezidentlik müddətinin sonunda Mar-a-Laqoya apardığı iddia edilən məxfi sənədlərin saxlanması ilə bağlı 37 fakt üzrə məhkəmə qarşısına çıxarılmasından düz bir həftə sonra əldə edilib. Pollak bildirib ki, Trampın bütün maddələr üzrə təqsiri sübut olunarsa və hakim hər bir maddə üzrə maksimum cəza təyin edərsə, eks-prezident, ümumilikdə, 400 il həbs cəzası ala bilər.

ABŞ-ın 45-ci prezidentinin oğlu kiçik Donald Tramp baş verənlərlə bağlı bölüşdüyü rəyində yazır ki, bu razılaşma "çox pis proteksionizm qoxusu verir və açıq-aşkar iki səviyyəli çürük ədliyyə sistemini ifşa edir".

"Əgər siz respublikaçısınızsa, Baydenin Ədliyyə Nazirliyi cinayət məcəlləsinin maddələrini gözünüzə soxacaq və sizi yüz illik dəmir barmaqlıqlar arxasına salmağa çalışacaq. Yox, əgər Hanter kimi düzgün soyadınız varsa, sizi qoruyacaq, sizinlə incə davranacaqlar", – deyə kiçik Tramp əlavə edib.

"Judicial Watch" hüquq müdafiəçiləri təşkilatının prezidenti Tom Fitton da "Twitter" hesabında yazıb ki, sevdalı sövdələşmə "üzə tüpürmək və qanunun aliliyinə hörmətsizliyin nümayişidir". O, bəyan edib ki, prokurorluq "xarici ölkədən rüşvət almaqla bağlı Coya (Bayden) qarşı irəli sürülən iddialardan da yayınır".

Doktor Sebatsian Qorka Fittonla razılaşır və yazır: "Bu, onun atasının Ədliyyə Nazirliyinin və vergi idarəsinin istintaqla bağlı təklif edilən aşiqanə və çox mərhəmətli bir razılaşmadır. Sadəcə, onu cərimə ödəməyə məcbur etdilər və indi də Hanter öz kokain və rus fahişələri olan yuvasına qayıdır. Ədalət yoxdur!"

Respublikaçıların prezidentliyə namizədlərindən biri Vivek Ramasvami bu razılaşmanı "törətdikləri real cinayətlərə görə məsuliyyət daşımaqdan həmişəkindən daha çox qorxduqlarını göstərən geri çəkilmə immitasiyası" adlandıraraq deyir: "Hanter Baydenin istintaqla sövdələşməsi zarafatdır. Əsl məqsəd səs yazılarıdir, çünki onlardan məlum olur ki, Hanter və Co Bayden Ukraynanın "Burisma" şirkətinin rəhbərindən rüşvət alıblar".

Respublikaçı senator Co Vens də çox sərt fikirlər səsləndirib. O bildirib ki, razılaşma "qanunun biabırçı ikili standartlarını" nümayiş etdirir. Hər hansı digər amerikalıya analoji qanun pozuntusuna görə daha sərt və amansız cəza veriləcəkdi. Prezidentin oğlunun isə əlini sıxıb razılaşırlar. Bu, Baydenin Ədliyyə Nazirliyinə təyin edilmiş şəxsləri niyə dəstəkləyə bilməyəcəyinizin mininci sübutudur. Bizim ölkəmizdə ikisəviyyəli ədliyyə sistemi fəaliyyət göstərir. Bu, rüsvayçılıqdır".

Respublikaçı senator Tom Kotton da təqribən eyni fikri bildirib: "Gəlin açıq və birbaşa danışaq: soyadı Bayden olmayan hər hansı bir şəxs Hanterin cinayətlərinin kiçik bir hissəsini belə etsəydi, onun üçün nəticələr çox ciddi olardı".

Maraqlıdır ki, Hanter Baydenin sövdələşmə xəbəri Trampın məxfi sənədlərlə bağlı məhkəmə prosesinin "sürətlə izlənildiyi" bir gündə yayılıb. Trampın məhkəməsinin daha əvvəl keçiriləcəyi və ona cəmi səkkiz həftə qaldığı bir vaxtda, Hanter Bayden istintaqla sövdələşərək bütün bu noutbuk işindən asanlıqla canını qurtarır.

Respublikaçılar Partiyasında olan qanunvericilər Nümayəndələr Palatasının üzvü Marcori Taylor Qrin, senatorlar Couş Houli və Rik Skott Ədliyyə Nazirliyinin Baydenlərin işinə münasibətilə ABŞ prezidentliyinə əsas namizəd olan Trampa qarşı ittihamlara münasibətdə nə qədər kəskin fərq olduğuna işarə edirlər. Qrin yazır: "Hanter Bayden silah saxlamaqda və kiçik vergi cinayətlərində günahlarını etiraf etsə də, həbs cəzası almadı. Bu qondarma bir proses və baş aldatmaq üçün olan bir oyundur. Guya o, Ədliyyə Nazirliyi ilə əməkdaşlıq edir. Yazıq və qərəzli Ədliyyə Nazirliyi öz oyuncaq-prezidentini müdafiə edir, Co və Hanter Baydenləri qanunla ittiham etməkdən imtina edir".

Məqaləyə Rik Skottun "Twitter"ə yazdığı aşağıdakı sözlərlə yekun vurulub: "Hanter Bayden sadəcə əllərini bir-birinə vurur, Böyük Oğlan isə əsas siyasi rəqibini ovlamaqda davam edir. Burada hamı üçün bərabər olan ədalət mühakiməsi haradadır? Bu, bizim qanunlara qətiyyən hörmət qoymayan ailə tərəfindən qanunvericilik sistemimizi ələ salmaqdır".

***Hazırladı:***
***İLQAR,***
***"Xalq qəzeti"***

## "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC-nin İnvestisiya Qiymətli Kağızlarının Emitentı olan 2022-cü il üçün illik maliyyə hesabatı

| 1 | Ümumi müddəalar. | Ümumi müddaların açıqlanması |
|---|---|---|
| 1.1 | İllik hesabatda aşağıdakı məlumatlar göstərilir. | |
| 1.2 | Emitentin təşkilati - hüququ forması, tam və qısaldılmış adı, dövlət qeydiyyatı tarixi və nömrəsi. | "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC . 19 noyabr 2003 -cü il tarixli. |
| 2. | Emitentin hüquqi ünvanı və olduğu yer. | AZ 1089, Bakı, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Şakir Ziyadov küçəsi 1. Tel- 4-57-77-93. |
| 3. | Emitentin adında və təşkilati - hüquqi formasında, hesabat ili ərzində emitentin firma adında və təşkilati-hüquqi formasında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları və təşkilati-hüquqi formaları, habelə onların qeydiyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkilin forması həmin hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkili yolu ilə yaradıldıqda, yenidən təşkilin forması həmin hüquqi şəxslərin adları və təşkilati-hüquqi formaları. | Olmayıb |
| 4. | Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar. | Olmayıb. |
| 5. | Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətin adı, təşkilati - hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı və bu payın əldə edildiyi tarix, yaxud cəmiyyəti emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti. | Olmayıb. |
| 6. | Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının ayrı-ayrılıqda sayı. | 436 nəfər. |
| 6.1 | "LOTOS-S" MMC hüquqi şəxs. | 1 "LOTOS-S"MMC AZ 1089. Bakı, Suraxanı rayonu, Hövsan qəsəbəsi. Ş.Ziyadov küçəsi 1. VÖEN- 1000492771. TEL- 4577793. |
| 6.2 | Fiziki şəxslər. | 435 nəfər. |
| 7. | Emitentin nizamnamə kapitalının on faizi və daha artıq həcmdə səsli səhmlərə malik olan səhmdarlar (fiziki şəxsin soyadı, adı və atasının adı, hüquqi şəxsin adı olduğu yer və VÖEN-i ) onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı. | 1 "LOTOS-S"MMC AZ 1089. Bakı , Suraxanı rayonu, Hövsan qəsəbəsi, Ş.Ziyadov küçəsi 1. VÖEN: 1000492771. TEL -4-57-77-93. Səsli səhmin sayı 1424329 Eminitentdə payı 96.0297 səsli səhm |
| 8. | Emitentin nizamnamə kapitalında payı on faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i və nizamnamə kapitalında emitentin payı. | Yoxdur. |
| 9. | Səhmdar cəmiyyət olan emitentin səhm sahiblərinin reyestri qiymətli kağız bazarının peşəkar iştirakçısı tərəfindən aparıldığı haqqında reyestrsaxlayıcı haqqında məlumat (adı, yerləşdiyi ünvan və qiymətli kağızlar bazarının peşəkar iştirakçısı fəaliyyətinin həyata keçirilməsi üçün ona verilmiş xüsusi razılığın, lisenziyanın qeydiyyat nömrəsi, verilmə tarixi və qüvvədə olduğu müddət və ya reystr emitentin tərəfindən aparıldığı barədə qeyd. | "Milli Depozit Mərkəzi "QSC Lisenziya, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi №110 12.02.2010 – cu il . Ünvan- Bakı şəhəri, Bülbül prospekti 27. |
| 10. | Səhmdar cəmiyyət olan emitentin səhmdarlarının hesabat ili ərzində keçirilmiş yığıncaqları barədə məlumat. | 23 iyun 2023- cü il tarixli 22 nömrəli protokol. |
| 10.1 | Yığıncağın keçirilmə tarixi və yeri. | 23 iyun 2023- cü il. AZ 1089.Bakı , Suraxanı rayonu, Hövsan qəsəbəsi, Şakir Ziyadov küşəsi 1, tel 4-57-77-93. |
| 10.2 | Ümumi yığıncaqda qəbul edilmiş qərarlar. | 1. "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC-nin 2022-ci ilin maliyyə - təsərrüfat fəaliyyətinin yekunu və balans hesabatının təsdiq edilməsi haqqında məlumat. " Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC-nin 2022-ci ilin illik maliyyə hesabatı təsdiq edilmişdir. ASC-nin hesabat ili ərzində fəaliyyəti nəticəsində əldə olunmuş maliyyə yekunları, vergisiz məbləğ (95902 manat) doxsan beş min doqquz yüz iki manat, xalis mənfəət səhmdarın mülkiyyətində olan 1483217 ədəd səhmlərin faiz nisbətinə mütənasib qaydada hər səhmə bölüşdürülməsi qalan xalis mənfəətin müəssisənin gələcək inkişafına sərf edilməsi qərara alınmışdır. Cəmiyyətin icra orqanına qanunla müəyyən edilmiş qaydada kütləvi informasya vasitəsi ilə illik hesabatın və maliyyə balansının səhmdarların tanış olmağı ücün dərci həvalə edilmişdir. 2. Digər təşkilati məsələlər. |
| 11. | Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı və əlavə buraxılışı üzrə ayrı-ayrılıqda göstərilir). | |
| 11.1 | İnvestisiya qiymətli kağızın növü və forması. | Adi, adlı, sənədsiz. |
| 11.2 | İnvestisiya qiymətli kağızlar buraxılışının (əlavə buraxılışının) dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi. | Dövlət qeydiyyat nömrəsi AZ 100100252. |
| 11.3 | İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri. | 2 manat. |
| 11.4 | İnvestisiya qiymətli kağızlar buraxılışının (əlavə buraxılışının ) məcmu nominal dəyəri. | 1483217. |
| 11.5 | Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir), | hesabat üzrə balans mənfəəti 95902 ( doxsan beş min doqquz yüz iki manat) . |
| 11.6 | Faizli istiqrazların buraxılışı haqqında məlumatda-hesabat ili ərzində emitent tərəfindən istiqrazlar üzrə ödənilmiş faizlərin məbləği. | Olmayıb. |
| 11.7 | İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı, olduğu yer (olduqda). | Qiymətli Kağızlar Dövlət Komitəsi |
| 12. | Emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumat. | Olmayıb. |
| 12.1 | Əqdin məbləği. | Olmayıb. |
| 12.2 | Hesabat tarixinə əqdin ödənilmiş hissəsi. | Olmayıb. |
| 13. | Hesabat dövrü ərzində emitentin maliyyə - təsərrüfat fəaliyyətinə təsir göstərən mühüm hadisələr və hərəkətlər haqqında məlumatlar, maliyyə vəziyyəti və maliyyə göstəricilərinin təsviri və onların əvvəlki ilin həmin dövrü üzrə maliyyə göstəricilərinə müvafiq müqayisəsi. | hesabata əlavə olunur. |
| 15. | Maliyyə hesabatlarının yoxlanılması haqqında kənar auditorun rəyi; | 2022-ci il üzrə cəmiyyətin illik balans və maliyyə-iqtisadi göstəricilərinin düzgünlüyünə və təsdiqinə Azərbaycan Respublikası Auditorlar Palatasının 25 avqust 2022 -ci il tarixli SA-281 saylı lisenziyası əsasında Cəfərova Sevda Teymur qızı tərəfindən 2023-cü il aprelin 26-da auditor rəyi verilmişdir. |
| 16 | İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi. | 23 iyun 2023- cü il. |
| 17. | İllik hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | "Xalq qəzeti" 9 may 2023- cü il. |
| 18. | İllik hesabat hər başa çatmış təqvim ilinin nəticələri üzrə hazırlanmalı və emitent MMC olduqda növbəti ilin 4 ayı ərzində, səhmdar cəmiyyət olduqda isə, növbəti ilin 6 ayı ərzində səhmdarların (payçıların) illik ümumi yığıncağı tərəfindən təsdiq edilməlidir. | hesabat səhmdarların 23 iyun 2023- cü il tarixli 22 nömrəli protokolu əsasında təsdiq edilmişdir. |
| 19. | İllik hesabatın səhifələri nömrələnməli, tikilməli, emitentin icra orqanının rəhbəri və baş mühasibi tərəfindən imzalanmalı və emitentin möhürü ilə təsdiq edilməlidir. Hesabatı imzalayan şəxslər illik hesabata daxil olan məlumatların tamlığı və dürüstlüyü üçün mövcud qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar. | Yerinə yetirilmişdir. |

# Beynəlxalq Musiqi Festivalı Şuşada davam edir



**"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı dünən mədəniyyət paytaxtımız Şuşada müxtəlif konsert proqramları ilə davam edib.**

Festival çərçivəsində ilk konsert Şuşadakı Yaradıcılıq Mərkəzində təşkil olunub.

Konsert proqramında tanınmış müğənnilər Nəzakət Teymurova – Bayatı-Şiraz dəstgahı, Firuz Səxavət – Mahur-Hindi dəstgahı, Cabir Abdullayev – Zabul-Segah dəstgahı, Nuriyyə Hüseynova – "Çahargah" kompozisiyası ifa ediblər.

Növbəti konsert proqramı X.Natəvanın evinin qarşısında keçirilib. Proqramda İlkin Əhmədov, Gülyaz Məmmədova, Almaz Orucova, Gülüstan Əliyeva çıxış edib.

Festival çərçivəsində həmçinin qonaqlar və digər ölkələrdən gəlmiş iştirakçılar Şuşa şəhərində tarixi-mədəni abidələrimizlə tanış olublar. Onlara Şuşada aparılan yenidənqurma işləri barədə məlumat verilib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb.

Axşam saatlarında növbəti konsert Bülbülün ev-muzeyində təqdim olundu. Şuşada yekun konsertin isə "Qarabağ" otelinin qarşısındakı parkda təşkili nəzərdə tutulub.

# BİLDİRİŞ

"Azəristiliktəchizat" ASC-nin nəqliyyat vasitələrinin hərəkətinə məsafədən internet vasitəsilə nəzarətin həyata keçirilməsinin satın alınması məqsədilə 2023-cü il mayın 11-də elektron portal vasitəsi ilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən "Qafqaznet" MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il iyunun 22-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

**TENDER KOMİSSİYASI**

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Səhiyyənin Təminat Mərkəzi" Publik Hüquqi Şəxsi

# AÇIQ TENDER ELAN EDİR

Lot-1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəsissələri üçün dərman vasitələrinin satın alınması.

Ümumi məlumat-

Satınalan təşkilatın adı – "SƏHİYYƏNİN TƏMİNAT MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

Satınalma predmeti-

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəsissələri üçün dərman vasitələrinin satın alınması.

Satınalan təşkilatın ünvanı- AZ 1022, Bakı şəhəri, akademik M.Mirqasımov küçəsi 1A.

İştirak haqqı 2000 manatdır.

Təşkilat - Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Səhiyyənin Təminat Mərkəzi" PHŞ

VÖEN- 1008078521

İBAN- AZ41CTRE00000000000002128242

Bank- Dövlət Xəzinədarlığı Agentliyi

VÖEN- 1401555071

Kod- 210005

M/h- AZ41NABZ01360100000000003944

SWIFT:CTREAZ22

Büdcə səviyyəsinin kodu -7 (fond)

İqtisadi təsnifat- 142330

Tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı- 25 iyul 2023-cü il saat 12.00-dır.

Təkliflərin son təqdim olunma tarixi və vaxtı- 7 avqust 2023-cü il saat 12.00-dır.

Zərflərin açılış tarixi və vaxtı- 8 avqust 2023-cü il saat 12.00-dır.

Əlaqələndirici şəxs – Ruqiyə Həmidova, telefon-+994503282280.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər.

Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.

Tender təklifi (zərflərin açıldığı gündən qüvvədə olma müddəti) 70 bank günü.

Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində təminatın qüvvədə olma müddəti (zərflərin açılış tarixindən sonra) 30 bank günü.

Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.

İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.

İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.

Satınalan təşkilatın müəyyən etdiyi digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Müsabiqə proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar müsabiqədə iştirak üçün göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) müəyyən olunan tələblərə uyğun təqdim etməlidirlər. Təklif və bank təminatı möhürlənmiş ikiqat zərfdə təqdim edilməlidir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Təkliflərin açılışı zamanı iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender komissiyası**

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 133 (30249) 24 iyun 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Cüdoçularımızın böyük uğuru

**Azərbaycan cüdoçuları yeniyetmələr arasında Avropa çempionatında 5 medal qazanıblar.**



Portuqaliyanın Odivelas şəhərində keçirilmiş yarışda oğlanlar arasında Məhəmməd Məmişov (50 kq), Mirxaliq İskəndərov (55 kq), Məhəmməd Musayev (60 kq), qızlar arasında isə Vüsalə Hacıyeva (48 kq) bütün rəqiblərini məğlub edərək, qızıl medala sahib çıxıblar. Əhməd Rüstəmov (55 kq) isə oğlanların mübarizəsində bürünc medala yiyələnib.

## Xüsusi olimpiyaçılarımızın növbəti qələbələri

**Almaniyanın Berlin şəhərində Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında komandamızın çıxışı davam edir. Yığmamız növbəti medallarını cüdo və stolüstü tennis növləri üzrə qazanıb.**



Təmsilçimiz Kamran Quliyev (60 kq) finala qədər uğurla irəliləsə də, həlledici mərhələdə Kot-d'İvuar idmançısına məğlub olaraq, ikinciliklə kifayətlənib. Stolüstü tennis üzrə idmançımız Ülkər Quliyevanın da çıxışı uğurlu alınıb. Fərdi yarışlarda yalnız finalda uduzan təmsilçimiz gümüş medala layiq görülüb.

Qeyd edək ki, bundan əvvəl üzgüçülük, pouerliftinq və gimnastika növlərinin hərəsində idmançılarımız 4 medal qazanıblar.

## "Krakov-2023": daha bir qızıl medal

**Polşada III Avropa Oyunları davam edir. İyunun 23-də 36 medal dəsti sahibini tapıb.**



Azərbaycan idmançıları bu növlərdən boks, taekvondo, karate və kamandan oxatmada qüvvələrini sınayıblar.

Yarışda uğurla çıxış edən karateçimiz İrina Zaretska (68 kq) bütün rəqiblərinə qalib gələrək, qızıl medala yiyələnib. Bununla da idmançımız Avropa Oyunlarının ikiqat qalibi adına layiq görülüb. Ondan fərqli, Asiman Qurbanlı (84 kq) yarımfinalda mübarizəni dayandırdığından bürünc medalla kifayətlənib. Ümumilikdə karate yığmamız 3 medal qazanıb.

Qeyd edək ki, bundan əvvəl karateçimiz Tural Ağalarzadə (67 kq) yarışı qızıl medalla başa vurub. Komandamızın digər üzvü, taekvondoçu Qaşım Maqomedov (58 kq) Polşada üçüncü yeri tutub.

İyulun 2-dək davam edəcək III Avropa Oyunlarında 48 ölkədən 7 minə yaxın idmançı mübarizə aparır. Azərbaycan "Krakov-2023"də 13 növ üzrə 86 idmançı ilə təmsil olunur.

## Türkiyədə xatirə turniri

**Türkiyənin İstanbul şəhərində Yaşar Doğu, Vehbi Əmrə və Hamit Kaplanın xatirə turnirində daha bir güləşçimiz medal qazanıb.**



Yunan-Roma güləşi üzrə millinin üzvü Qurban Qurbanov (77 kq) gümüş medala layiq görülüb. Bundan əvvəl isə Məhəmməd Əhmədiyev (87 kq) bürünc medala yiyələnib.

*Leyla SABİRQIZI, Xalq qəzeti"*

Texnologiya yenilikləri




## "YouTube" ilk rəsmi alış-veriş kanalı

**"Google" şirkətinə məxsus "YouTube" yeni funksiyalar və xidmətlər üzərində təcrübə aparmaqda davam edir. "Yonhap" xəbər agentliyinin məlumatına görə, şirkət iyunun 30-da Cənubi Koreyada canlı alış-veriş üçün ilk rəsmi kanalını açmağa hazırlaşır.**

Yeni kanal Koreya dilində fəaliyyət göstərəcək və ilk olaraq 90 günlük layihə kimi fəaliyyət göstərəcək. Şirkət 30-a yaxın brendin alış-veriş məzmununu canlı yayımlamağı planlaşdırır. Bu markalara "LG Electronics", "Samsung Electronics", "Hyundai Motor", "Shinsegae" və s. daxildir.

Kanal, həmçinin canlı ticarət əlaqəsini artırmaq üçün "YouTube"un bütün imkanlarından istifadə edəcək. İzləyicilər satıcılarla söhbət edə, virtual hədiyyələr və stikerlər göndərə, eksklüziv fan-klublara qoşula və premium məzmuna (ödənişli abunə xidməti, reklamsız videoya baxış və s.) daxil ola biləcəklər.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## Süni ağıl avtomobil dizayn edir



**"Toyota" avtomobil şirkəti daha bir yeniliyə imza atıb. Şirkət dizayn prosesində süni intellektdən istifadəyə başlayıb.**

Yeni proqram mətn əmrlərini başa düşür və bu əmrlərə uyğun dizayn olunmuş avtomobil hazırlayır. "Toyota", həmçinin müasir texnologiyalar vasitəsilə avtomobillərdəki aerodinamikanı da təkmilləşdirmək istəyir.

Qeyd edək ki, bu təşəbbüs süni intellektdən avtomobil sənayesində istifadə ilə bağlı ilk nümunə deyil. Bundan əvvəl "Audi" avtomobil şirkəti eyni texnologiyadan yüngül lehimli təkərlərin dizaynında yararlanıb.

*F.HÜQUQQIZI, "Xalq qəzeti"*

## Mədəniyyət xəbərləri

***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən (BTMİF)"Türk dünyasına baxış – 2040" konsepsiyasının əsas istiqamətlərindən olan "Türk dünyasının mədəni irs siyahısı"nın hazırlanması ilə bağlı iş aparılır.***



Qurumun təşəbbüsü ilə sözügedən mədəni irs siyahısının hüquqi mətni hazırlanır. Sənədlə bağlı Türk dünyasının akademik, hüquq və mədəni irs sahələrindəki mütəxəssislərinin iştirakı ilə ilk onlayn iclası keçirilib. Müzakirədə mədəni irs hüququ üzrə ekspertlər, maddi və qeyri-maddi irslə bağlı ixtisaslaşmış alimlər, sualtı irsin tədqiqi ilə məşğul olan beynəlxalq təşkilat və qurumların nümayəndələri iştirak ediblər.

BTMİF prezidenti Günay Əfendiyeva sənədin hazırlanmasına dair təşkilat tərəfindən mütəmadi olaraq görüşlərin keçiriləcəyini vurğulayıb.

*

***Sumqayıt şəhərindəki Poeziya Evində Tatarıstan Respublikasının Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq, rejissor Danil Salixovla görüş keçirilib.***



Tədbirdə yerli yazarlar, Sumqayıt Dövlət Dram Teatrının əməkdaşları və mədəniyyət işçiləri iştirak ediblər. Həmkarları Danil Salixovun həyat və yaradıcılığından danışıblar. Ona "Sumqayıt Poeziya Evinin fəxri qonağı" diplomu təqdim olunub. Sonda qonaq tatar folklorundan nümunələr səsləndirib.

*

***Lənkəran Şəhər Uşaq Rəssamlıq Məktəbinin şagirdləri üçün açıq havada sərgi-plener təşkil olunub.***



20 şagirdin iştirak etdiyi bədii aksiyada yağlı, akril və sulu boyalar vasitəsilə kətan və kağız üzərində mənzərələr əks olunub. Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov gənc rəssamlara gələcək fəaliyyətlərində yaradıcılıq uğurları arzulayıb.

*Ə.DOSTƏLİ, "Xalq qəzeti"*

Sağlamlıq guşəsi

## Arıqlamaq: təkcə az yeməklə?

**Az yeyib, pəhriz saxlayıb, amma 1–2 kiloqramdan artıq arıqlamayan insanların sayı günbəgün artır. Dietoloqlar bunun səbəbini belə izah edirlər:**

**Fiziki fəaliyyət azdır:** Orqanizm müəyyən qədər fiziki fəaliyyətə alışır. Əgər bu, azalıbsa, o zaman az yeyərək də çəki artırmaq olar.

**Bədənin fiziki yükü artıb:** Adətən əzələ yağdan daha ağır olur. Çoxları məşq etməyə başlayanda, öncə çəki alır və yağlar əzələ kütləsinə çevrilir.

**Stres:** Bu zaman iştahı artıran kortizol hormonu ifraz olunur. Stresli anlarda bədən fizioloji olaraq daha sürətli yağ toplayır, bu da çəki atmağı ləngidir.



**Yanlış içkilər:** İçkilərdəki kaloriləri çox vaxt unuduruq. Şəkərli, qazlı içkilər və şirələr bizi yeməkdən də çox kökəldir.

**Qida çatışmazlığı.** Qəribədir ki, insan çox az yedikdə də çəkisi arta bilər. Çünki bədən enerjiyə qənaət rejiminə keçir və az kalori yandırır, yeni ac qalacağını düşünüb piy kütləsi yığır.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

## "Simpsonlar"ın öncəgörməsi

**Amerikalıların məşhur cizgi filmi "Simpsonlar"da Titanikin qalıqlarını lentə alan sualtı qayıqla bağlı epizodların olduğu deyilir.**



Hadisələri baş verməmişdən əvvəl proqnozlaşdıran cizgi filmində "Simpsonlar"ın bu məlumatdan illər öncə xəbərdar olduqları iddia olunur.

Bununla bağlı cizgi filminin 2006-cı ildə yayımlanmış bölümündə Homer Simpson obrazının əvvəllər itkin düşmüş atası Masonla yenidən bir araya gələrək, sualtı xəzinə səyahətinə çıxdıqları epizod yenidən gündəmə gəlib.

Qeyd edək ki, məşhur "Simpsonlar" cizgi filmində koronavirus, 11 Sentyabr hadisələri, kriptovalyuta, Donald Trampın prezident seçilməsi və digər mövzularla bağlı kadrlar da yer alıb.

Deyilənə görə, ekran işində hətta Ukrayna-Rusiya müharibəsindən də bəhs olunur.

*F. SALMANOVA, "Xalq qəzeti"*

Proqnoz



## Yağış, dolu düşəcək, duman olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyunun 24-də Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal küləyi əsəcək. Gecə 17-22°, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət 55-65 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 21-22° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 23-24° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 26-31°, dağlarda gecə 7-12°, gündüz 13-18° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*




✓ **Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzi tərəfindən baş leytenant Həsənov Qalib Bayram oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

✓ **2023-cü ildə "AZ TV" QSC tərəfindən Səmədov Ramil Elsevər oğlunun adına verilmiş 0003889481 nömrəli xidməti vəsiqə və 2020-ci ildə DİN-nin Dövlət Yol Polisi İdarəsi tərəfindən verilmiş AD seriyalı, 226002 nömrəli B kateqoriyalı sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5171
SİFARİŞ 1559
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00